RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 281 (9160) CÜMƏ, 23 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Qlobal miqyaslı Lider



**İnsan cəmiyyətinin inkişafı bütün dövrlərdə Lider amili ilə bağlı olub. Toplumun özünü dərki, hədəflərinin müəyyənləşdirilməsi, birgəyaşayış qaydalarını seçməsi və birgə maraqlar naminə səfərbər olunması Liderin üzərinə düşən vəzifələrin yalnız bir hissəsidir.**

Lakin onun rolu və tarixi missiyası miqyas etibarilə daha geniş, mahiyyət baxımından daha əhəmiyyətli olması ilə seçilir. Xalqların, ölkələrin, dövlətlərin tarixini dahi şəxsiyyətlər olan liderlərin həyatı və fəaliyyətindən ayrılıqda təsəvvür etmək mümkün deyil. Azərbaycanın şərəfli tarixinin müəllifləri olmuş dahi şəxsiyyətlərin yolunu uğurla davam etdirən Prezident İlham Əliyevin Liderliyinin miqyası və möhtəşəm nəticələri nəinki xalqımızın qürur mənbəyi, habelə müasir dünyanın diqqətəlayiq siyasi fenomeni kimi qəbul olunmaqdadır.

### Möhtəşəm inkişaf illəri

Ötən əsrin 90-cı illərinin sonu - XXI əsrin əvvəllərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan artıq müstəqil dövlətini qurmuş, etibarlı sabitliyi təmin etmiş, iqtisadi dirçəlişə təkan verən islahatları uğurla həyata keçirmişdi. Əsrin neft müqaviləsi imzalanmış və Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri inşa edilmişdi, neft müqavilələri ilə nəzərdə tutulan ilk neftin dünya bazarına çıxarılmasına isə sayılı günlər qalmışdı. Azərbaycanın yeni inkişaf mərhələsinə daxil olduğunu sübuta yetirən bütün əlamətlər yetişmişdi. Gənc ölkəni yeni gələcək gözləyirdi və o, əfsanəvi gələcəyinə doğru həlledici sıçrayışını etməyə hazırlaşırdı.

Ölkəmizin yeni böyük inkişaf mərhələsinə keçidi ilə 2003-cü ilin prezident seçkilərinin eyni vaxta təsadüf etməsi, düşünürəm ki, dərin simvolik məna yükü daşıyır. Heydər Əliyevin titanik səyləri və müdrikliyinin nəticəsi olan möhtəşəm inkişaf fundamenti üzərində yeni iqtisadi və sosial sıçrayış haqqının Ulu Öndərin siyasi varisinin adına yazılması talenin və xalqın hökmünə verilmişdi. Sevindirici haldır ki, 10 ildən sonra xalqın növbəti seçimi Azərbaycanın indiki yüksəlişinə meydan açdı, ölkə möhtəşəm inkişaf illərinə daxil oldu.

→ 5

## İlham ƏLİYEV:
## "Azərbaycanı biz müstəqil şəkildə idarə edirik"

Prezident İlham Əliyev bu gün bütün dünyada vədinə sadiq, etibarlı lider kimi tanınır. Bu gün Azərbaycan bir çox təşkilatlarda əsas beynəlxalq təsiredici güc rolunu oynamaqdadır. Buna misal kimi dünyanın 120 dövlətini birləşdirən Qoşulmama Hərəkatına Azərbaycanın verdiyi töhfələri qeyd etmək olar. Prezident İlham Əliyevin pandemiyadan sonrakı dövr üçün hərəkatın mövqeyinin formalaşdırılması məqsədilə Qoşulmama Hərəkatının yüksəksəviyyəli görüşünü təşkil etməsi, təşkilatın COVID-19-dan sonra qlobal bərpa üzrə Yüksək Səviyyəli BMT Panelinin yaradılması, hərəkatın təsisatlanması ideyası ilə bağlı məsləhətləşmələrin keçirilməsi, qurumun üzvlərinin parlamentariləri arasında əməkdaşlığın inkişaf etdirilməsi, hərəkatın gənclər şəbəkəsinin formalaşdırılması kimi təşəbbüsləri BMT-dən sonra ən böyük ikinci beynəlxalq platformada yüksək diqqətlə qarşılanmışdı.

Prezident İlham Əliyevin başçılığı altında hazırda dünyanın vacib trendi sayılan bərpaolunan və "yaşıl enerji" əsasında istehsal olunan enerjinin ixracı ölkəmizin enerji siyasətinin yeni sahəsi hesab olunmaqdadır. Son zamanlar dünyada baş verən münaqişələr və iqtisadi kataklizmlər fonunda "yaşıl enerji"nin aktual hal kəsb etməsi gələcəkdə bu enerji növünün dünya enerji bazarında hakim olacağı ehtimalını yüksəldir. Bu istiqamətdə Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyində yaxın illərdə vacib rol oynayan aktorlardan birinə çevriləcək. Dekabrın 17-də Rumıniyanın paytaxtı Buxarest şəhərində "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb.

→ 6

## "Sizinlə birlikdə çalışmağa hazıram"

### Si Cinpin İlham Əliyevi ad günü münasibətilə təbrik edib



Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Son illər ərzində Çin-Azərbaycan münasibətləri davamlı və sabit inkişaf edir, müxtəlif sahələrdə əməkdaşlıq uğurla və səmərəli şəkildə genişlənir. Bu ilin sentyabrında Özbəkistanın Səmərqənd şəhərində keçirdiyimiz uğurlu görüşdə ikitərəfli münasibətlərin inkişafına, beynəlxalq arenada qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə və "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində əməkdaşlığın dərinləşməsinə dair mühüm razılaşmalar əldə edildi.

Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm, ölkələrimizin və xalqlarımızın rifahı naminə dostluq və əməkdaşlıq münasibətlərinin davamlı, uzunmüddətli inkişafına kömək üçün Sizinlə birlikdə çalışmağa hazıram.

Sizə möhkəm cansağlığı və firavanlıq diləyirəm.

Hörmətlə!

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

## Prezident İlham Əliyev səlahiyyətli nümayəndəsinə tapşırıqlarını verdi

### İnsanların qayğısına qalmaq, korrupsiya, rüşvətxorluqla mübarizə, şəffaflıq, düzgün kadr siyasətini həyata keçirmək, mərkəzi icra orqanları ilə sıx təmasda fəaliyyət göstərmək



**Dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Fuad Nəcəflini qəbul edib və ona müvafiq tapşırıqlarını verib.**

AZƏRTAC xəbər verir ki, qəbulda Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına göstərdiyi daimi diqqəti sayəsində və birbaşa tapşırığı ilə həyata keçirilən genişmiqyaslı işlər, o cümlədən böyük infrastruktur layihələrinin həyata keçirilməsi, Naxçıvanda qazlaşdırmanın 100 faiz səviyyəsində təmin edilməsi, enerji təchizatı, müasir yolların inşa olunması, səhiyyə və təhsil obyektlərinin tikintisi, yeni iş yerlərinin yaradılması istiqamətində görülən işlər qeyd olunub.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasına hər il dövlət büdcəsindən böyük həcmdə dotasiya ayrılıb.

Prezident İlham Əliyev tapşırıq verib ki, səlahiyyətli nümayəndə kimi Fuad Nəcəfli insanların qayğısına qalınması, korrupsiya, rüşvətxorluqla mübarizə, şəffaflıq, düzgün kadr siyasətinin həyata keçirilməsi, mərkəzi icra orqanları ilə sıx təmasda fəaliyyətlə bağlı bütün səylərini göstərsin.

Fuad Nəcəfli ona göstərilən yüksək etimada görə dövlət başçısına təşəkkürünü bildirib və Prezident İlham Əliyevi əmin edib ki, bütün fəaliyyət dövlətimizin başçısının siyasəti üzərində aparılacaq, ölkə miqyasında həyata keçirilən genişmiqyaslı islahatların Naxçıvan Muxtar Respublikasında da təmin edilməsi işində səylərini əsirgəməyəcək.

## 3 ayda görüş



Serbiya Azərbaycanın Balkanlardakı mühüm strateji tərəfdaşıdır

→ 8

## Azərbaycanın və Rusiyanın XİN başçıları Laçın yolu ətrafında vəziyyəti müzakirə ediblər

Dekabrın 22-də Ceyhun Bayramov ilə Sergey Lavrov arasında telefon danışığı olub.

→ 4

## Netanyahu İsrailin yeni hökumətini qurur

Bəzi partiyalarla koalisiya müqavilələrinin hələ də imzalanmaması vəziyyəti çətinləşdirib

→ 12

## Vardanyan özünü "yandırır"

İrəvan Rusiya əsarətindən qurtulmağa çalışır

→ 12

## Milli birlik, əzm, güclü iradə

Şuşa-Laçın yolunda ekofəalların etiraz aksiyası şanlı zəfərin yaratdığı qətiyyətin bariz təcəssümüdür

→ 9



## Ermənistan yenə "məzlum" obrazına girib

İrəvanın və separatçıların Azərbaycana qarşı apardığı çirkin təbliğat iflasa uğradılır

→ 9

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Güclü və firavanlaşan dövlət qurulması, əhalinin rifahının və ölkənin beynəlxalq arenada nüfuzunun artmasının təmin edilməsi işində Azərbaycanın sanballı uğurları Sizin Vətənin mənafelərinə sədaqətlə xidmət etməyinizin, uzaqgörən siyasətinizin və dövlət başçısı vəzifəsində şəksiz liderliyinizin əyani nəticəsidir.

Qazaxıstanda Sizi etibarlı dost və Qazaxıstan-Azərbaycan münasibətlərinin daha da dərinləşməsində səmimi marağı olan görkəmli siyasi xadim kimi tanıyırlar.

Əminəm ki, birgə səylərimiz sayəsində biz strateji tərəfdaşlığımızı və müttəfiqliyimizi daha da möhkəmləndirərək ikitərəfli əməkdaşlığı yeni zirvələrə yüksəltməyə nail olacağıq.

Hörmətli İlham Heydər oğlu, Sizə qardaş Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə bundan sonra da uğurlar və yeni-yeni nailiyyətlər arzu edirəm.

*Hörmətlə,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu, əziz Qardaşım.

Doğum gününüz münasibətilə Sizə xoş arzularımı və səmimi təbriklərimi çatdırmaqdan dərin məmnunluq duyuram.

Zati-aliləri, Sizi böyük dövlət xadimi, xalqının yüksək etimadını qazanmış mahir və cəsarətli rəhbər, ölkənin inkişafı və firavanlığı işinə fədakarlıqla xidmət edən, Azərbaycanın yeni inkişaf dövründə tarixi ədaləti bərpa etmiş əsl lider kimi yaxşı tanıyır və dərin hörmət bəsləyirik.

Bunu da xüsusi vurğulamaq istərdim ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan Respublikası son illərdə sosial-iqtisadi inkişafda böyük nailiyyətlər əldə edib, onun beynəlxalq aləmdə nüfuzu və mövqeyi yüksəlməkdədir.

Cari ilin iyun ayında ölkəmizə dövlət səfərinizi, Şanxay Əməkdaşlıq Təşkilatının və Türk Dövlətləri Təşkilatının Səmərqənd şəhərində keçirilən zirvə toplantılarında bilavasitə iştirakınızı, o cümlədən bu səfərlər çərçivəsində keçirilən açıq və səmimi görüşlərimizi məmnunluqla xatırlayıram.

Mən tam əminəm ki, əldə olunan bütün mühüm razılaşmalar ölkələrimiz arasında strateji tərəfdaşlığı daha yüksək səviyyəyə çatdıracaq, çoxşaxəli əməkdaşlığımızı yeni praktiki məzmunla zənginləşdirəcək.

Şübhəsiz ki, ortaq məqsədlərimiz və gələcəkdə ali səviyyəli görüşlərimiz sayəsində Özbəkistanla Azərbaycan arasında uzunmüddətli qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qardaş xalqlarımızın ümumi rifahı naminə bundan sonra da möhkəmlənəcək.

Hörmətli İlham Heydər oğlu, həyatınızın bu sevincli və unudulmaz günündə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, uzun ömür, möhkəm cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar, qardaş Azərbaycan xalqına əmin-amanlıq, davamlı tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

İcazə verin, doğum gününüz münasibətilə Sizə təbriklərimi çatdırım.

Tam əminəm ki, Latviya və Azərbaycan arasında dostluq əlaqələri qarşıdakı illərdə də genişlənməkdə davam edəcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, ölkənizə sülh və firavanlıq diləyir, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Egils LEVİTS,***
***Latviya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sevindirici haldır ki, Sizin iyirmi il bundan əvvəl müdrikcəsinə söylədiyiniz "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram" sözləriniz gerçəyə çevrildi. Mən bilirəm ki, Azərbaycan xalqı dövlətin iqtisadi və sosial inkişafına, onun xarici siyasi maraqlarının müdafiəsinə, vətəndaşların rifahının yüksəlməsinə yönəlmiş səylərinizi yüksək qiymətləndirir.

Qardaş Azərbaycan Sizin bacarıqlı və qətiyyətli rəhbərliyiniz sayəsində regionda və möhkəmlənməkdə olan türk dünyasında getdikcə daha mühüm rol oynayır. Belarusun da iştirakçısı olduğu Qoşulmama Hərəkatında uğurlu sədrlik Bakıya beynəlxalq nüfuz və dərin hörmət qazandırıb.

Bizim görüşlərimizi həmişə məmnunluqla xatırlayıram. Aramızda dostluq və etimad əsasında yaranmış şəxsi münasibətləri, konstruktiv ünsiyyəti və hər ikimizin sıx qarşılıqlı faydalı əməkdaşlığa can atmağımızı yüksək dəyərləndirirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, çoxşaxəli və məsul fəaliyyətinizdə yeni uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

İcazə verin, Sizə cansağlığı və xoşbəxtlik diləyi ilə ən xoş arzularımı çatdırım.

*Hörmətlə,*

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***



❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə bu gün dinamik inkişaf yolunda inamla irəliləyir, cəmiyyət həyatının bütün sahələrində sanballı uğurlar qazanır və dünyada nüfuzunu ardıcıl surətdə möhkəmləndirir.

Azərbaycan Respublikası ilə Türkmənistanın çoxşaxəli tərəfdaşlığının indiki səviyyəsini yüksək qiymətləndirərək dövlətlərarası münasibətlərin inkişafına Sizin şəxsi diqqətinizi və böyük töhfənizi xüsusi qeyd etmək istərdim.

Sizinlə bu yaxınlarda "Avaza" milli turizm zonasında Türkmənistan-Azərbaycan-Türkiyə Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşü çərçivəsində görüşümüzü xoş təəssüratlarla xatırlayıram. Həmin görüşdə tərəflərin ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda qarşılıqlı fəaliyyətin durmadan genişləndirilməsinə və möhkəmləndirilməsinə sadiqliyi bir daha təsdiqləndi.

Əminəm ki, Türkmənistan ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlıq xalqlarımızın rifahı naminə dostluq və mehriban qonşuluğun ən yaxşı ənənələri əsasında bundan sonra da uğurla inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ailə səadəti, qardaş Azərbaycan xalqına bundan sonra da sülh, tərəqqi və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi doğum gününüz münasibətilə ən xoş arzularla ürəkdən təbrik edirəm.

Dost Azərbaycan Sizin rəhbərliyinizlə tərəqqi və dinamik inkişaf yolunda inamla irəliləyərək sosial-iqtisadi və digər sahələrdə sanballı uğurlar qazanır, beynəlxalq arenada nüfuzunu artırır.

Tacikistanla Azərbaycan arasında tarixən formalaşmış dostluq, qarşılıqlı hörmət, etimad və anlaşma kimi dəyərlərə əsaslanan əməkdaşlıq münasibətlərinin ardıcıl olaraq möhkəmlənməsi məsələlərinə Sizin daimi diqqətinizi yüksək qiymətləndirirəm.

Fürsətdən istifadə edib ölkələrimiz arasında ikitərəfli və beynəlxalq gündəliyin aktual məsələlərinə dair sıx birgə işimizi və dövlətlərarası konstruktiv dialoqu davam etdirməyə daim hazır olduğumuzu təsdiq etmək istərdim.

Əziz dostum, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına sülh, firavanlıq və tərəqqi arzu edirəm.

*Hörmətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident Əliyev.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi, cansağlığı və firavanlıq arzularımı qəbul edin.

Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı etimada və hörmətə əsaslanan dostluq və əməkdaşlıq münasibətlərinin xüsusi xarakterini qeyd edirəm. Əminəm ki, ölkələrimiz arasında tərəfdaşlıq əlaqələri xüsusilə enerji, ticarət, kənd təsərrüfatı və mədəniyyət sahələrində bundan sonra da birgə səylərlə inkişaf edəcəkdir. Həmçinin Azərbaycan Respublikasının mənim ölkəmə göstərdiyi köməyə görə minnətdarlığımı və dərin təşəkkürümü bildirmək istəyirəm.

Mən ölkələrimiz arasında siyasi dialoqun genişlənməsini yüksək qiymətləndirirəm və Moldova Respublikasına səfəriniz zamanı Sizi salamlamaqdan şərəf duyacağam.

Cənab Prezident, Sizə fəaliyyətinizdə uğurlar arzulayır, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim, Sizə əmin-amanlıq, möhkəm cansağlığı və uğurlar arzulayım. Azərbaycan Respublikasının inkişafında və rifahında Sizin xidmətiniz əvəzolunmazdır.

Eyni zamanda Gürcüstan ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın güclənməsində Sizin şəxsi səyləriniz böyükdür.

Ölkələrimiz arasında mövcud olan dostluğu və ümumi maraqları nəzərə alaraq inanıram ki, gündən-günə inkişaf edən yaxın münasibətlərimiz və strateji əməkdaşlığımız regionda sülhün, sabitliyin və rifahın bərqərar olunmasına öz töhfəsini verəcəkdir.

Ümid edirəm ki, birgə səylərimizlə mövcud çağırışların öhdəsindən gələcəyik, ölkələrimizin və regionun rifahı naminə öz imkanlarımızdan səmərəli istifadə edəcəyik.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizi bir daha səmimi-qəlbdən təbrik edir, Azərbaycan dövlətinin inkişafı və xalqınızın rifahı naminə dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İrakli QARİBAŞVİLİ,***
***Gürcüstanın Baş naziri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ölkənizin işıqlı gələcəyi naminə fəaliyyətinizin uğurlu olmasını, qarşıya qoyulmuş məqsədlərin reallaşmasını arzu edirəm.

Əminəm ki, Qazaxıstan ilə Azərbaycan arasında yüksək səviyyədə əməkdaşlıq və çoxəsrlik dostluq qardaş xalqlarımızın rifahı naminə bundan sonra da möhkəmlənəcək.

Ümidvaram ki, qarşılıqlı hörmətimiz gələcəkdə də davam edəcək.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər, qardaş Azərbaycan xalqına firavanlıq, birlik və uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti - Elbası***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizi bütün dünyada görkəmli siyasi lider və diplomat, müdrik, uzaqgörən və vətənpərvər dövlət xadimi kimi tanıyırlar. Siz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin yolunu layiqincə davam etdirərək ölkə həyatının bütün sahələrində dərin dəyişikliklər aparmış, ictimai sabitliyi, respublikanın qarşıdakı illər üçün dinamik və mütərəqqi inkişafını təmin etmisiniz. Fəxr edirəm ki, Dağıstanın rəhbəri qismində ilk xarici səfərimi məhz qardaş Azərbaycan Respublikasına etmişəm.

Biz xalqlarımız arasında yaranmış çoxəsrlik dostluğu həqiqətən yüksək qiymətləndiririk. Səmimi-qəlbdən inanırıq ki, ortaq səylərimiz Dağıstan və Azərbaycan xalqları arasında dialoqun daha da genişlənməsinə və qarşılıqlı hörmətin artmasına şərait yaradacaq. Rəsul Həmzətovun Bakını xatırlayaraq yazdığı şeirlərində olduğu kimi, qoy Xəzərin möhtəşəm dalğaları bizim əbədi qardaşlığımızdan danışsın.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji, firavanlıq arzulayır, Yeni ildə ən xoş diləklərimi çatdırıram.

*Dərin hörmətlə,*

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ali dövləti vəzifənizdə müstəqil və gündən-günə firavanlaşan Azərbaycan naminə səmərəli fəaliyyətiniz ən dərin hörmətə layiqdir.

Sizin rəhbərliyinizlə həyata keçirilən strateji kurs ölkənizin regionda və beynəlxalq arenada nüfuzunun və rolunun daim artmasına yönəlib.

İqtisadi potensialın möhkəmləndirilməsi, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması həmişə Sizin işinizin əsas prioritetləri olub və prioritetləri olaraq qalmaqdadır.

Fürsətdən istifadə edib Müstəqil Dövlətlər Birliyi məkanında qarşılıqlı tərəfdaşlıq fəaliyyətinin genişləndirilməsi məsələlərində ardıcıl və konstruktiv mövqeyinizə, MDB İcraiyyə Komitəsinin fəaliyyətini daim dəstəklədiyinizə görə Sizə səmimi minnətdarlığımı bildirirəm.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq və çoxşaxəli dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm.

*Dərin hörmətlə,*

***Sergey LEBEDEV,***
***MDB İcraiyyə Komitəsinin sədri - icraçı katib***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə dərin ehtiramımı və səmimi təbriklərimi qəbul edin.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, dünya arenasında beynəlxalq məsələlərdə haqlı olaraq yüksək nüfuz sahibi kimi mühüm rol oynayır.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Həştərxan vilayətinin çoxşaxəli əlaqələrinin möhkəmləndirilməsinə və təkmilləşdirilməsinə hərtərəfli köməyinizə görə Sizə təşəkkür edirəm. Əminəm ki, yaranmış konstruktiv dialoq ikitərəfli qarşılıqlı əlaqələrin bundan sonra da dərinləşməsinə kömək edəcək.

Möhtərəm İlham Heydər oğlu, həyatınızın bu əlamətdar günündə Sizə möhkəm cansağlığı, əmin-amanlıq, Azərbaycan xalqı naminə bütün planlarınızın və təşəbbüslərinizin uğurla həyata keçməsini arzu edirəm.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleya Şurası adından doğum gününüz münasibətilə səmimi təbriklərimizi qəbul edin.

Çoxillik səmərəli quruculuq fəaliyyətiniz Sizə Azərbaycan xalqının dərin sevgisini qazandırıb. Zəngin dövlətçilik təcrübəniz və yüksək şəxsi keyfiyyətləriniz Sizə respublika vətəndaşlarının həyat səviyyəsini daha da yaxşılaşdırmaq, bütün sahələrdə ölkənin inkişafını təmin etmək və dünya miqyasında onun nüfuzunu yüksəltmək imkanı verir. Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir.

Şübhəsiz ki, Sizin müdrik qərarlarınız MDB iştirakçısı olan dövlətlər arasında inteqrasiya proseslərinin dərinləşməsinə, strateji tərəfdaşlığın və dostluq əlaqələrinin möhkəmlənməsinə sanballı töhfə verir.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və Azərbaycan Respublikasının gələcək inkişafı naminə çoxşaxəli fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edirik.

*Hörmətlə,*

***Dmitri KOBİTSKİ,***
***MDB Parlamentlərarası Assambleya Şurasının Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə ən xoş arzularımı çatdırmaq istərdim. Eyni zamanda Azərbaycanın qazandığı bütün uğurlar, o cümlədən idman sahəsində əldə etdiyi nailiyyətlər münasibətilə Sizi təbrik edirəm.

Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

***Marius VİZER,***
***Beynəlxalq Cüdo Federasiyasının prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

İcazə verin, doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim.

Bilirəm ki, səmimi təbriklər çox olacaq. Xahiş edirəm mənim də sadə və səmimi təbrikimi qəbul edin.

Mən Sizə bundan əvvəl də yazmışdım ki, ömrümün sonunadək Zati-alinizə dua edəcəyəm. Sizin xeyirxahlığınıza, səmimiliyinizə, şöhrətli ananız Zərifə Əliyevanın adını daşıyan məktəbimizə ikinci həyat bəxş edən əvəzsiz köməyinizə görə dua edəcəyəm. Allaha şükür edirəm ki, mənim taleyim ananızın adı ilə sıx bağlıdır.

Zati-aliləri, xahiş edirəm, bu əlamətdar gündə ən səmimi arzularımı qəbul edəsiniz. Bu arzular isə möhkəm cansağlığı, şəxsi səadət, möhtəşəm planlarınızın həyata keçməsinə Tanrının köməyi, Sizin gözəl ölkənizə sülh, xalqınıza firavanlıq diləklərindən ibarətdir.

Uca Allah Sizi və doğmalarınızı qorusun!

*Dərin hörmətlə,*

***Valentina ANTONENKO,***
***Ukraynanın İrpen şəhərindəki Zərifə Əliyeva adına humanitar "Linqvist" liseyinin direktoru, Ukraynanın Əməkdar müəllimi, Azərbaycanın "Dostluq" ordeni laureatı***

# "Büdcə sistemi haqqında", "İşsizlikdən sığorta haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci, 16-cı və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 584; 2003, № 6, maddə 267; 2004, № 12, maddə 979; 2005, № 5, maddə 393, № 12, maddə 1083; 2006, № 2, maddə 67, № 3, maddə 225, № 12, maddə 1012; 2007, № 12, maddə 1202; 2008, № 12, maddə 1049; 2009, № 6, maddə 395, № 7, maddə 505; 2012, № 6, maddə 528; 2014, № 8, maddə 958; 2016, № 11, maddə 1777; 2017, № 1, maddələr 18, 32; 2018, № 8, maddə 1671, № 12 (I kitab), maddə 2500; 2019, № 8, maddə 1365, № 11, maddə 1688; 2020, № 12 (1 kitab), maddə 1449; 2021, № 12, maddə 1330) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1.22-ci maddə ləğv edilsin;

1.2. 15.4-cü maddənin birinci cümləsində "ötən ilin xərclərinin on ikidə biri qədərində (müdafiə olunmuş xərc maddələri üzrə tam) maliyyələşmənin" sözləri "dövlət büdcəsi xərclərinin maliyyələşdirilməsinin ötən ilin xərclərinin on ikidə bir hissəsi qədər olan həcmdə (bu Qanunun 7-ci maddəsində göstərilən xərclər üzrə tam)" sözləri ilə əvəz edilsin;

1.3. 19.5-ci maddə üzrə:

1.3.1. ikinci cümləyə "hissəsi" sözündən sonra "qədər olan həcmdə" sözləri əlavə edilsin;

1.3.2. dördüncü cümləyə "qalan hissəsi" sözlərindən sonra "(qanunla müəyyən edilən hallar istisna olmaqla)" sözləri əlavə edilsin;

1.4. 27.9-cu maddəyə "fondlarının" sözündən sonra "(dövlət sosial müdafiə fondu və işsizlikdən sığorta fondu istisna olmaqla)" sözləri əlavə edilsin.

**Maddə 2.** "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1514; 2018, № 12 (I kitab), maddə 2503; 2019, № 3, maddə 381, № 8, maddə 1382; 2020, № 5, maddə 521, № 9, maddə 1137, № 11, maddə 1322; 2021, № 3, maddə 212; 2022, № 1, maddə 9) 20.1-ci maddəsinə "vəsaitləri" sözündən sonra "hüquqi şəxs yaratmadan təsis edilmiş büdcədənkənar dövlət fondu olan işsizlikdən" sözləri əlavə edilsin.

**Maddə 3.** "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1820; 2019, № 1, maddə 42, № 4, maddə 591, № 7, maddə 1179; 2022, № 7, maddə 715) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 6.0.2-ci və 7.0.1-ci maddələrdən "büdcə qaydasına uyğun hesablanmış" sözləri çıxarılsın və həmin maddələrə "büdcədənkənar" sözündən əvvəl "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.31-1-ci maddəsində nəzərdə tutulan" sözləri əlavə edilsin;

3.2. 7.0.2-ci maddəyə "büdcədənkənar" sözündən əvvəl "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.31-1-ci maddəsində nəzərdə tutulan" sözləri əlavə edilsin;

3.3. 24.1-ci maddəyə birinci halda "büdcədənkənar" sözündən əvvəl "həmin Qanunun 1.1.31-1-ci maddəsində nəzərdə tutulan" sözləri, ikinci halda "büdcədənkənar" sözündən əvvəl "həmin" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 (I kitab), maddə 567, № 8, maddə 919, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29, № 4, maddələr 302, 323, № 5, maddə 475, № 6, maddə 594, № 8, maddə 874; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 27 oktyabr tarixli 1865 nömrəli və 10 dekabr tarixli 1901 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.3-cü bənddən ", Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərman və sərəncamlarını, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını" sözləri çıxarılsın.

2. 2.4-cü və 2.7-ci bəndlərdən ", Naxçıvan Muxtar Respublikasında isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə" sözləri çıxarılsın.

3. 3.1.2-ci yarımbənddən ", Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırıqlarını" sözləri çıxarılsın.

4. 3.1.22-ci yarımbəndin ikinci cümləsi çıxarılsın.

5. 3.2.2-ci yarımbənddən ", Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinə" sözləri çıxarılsın.

6. 4.1.3-cü yarımbənddən ", Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması haqqında" 2021-ci il 15 yanvar tarixli 1251 nömrəli və "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2021-ci il 2 fevral tarixli 1276 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 yanvar tarixli 1251 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 21) 3.2-ci bəndində "3 (üç)" sözləri "4 (dörd)" sözləri ilə, "və onun" sözləri ", onun birinci müavinindən və" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 1276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 118) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.3-cü bəndin ikinci cümləsində "3 (üç)" sözləri "4 (dörd)" sözləri ilə, "və onun" sözləri ", onun birinci müavinindən və" sözləri ilə əvəz edilsin;

2.2. 4.4-cü bəndə "icrasını" sözündən sonra "birinci müavini, birinci müavini müvəqqəti olmadıqda isə" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 dekabr 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli və "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 16 oktyabr tarixli 842 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 440-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61, № 7, maddə 533, № 10, maddə 780, № 12, maddə 983; 2010, № 2, maddələr 77, 80; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 108, № 9, maddə 988; 2016, № 9, maddə 1479; 2017, № 5, maddə 771, № 6, maddə 1081; 2018, № 1, maddə 47, № 3, maddə 450, № 5, maddə 912, № 12 (I kitab), maddələr 2556, 2572; 2019, № 3, maddə 409, № 5, maddə 834, № 10, maddə 1587; 2021, № 9, maddə 988; 2022, № 8, maddə 874) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə II - "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə" üzrə:

1.1.1. 8.15-ci bənddən "birdəfəlik təyinatlı" sözləri çıxarılsın;

1.1.2. 8.21-ci bənddən "toplu maliyyə balansını tərtib etmək və" sözləri çıxarılsın;

1.1.3. 9.2-ci bənddən "aylıq," sözü çıxarılsın;

1.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə III - "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi haqqında Əsasnamə"nin 10.7-ci bəndindən "aylıq," sözü çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 oktyabr tarixli 842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1587) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi haqqında Əsasnamə"nin 3.0.18-ci yarımbəndindən "toplu maliyyə və" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə aylıq əlavə haqqın məbləğinin müəyyənləşdirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 48; 2003, № 8, maddə 441; 2004, № 8, maddə 613; 2005, № 3, maddə 172; 2009, № 6, maddə 419; 2021, № 3, maddə 223, № 7, maddə 732) ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə aylıq əlavə haqqın məbləğinin müəyyənləşdirilməsi və ödənilməsi Qaydası"nın 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. səkkizinci abzas aşağıdakı redaksiyada verilsin:

"ödənişli məzuniyyət dövrləri, o cümlədən uşağa qulluq etmək üçün qismən ödənişli sosial məzuniyyət müddəti;";

2. aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

"müddətli həqiqi hərbi xidmətə çağırılmazdan əvvəl dövlət qulluğu vəzifəsində qulluq etmiş və ehtiyata buraxıldıqdan sonra bilavasitə yenidən dövlət qulluğu vəzifəsinə təyin edilmiş dövlət qulluqçularının müddətli həqiqi hərbi xidmətdə olduqları müddət.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2022-ci il*

# Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Vahid oğlu Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2022-ci il*

# Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi təsis edilsin.

2. "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

3. Müəyyən edilsin ki:

3.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi (bundan sonra - səlahiyyətli nümayəndə) rəhbərlik edir;

3.2. səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidentini təmsil edən vəzifəli şəxsdir və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirir.

4. Mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər dövlət qurumları Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyətlərini səlahiyyətli nümayəndə ilə əlaqələndirilmiş qaydada həyata keçirsinlər.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2022-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında

# ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi (bundan sonra - səlahiyyətli nümayəndəlik) Naxçıvan Muxtar Respublikasının ərazisində (bundan sonra - müvafiq ərazi) bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur bölməsidir.

1.2. Səlahiyyətli nümayəndəlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Əsasnaməni və digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Səlahiyyətli nümayəndəlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Səlahiyyətli nümayəndəlik Naxçıvan şəhərində yerləşir.

### 2. Səlahiyyətli nümayəndəliyin fəaliyyət istiqamətləri

2.1. Səlahiyyətli nümayəndəliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti orqanlarının (bundan sonra - yerli icra hakimiyyəti orqanları) fəaliyyətini əlaqələndirmək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

2.1.2. müvafiq ərazinin davamlı sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə yerli icra hakimiyyəti orqanlarının digər dövlət orqanları (qurumları) ilə qarşılıqlı fəaliyyətini təmin etmək;

2.1.3. müvafiq ərazidə ictimai, sosial və iqtisadi vəziyyətlə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə mütəmadi hesabatlar təqdim etmək;

2.1.4. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək.

### 3. Səlahiyyətli nümayəndəliyin vəzifələri və hüquqları

3.1. Səlahiyyətli nümayəndəliyin vəzifələri aşağıdakılardır:

3.1.1. yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.2. yerli icra hakimiyyəti orqanları arasında, habelə yerli icra hakimiyyəti orqanları ilə digər dövlət orqanları (qurumları) arasında əlaqələndirməni təmin etmək;

3.1.3. müvafiq ərazidə əhalinin rifahının yaxşılaşdırılması üçün dövlət proqramları layihələrinin hazırlanmasında və təsdiq edilmiş proqramların icrasına nəzarətdə iştirak etmək;

3.1.4. aidiyyəti dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının təklifləri əsasında müvafiq ərazinin sosial-iqtisadi inkişafına dair təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək;

3.1.5. Azərbaycan Respublikası Prezidentinin aktlarının və tapşırıqlarının müvafiq ərazidə dövlət orqanları (qurumları) tərəfindən yerinə yetirilməsi vəziyyətini qiymətləndirmək və bununla bağlı Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;

3.1.6. yerli icra hakimiyyəti orqanları tərəfindən müvafiq ərazinin inkişaf meyillərinin müəyyənləşdirilməsi və proqnozlaşdırılması, sosial əhəmiyyətli sifarişlərin öyrənilməsi işinin təşkilinə nəzarət etmək;

3.1.7. müvafiq ərazinin sosial-iqtisadi inkişafı ilə bağlı dövlət orqanları (qurumları) tərəfindən hazırlanmış layihələrə dair rəy vermək;

3.1.8. yerli icra hakimiyyəti orqanlarının fəaliyyətini təhlil etmək və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;

3.1.9. müvafiq ərazidə ictimai, sosial və iqtisadi vəziyyətlə əlaqədar mütəmadi təhlillər aparmaq və Azərbaycan Respublikasının Prezidentinə hesabatlar təqdim etmək;

3.1.10. yerli icra hakimiyyəti orqanlarının kadr potensialının artırılması ilə əlaqədar təkliflər vermək;

3.1.11. müvafiq ərazidə əhalinin problemlərini öyrənmək və onların həlli ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək;

3.1.12. müvafiq ərazidə Azərbaycan Respublikası Prezidentinin həvalə etdiyi digər vəzifələri həyata keçirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün səlahiyyətli nümayəndəliyin hüquqları aşağıdakılardır:

3.2.1. bu Əsasnamədə nəzərdə tutulmuş vəzifələrin icrası məqsədilə müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti başçılarına tapşırıqlar vermək;

3.2.2. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti başçısının müavininin (müavinlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi üçün Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinə təqdimat vermək;

3.2.3. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyətinin başçısı müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icra hakimiyyəti başçısının müəyyən etdiyi müavinlərindən biri tərəfindən həyata keçirilməsinə razılıq verilməsi üçün Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinə təqdimat vermək;

3.2.4. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti başçılarının fəaliyyətləri haqqında hesabat vermələri üçün müddətləri müəyyənləşdirmək;

3.2.5. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyəti başçıları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinə təkliflər vermək;

3.2.6. müvafiq ərazi ilə bağlı normativ hüquqi aktların layihələrinə dair təkliflər vermək;

3.2.7. təhlillər aparmaq, təkliflər, tövsiyələr, rəylər, arayışlar, analitik və digər yönümlü materiallar hazırlamaq, onları aidiyyəti üzrə təqdim etmək;

3.2.8. səlahiyyətlərinə aid olan məsələlərlə bağlı dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə yazılı və ya şifahi sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.9. müxtəlif görüşlər, iclaslar, müşavirələr və digər tədbirlər keçirmək;

3.2.10. qanunvericilikdə nəzərdə tutulan digər hüquqları həyata keçirmək.

### 4. Səlahiyyətli nümayəndəliyin fəaliyyətinin təşkili

4.1. Səlahiyyətli nümayəndəliyin strukturunu və ştat vahidlərinin sayını Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

4.2. Səlahiyyətli nümayəndəliyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi (bundan sonra - səlahiyyətli nümayəndə) rəhbərlik edir. Səlahiyyətli nümayəndə səlahiyyətli nümayəndəliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

4.3. Səlahiyyətli nümayəndənin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Səlahiyyətli nümayəndənin müavinləri səlahiyyətli nümayəndənin onlara həvalə etdiyi vəzifələri yerinə yetirirlər və buna görə şəxsən məsuliyyət daşıyırlar.

4.4. Səlahiyyətli nümayəndə, onun müavinləri, səlahiyyətli nümayəndəliyin əməkdaşları Azərbaycan Respublikası Prezidenti Administrasiyasının əməkdaşlarıdır.

4.5. Səlahiyyətli nümayəndəliyin əməkdaşlarının işə qəbulunu və işdən azad edilməsini, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiqini Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri həyata keçirir.

## Z.İ.Fəti-zadənin Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Zaur İntiqam oğlu Fəti-zadə Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2022-ci il*

## A.Q.Kərimlinin Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Adil Qabil oğlu Kərimli Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini təyin edilsin.

2. Azərbaycan Respublikasının mədəniyyət naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini Adil Qabil oğlu Kərimliyə həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2022-ci il*

## A.Q.Kərimovun Azərbaycan Respublikasının mədəniyyət naziri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Qabil oğlu Kərimov Azərbaycan Respublikasının mədəniyyət naziri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2022-ci il*

## A.Q.Kərimlinin Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Adil Qabil oğlu Kərimli Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2022-ci il*

# İqtisadi Şuranın növbəti iclası keçirilib



Dekabrın 22-də İqtisadi Şuranın növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikası Prezidentinin "Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarə edilməsinin təkmilləşdirilməsi haqqında" Sərəncamından irəli gələrək maliyyə-bank sistemində qanunvericilik aktlarına təklif olunan dəyişikliklərin layihələri ətraflı müzakirə olunub.

İclasda Mərkəzi Bankın sədri Taleh Kazımovun məruzəsi dinlənilib və qanunvericilik aktlarının təkmilləşdirilməsi istiqamətində müvafiq tövsiyələr verilib.

# Azərbaycanın və Rusiyanın XİN başçıları Laçın yolu ətrafında vəziyyəti müzakirə ediblər

Dekabrın 22-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədə və Laçın yolu ətrafında mövcud vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.

Nazir Ceyhun Bayramov Azərbaycan tərəfinin Laçın yolunda öhdəliklərə uyğun olaraq vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verdiyini və Beynəlxalq Qızıl Xaç Komitəsinin, erməni təcili tibbi yardım maşınlarının, sülhməramlı kontingentin avtomobillərinin və digər nəqliyyat vasitələrinin hərəkəti barədə videolardan göründüyü kimi, yolun açıq olduğunu diqqətə çatdırıb.

Bununla yanaşı, azərbaycanlı fəalların etiraz aksiyasının Azərbaycan ərazilərində ermənilərin qeyri-qanuni iqtisadi fəaliyyətinə qarşı həyata keçirildiyi, habelə hərbi təxribatların qarşısının alınması barədə etirazçıların tələblərinin yerinə yetirilməsinin vacib olduğu vurğulanıb.

Yoldan humanitar məqsədlər üçün istifadə edilməsinə bütün şəraitin yaradılmasına baxmayaraq, Ermənistan tərəfinin və Azərbaycan ərazilərində erməni sakinlərin "nümayəndələri" kimi özlərini təqdim edən şəxslərin əhalini yoldan istifadədən çəkindirməsinin, bununla süni şəkildə guya humanitar vəziyyətin pisləşməsi təəssüratı yaratmasının qəbuledilməz olduğu bildirilib.

Telefon danışığı zamanı həmçinin iki dövlət arasında əməkdaşlıq gündəliyinin aktual məsələləri və qarşılıqlı maraq doğuran digər sahələr ətrafında fikir mübadiləsi aparılıb.

# Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Müşahidə Şurasının növbəti iclası keçirilib

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Müşahidə Şurasının sədri Aydın Kərimovun rəhbərliyi ilə Müşahidə Şurasının növbəti - ikinci iclası keçirilib.

İdarənin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktorunun müavini, icraçı direktor vəzifələrini müvəqqəti icra edən Tural Novruzov əsas hədəflərin əks olunduğu və 2026-cı ilədək icrası nəzərdə tutulan Şuşa Şəhər Dövlət Qoruğu İdarəsinin Strateji inkişaf planını Müşahidə Şurası üzvlərinə təqdim edib. Plan ümumi rəy nəticəsində qəbul olunub.

Eyni zamanda Müşahidə Şurasının iclasında bir sıra təşkilati məsələlər də müzakirə olunub və Dövlət Qoruğu İdarəsinə yeni daxili auditor təyin edilib.

# *Ceyhun BAYRAMOV:* "Erməni sakinlərə qarşı tətbiq edilən "blokada" ilə bağlı iddiaların heç bir əsası yoxdur"

Dekabrın 22-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Draqana Kojiç arasında görüş keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanla BQXK arasında əməkdaşlıq məsələləri, bölgədə postmünaqişə dövründə görülən işlər və Laçın yolu ətrafında vəziyyət müzakirə olunub.

Görüşdə nazir Ceyhun Bayramov BQXK-nin ölkəmizdə həyata keçirdiyi fəaliyyətin əhəmiyyətini qeyd edib. Daha sonra Laçın yolunda etirazlara səbəb olan vəziyyət barədə qarşı tərəfə ətraflı məlumat verilib. Etirazların səbəbinin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərdə həyata keçirilən qeyri-qanuni iqtisadi fəaliyyət, Laçın yolundan bu məqsədlə sui-istifadə olunduğu diqqətə çatdırılıb. Bununla yanaşı, davam edən hərbi təxribatlar, Laçın yolundan 2021-ci il Ermənistan istehsalı olan minaların ötürülməsi və dinc əhaliyə qarşı təhdidlər qeyd edilib.

Laçın yolunun guya Azərbaycan tərəfindən bağlanması, erməni sakinlərinə qarşı tətbiq edilən "blokada" və "humanitar fəlakət"lə bağlı irəli sürülən iddiaların heç bir əsasının olmadığı vurğulanıb. BQXK-nin ərazidə fəaliyyət göstərdiyi, avtomobillərin mütəmadi əsasda yoldan istifadə etməsinin buna sübut olduğu bildirilib.

Vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin yolboyu hərəkət rejiminin dəyişməz olaraq qaldığı, Azərbaycan tərəfinin birbaşa və ya BQXK vasitəsilə yerli əhaliyə hər cür yardım göstərməyə hazır olduğu bildirilib. Bununla yanaşı, özlərini yerli ermənilərin "nümayəndələri" kimi təqdim edən şəxslərin əhalini yoldan istifadədən çəkindirməsinin, bununla "humanitar fəlakət" mövcud olduğu təəssüratı yaratmasının qarşısının alınması üçün səylərin vacib olduğu diqqətə çatdırılıb.

Görüş zamanı digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Türkiyə arasında tikinti sahəsində Anlaşma Memorandumu imzalanıb

Azərbaycanın fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Ankara şəhərində qardaş ölkənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum ilə görüşüb.




Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş əvvəlcə təkbətək, sonra geniş tərkibdə keçirilib.

Görüşdə iki ölkə arasında uğurla davam edən strateji müttəfiqlik münasibətlərindən məmnunluq ifadə edilib, bu münasibətlər çərçivəsində iki nazirlik arasında tikintidə təhlükəsizlik məsələləri üzrə əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcud olduğu vurğulanıb. Həmçinin görüşdə iki qurum arasında tikintidə qiymətqoyma və nəzarət, tikintinin keyfiyyət və təhlükəsizliyinin artırılması və digər məsələlər üzrə geniş fikir mübadiləsi aparılıb.

Görüşdə "Azərbaycan-Türkiyə İqtisadi Əməkdaşlığına dair Fəaliyyət Planı"nın icrası ilə əlaqədar birgə hazırlanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında tikinti işləri sahəsində əməkdaşlığa dair Protokol" və "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında tikintidə normativ və qiymətqoyma sisteminin təkmilləşdirilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Bu sənədlər tikintidə qiymətqoyma sisteminin təkmilləşdirilməsi, tikintidə nəzarət, təbii fəlakətlər nəticəsində tikililərə və infrastruktura dəymiş zərərin qiymətləndirilməsi və aradan qaldırılması, tikintidə innovativ texnologiyaların tətbiqi kimi prioritet sahələr üzrə əməkdaşlıq məsələlərini əhatə edir.

# Meşə yanğınları ilə mübarizə istiqamətində əlaqələr genişlənir

Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycanın fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov qardaş ölkənin kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçi ilə görüşüb.



Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan və Türkiyə liderlərinin müdrik uzaqgörənliyi və siyasi qətiyyəti sayəsində iki qardaş ölkə arasındakı münasibətlərin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyi vurğulanıb. Qeyd olunub ki, 2021-ci ilin iyul-avqust aylarında, o cümlədən 2022-ci ilin iyununda qardaş Türkiyədə baş vermiş güclü meşə yanğınları zamanı birgə fəaliyyət nəticəsində yanğınların qarşısının alınması və söndürülməsi bir daha iki ölkə arasında olan əlaqələrin sıx və sarsılmaz olduğunun sübutudur.

Ölkələrimiz arasında mövcud yüksəksəviyyəli münasibətlər çərçivəsində meşə yanğınları ilə mübarizə istiqamətində iki qurum arasındakı əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyəti görüşdə vurğulanıb. Həmçinin meşə yanğınlarına qarşı mübarizə tədbirlərinin təhlili, monitorinqinin aparılması və meşələrin yanğından mühafizəsi sahəsində erkən xəbərdarlıq sistemlərinin tətbiqi, habelə bu sahədə birgə təlimlərin keçirilməsi məsələləri də nəzərdən keçirilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Ermənistanı Azərbaycana və onun əhalisinə qarşı təxribatları dayandırmağa çağırırıq

Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) qərarı üçtərəfli Bəyanata uyğun olaraq, xüsusilə "Laçın dəhlizi ilə hər iki istiqamətdə hərəkət edən şəxslərin, nəqliyyat vasitələrinin və yüklərin təhlükəsizliyi" ilə bağlı Azərbaycan tərəfindən verilən zəmanətləri təsdiq edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin AİHM-in müvəqqəti tədbirlər haqqında qərarına dair şərhində bildirilir.

AİHM-in qərarı həmçinin Rusiya sülhməramlı kontingenti tərəfindən yolboyu nəqliyyatın tənzimlənməsi üzrə öhdəliklərin yerinə yetirilməsi, o cümlədən humanitar və tibbi yardımların keçməsinə şərait yaradılması səbəbindən "Azərbaycan hökumətinin Laçın dəhlizindəki vəziyyətə nə dərəcədə nəzarət etdiyinin mübahisəli olduğunu və aydın olmadığını" qeyd edir.

Dəfələrlə müxtəlif kütləvi informasiya vasitələrində Beynəlxalq Qızıl Xaç Komitəsinin və erməni təcili yardım maşınlarının Laçın yolu ilə sərbəst və təhlükəsiz keçdiyinə dair video sübutlar yayımlanıb. Beləliklə, müvəqqəti tədbirlər haqqında qərarda göstərildiyi kimi, Ermənistanda tibbi müalicəyə ehtiyacı olan ağır xəstələrin təhlükəsiz keçidi təmin edilib.

Azərbaycan hökuməti, Azərbaycan ərazilərində hərəkət azadlığı ilə yanaşı, Ermənistan tərəfindən Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni istismarı, habelə onların Laçın yolu vasitəsilə daşınmasına etiraz etmək məqsədilə Laçın yolunda toplaşmış dinc etirazçıların hüquqlarına da zəmanət verir.

Azərbaycan həmçinin məcburi köçkün ailələrinin və icmalarının evlərinə qayıtmasının qarşısını almaq üçün qəsdən Laçındakı mülki əhalinin evlərində yerləşdirilmiş, 2021-ci ildə Ermənistanda istehsal olunan minaların Azərbaycana daşınması üçün Ermənistan tərəfindən Laçın yolundan istifadə edilməsi ilə bağlı ciddi narahatlığını ifadə edib. Ermənilər tərəfindən qəsdən basdırılmış minalar Azərbaycanda mina qurbanlarının sayının artmasına səbəb olur. Nəticədə Vətən müharibəsinin başa çatmasından bu günədək 276 vətəndaşımız mina qurbanı olub, onlardan 2 nəfər jurnalist daxil 46 nəfər həlak olub. Həlak olan 46 nəfərdən 35-i mülki şəxsdir.

Kobud insan hüquqları və beynəlxalq hüquq normalarının pozulmasına dair sübutlar Beynəlxalq Ədalət Məhkəməsi, Avropa Şurası və BMT Baş katibi də daxil olmaqla müxtəlif beynəlxalq qurumlara təqdim edilib.

Azərbaycan beynəlxalq hüquq öhdəliklərinə əməl etməyə davam edəcək. Ermənistanı Azərbaycana və onun əhalisinə qarşı təxribatlarını dayandırmağa çağırırıq.

Qeyd edək ki, dekabrın 21-də Avropa İnsan Hüquqları Məhkəməsi Laçın yolu ilə bağlı "Ermənistan Azərbaycana qarşı" (№ 4) işində müvəqqəti tədbirlər haqqında qərar qəbul edib.



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# Qlobal miqyaslı Lider

*Əvvəli 1-ci səh.*

Azərbaycanın son 30 illik tarixinin 1993-2003-cü illəri sabitliyin qərarlaşması, müstəqil dövlətçiliyin qurulması və gələcək iqtisadi inkişafın təməlinin yaradılması dövrü kimi səciyyələnirsə, 2003-cü ildən sonra başlayan dövr bir qayda olaraq möhtəşəm yüksəliş illəri adlandırılır. 2003-cü ildən etibarən müşahidə edilən sürətli inkişafın ən parlaq ifadəsi Azərbaycan iqtisadiyyatının illərlə davam edən ikirəqəmli yüksəlişi sayılır. Cəmi bir neçə il ərzində ölkənin iqtisadiyyatı üç dəfədən çox artdı, Azərbaycan beynəlxalq hesabatlarda ən dinamik iqtisadiyyatı olan ölkə reytinqi qazandı. Möhtəşəm iqtisadi yüksəlişin əsasını təşkil edən başlıca amillərdən biri dünya bazarına çıxarılan karbohidrogen ehtiyatları ilə əlaqədardırsa, digər fundamental bünövrə qeyri-neft sahəsində baş verən canlanma hesab edilə bilər. İlham Əliyevin 2003-cü ilin prezident seçkilərində bəyan etdiyi proqramda yer alan 5 ildə 600 min yeni iş yerinin yaradılması konsepsiyası ölkədə genişmiqyaslı sosial layihənin əsasını təşkil etməklə bərabər, həm də iqtisadi inkişafın ciddi şəkildə stimullaşdırılması effektini təmin etdi.

Möhtəşəm iqtisadi inkişafın başlıca qayəsi neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində ölkəyə daxil olan böyük maliyyə vəsaitlərinin ən səmərəli şəkildə istifadəsində ifadə olunurdu. Yaranan yeni imkanlardan daha faydalı şəkildə istifadə edilməsini nəzərdə tutan strategiya işlənib hazırlanmadan gələcəyin güclü və firavan Azərbaycanının qurulması təmin edilə bilməzdi. Məmnunluq hissi ilə qeyd edilməlidir ki, Prezident İlham Əliyev böyük neft pullarından həm iqtisadi, həm də sosial baxımdan ən səmərəli şəkildə istifadə edilməsinin optimal konsepsiyasını hazırlamağa müvəffəq oldu.

Ölkənin qədəm qoyduğu XXI əsrin əvvəllərində Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələsinə keçməsi onun gələcək tərəqqisinin zəruri şərti kimi qəbul olunurdu. Yuxarıda qeyd edilən 5 ildə 600 min iş yerinin açılması proqramı həmin zərurətin dərk edilməsinin aydın ifadəsi sayıla bilər və sayılmalıdır. Lakin aydın şəkildə dərk edilən digər həqiqət ondan ibarət idi ki, bəyan edilən proqramın yerinə yetirilməsi əsaslı infrastruktur layihələri olmadan baş tuta bilməzdi. Enerji sisteminin yenidən qurulması, nəqliyyat sektorunun inkişafı, yol-kommunikasiya sahəsində genişmiqyaslı layihələrin reallaşdırılması, iqtisadiyyatın canlandırılması üçün lazım olan digər proqramların işlənib hazırlanması bu baxımdan tarixi əhəmiyyət kəsb edirdi. Beləliklə, yeni əsrin ilk onilliyində neft strategiyasının yaratdığı geniş imkanlar düşünülmüş iqtisadi yüksəliş strategiyasının sayəsində çoxşaxəli sosial-iqtisadi inkişaf mənzərəsinin meydana gəlməsində özünün təcəssümünü tapmış oldu.

Vurğulanması faydalı olan digər həqiqət odur ki, neft gəlirləri və infrastruktur layihələri dərin sosial layihələrin həyata keçirilməsinə zəmin yaratmışdı və çox qısa zaman içərisində insanların yaşayış səviyyəsinin ciddi şəkildə yüksəlməsi aydın müşahidə edilirdi. Maaşların hiss olunan dərəcədə artırılması, sosial müdafiə mexanizmlərinin təkmilləşdirilməsi, səhiyyənin inkişafı, mənzil inşaatının miqyaslarının genişləndirilməsi və sair sosial inkişafın ümumi mənzərəsini formalaşdıran addımların heç də tam siyahısı deyil. Beynəlxalq reytinq mərkəzlərinin əksəriyyətinin və çoxsaylı ekspertlərin Azərbaycanı dünyanın ən uğurlu gənc dövləti kimi qiymətləndirməsi ölkəmizin XXI əsrin ilk onilliklərində Prezident İlham Əliyevin rəhbərliyi altında sıçrayışlı inkişafının ifadəsi sayıla bilər.

Bugünkü Azərbaycanı və onun möhtəşəm inkişafını nə ötən əsrin 90-cı illərinin ikinci yarısına təsadüf edən sosial-iqtisadi proseslərdən, nə də XXI əsrin ilk illərində qazanılan uğurlardan ayrılıqda təsəvvür etmək mümkündür. Düzgün yanaşma yalnız o həqiqətin dərk edilməsi sayılmalıdır ki, sözügedən inkişaf illəri və onların yekunları ölkəmizin mövcud durumunun formalaşmasının etibarlı əsası rolunu oynamışdır və bir sıra hallarda hazırda da oynamaqdadır.

## Böyük islahatların nəticələri

Qlobal inkişafın başlıca meyillərindən biri milli iqtisadiyyatlar arasında rəqabətin davamlı olaraq dərinləşməsində ifadə olunur. Dünya ictimai tərəqqinin yeni fazasına xas olan dinamizmin birbaşa təsiri altında yaşamaq zorundadır. Dövlətlərin sərvətlərinin və insanların həyat keyfiyyətini yaxşılaşdırmağın başlıca mənbəyini müasir texnologiyalar təşkil etməyə başlamışdır. Buna uyğun olaraq dövlətlərarası iqtisadi rəqabət mübarizəsinin mərkəzində əhəmiyyətli tektonik dəyişikliklər müşahidə olunmaqdadır. İslahatların yeni mərhələsi, iqtisadi və sosial idarəçilik metodlarının təkmilləşdirilməsi öz aktuallığını nəinki qoruyub saxlayır, hətta onun daha da artması müşahidə olunur. Azərbaycanın beynəlxalq inteqrasiyasının obyektiv olaraq güclənməsi, qlobal iqtisadi rəqabət mübarizəsində iştirakçılıq səviyyəsinin dərinləşməsi onun iqtisadi və sosial islahatların yeni fazasına daxil olmasını qaçılmaz zərurətə çevirmişdir. Ölkəmizin yaşadığımız əsrin ikinci onilliyinin ortalarından başlayaraq hələ də davam etməkdə olan dərin, hərtərəfli islahatlar zolağına daxil olması hər şeydən əvvəl bu deyilənlərlə izah edilə bilər.



Azərbaycanın müasir inkişaf mərhələsini səciyyələndirən yeni islahatlar dalğası hər şeydən əvvəl iqtisadi sektorun şaxələndirilməsi kimi aktual vəzifənin həllində təcəssümünü tapır. Zəngin karbohidrogen ehtiyatlarının ixracına əsaslanan iqtisadiyyatın öz yerini tədricən hazır məhsul ixracını nəzərdə tutan iqtisadiyyata təhvil verməsi şaxələnmə strategiyasının başlıca hədəfi və istiqaməti olaraq dərk edilməkdədir. Bir sıra ən müasir texnologiyalar əsasında neft və kimya məhsulları istehsal edən müəssisələrin meydana gəlməsi qeyd olunan strategiyanın uğurla həyata keçirilməsinin ilk, lakin böyük ümid verən cücərtiləridir. Hesab etmək olar ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası öz həyatının yeni dövrünə qədəm qoymaqdadır. Yaxın bir neçə onillikdə ölkəmizin neft sənayesinin mənzərəsini təyin edən parametrlərin satılan xammalda deyil, ixrac edilən hazır məhsulda ifadə olunmağına ümid etmək mümkündür. Sənayemizin dərin keyfiyyət dəyişiklikləri və dünya iqtisadiyyatında etibarlı yer tuta bilməsi də həmin vəzifənin uğurla icra edilməsindən asılı olacaqdır. Qlobal istiləşməyə qarşı mübarizənin getdikcə güclənməsi şəraitində zəngin karbohidrogen ehtiyatlarımızın ən faydalı şəkildə istifadəsinin daha səmərəli formasını təsəvvür etmək sadəcə olaraq mümkün deyil.

Azərbaycanın coğrafi mövqeyinin iqtisadi amilə çevrilməsi islahatların indiki mərhələsinin ümidverici meyillərindən biri, bəlkə də birincilərindən biri hesab oluna bilər. Qeyd olunan konsepsiyanın faydalılıq əmsalı barəsində Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi və gətirdiyi iqtisadi dividendlər timsalında fikir yürütmək mümkündür. Azərbaycan hökumətinin portfelində beynəlxalq nəqliyyat-kommunikasiya layihələrinin siyahısının kifayət qədər geniş olması nəzərə alındıqda bu layihələrin iqtisadi səmərəsinin miqyasını təsəvvür etmək çətin deyildir. "Şimal-Cənub", "Qərb-Şərq" nəqliyyat dəhlizlərinin istifadəyə verilməsi, mövcud olan neft və qaz ixrac kəmərlərinə üçüncü dövlətlərin qoşulmaq ehtimallarının artması, Azərbaycanın Şərqlə Qərbin yeni tarixi şəraitdə ticarət əlaqələrinin genişlənməsinə imkan yaradan "Bir kəmər, bir yol" beynəlxalq kommunikasiya layihəsinə qoşulmaq şansının yüksək olması, Xəzər Dəniz Neft Terminalının yaradılması və bu kimi digər layihələr ölkə iqtisadiyyatının yeni mənzərəsinin ayrı-ayrı fraqmentləridir.

İqtisadi idarəetmənin yeni formalarına meydan verilməsi, iqtisadiyyatın açıqlılığının daha yüksək pilləsi kimi nəzərdə tutulan azad iqtisadi zona rejiminin formalaşdırılması, sənaye parklarının açılması müasir iqtisadi islahatların daha bir formasını təşkil edir. İqtisadi inkişaf mexanizmlərinin bu yeni formaları xarici sərmayələrin cəlb edilməsindən tutmuş yüksəkkeyfiyyətli, rəqabətqabilliyyətli məhsul istehsalını nəzərdə tutan istehsal kooperasiyalarının meydana gəlməsinə təkan verməkdədir. Səmərəlilik əmsalı şübhə doğurmayan və sayı durmadan artmaqda olan aqrokomplekslər iqtisadi islahatların məhsulu olan yeni təsərrüfatların siyahısını uğurla tamamlamaqdadır.

Dünyanın daha çox gələcək iqtisadi inkişaf trendini təşkil edən rəqəmsallaşma və ona əsaslanan texnologiyaların tətbiqinə rəvac verilməsi Azərbaycanda yeni islahatlar fazasının ən mühüm, ən perspektivli istiqaməti hesab olunur. Ölkəmizin süni peyk dövlətləri klubunda yer tutması, "ağıllı texnologiya"lara əsaslanan istehsal sahələrini inkişaf etdirməsi, günəş və külək enerjisi kimi bərpaolunan enerji növlərindən istifadəyə hazırlaşması və s. digər yüksəktexnologiyalı, süni intellektə əsaslanan iqtisadiyyat sahələrinin yaradılmasına böyük sərmayə yatırması texnoloji keçid mərhələsinin aydın görünən əlamətləridir.

Yeni iqtisadi metodların tətbiq edilməsinə əsaslanan müasir iqtisadi islahatlar nəinki ölkəmizin iqtisadi mənzərəsini kökündən dəyişir, onun gələcəyinə etibarlı zəmin hazırlayır, həm də beynəlxalq reytinq mərkəzlərinin diqqətindən yan ötməmişdir. İndi Azərbaycan dünyanın ən çox islahatlar həyata keçirən ölkələrindən biri sayılır, onun təcrübəsi beynəlxalq səviyyədə təqdir edilir, bir sıra ölkələrdə öyrənilir və tətbiq olunur. Azərbaycanda Davos İqtisadi Forumunun regional şöbəsinin yaradılması, beşinci texnoloji inqilab məsələləri üzrə mərkəzin təsis edilməsi barədə qərarların qəbul edilməsi iqtisadi və texnoloji islahatlar sahəsində əldə edilən böyük uğurlara beynəlxalq səviyyədə verilən yüksək qiymətin bariz nümunələridir.

İşğaldan azad olunan ərazilərin yenidən qurulması Azərbaycanın müasir həyatının yeni mərhələsi olmaqla yanaşı, eyni zamanda iqtisadiyyatın növbəti sınağı kimi qiymətləndirilə bilər. Ölkə ərazisinin səkkizdəbirinin (təxminən 13 faizinin) bütünlükdə yenidən qurulması, yüz minlərlə insanın yaşayışının təmin edilməsi nəhəng miqyasda maddi vəsait tələb edir. İlkin hesablamalara görə, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, insanların normal həyat şəraitinin təmin edilməsi xərcləri bir neçə 10 milyard tələb edən qlobal layihə olacaqdır. Ərazinin erməni silahlılarının minalarından təmizlənməsinə xərclənməli olan vəsait də buraya əlavə edildikdə, Azərbaycan hökumətinin xərclərinin daha bir neçə 10 milyard artması qaçılmazdır.

Qeyd edilənlərlə yanaşı, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması ölkə iqtisadiyyatının müasir texnologiyaların tətbiqinə hazırlıq dərəcəsinə özünəməxsus baxış kontekstində nəzərdən keçirilə bilər. İşğaldan azad edilmiş ərazilərdə ən müasir məskunlaşma formalarına cavab verən "ağıllı şəhər" və "ağıllı kənd"lərin salınması ən yeni texnologiyalardan istifadə edilməsi sayəsində mümkündür. Bu mənada Qarabağ ən qabaqcıl texnologiyaların həyata vəsiqə aldığı yeni iqtisadi modelin sınaqdan çıxarıldığı istehsalat meydanı rolunu oynayacaqdır.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın inamla yeni iqtisadi modelə və reallıqlara keçidi müşahidə olunmaqdadır. Bu keçidin zəruri məntiqi nəticəsinin ölkənin keyfiyyətcə yeni sosial reallıqlarının formalaşması, insanların həyatının köklü surətdə yaxşılaşması olacağına dərin inam mövcuddur. Deməli, Prezident İlham Əliyevin Azərbaycanının müasir mənzərəsinin fundamental ölçüsü iqtisadi keçid olmaqla yanaşı, həm də sosial keçid sayılmalıdır və sayılır.

## İlham Əliyevin zəfəri və onun yaratdığı reallıqlar

Azərbaycanın dinamik inkişafı məntiqi olaraq ölkənin həyatının bütün sahələrində möhtəşəm dəyişikliklərlə müşayiət olunmaqda, dövlətin qüdrətinin və beynəlxalq nüfuzunun güclənməsinə etibarlı əsaslar yaratmaqdadır. "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" deyən Ulu Öndərin müdrik sözləri Azərbaycanın son illər ərzində müşahidə etdiyimiz ümumi və hərtərəfli yüksəlişində, müasirləşməsində və modernləşməsində özünün daha bir əyani təsdiqini tapır.

Ölkəmizin artan iqtisadi imkanlarının yaratdığı yeni reallıqlar sırasında ordumuzun güclənməsi, döyüş qabiliyyətinin artmasına səbəb olan müasir silah və sursatlarla təchiz edilməsi ayrıca vurğulanmağa layiqdir. Torpaqları uzunsürən işğal altında olan və münaqişəni danışıqlar, beynəlxalq hüquq çərçivəsində yoluna qoymaq cəhdləri uğursuzluğa düçar olan dövlətin ədalətin bərpası naminə ümid bəsləyəcəyi son ünvan ordusu, onun döyüş qabiliyyəti, döyüşçülərin mətanəti və qəhrəmanlığı olur. Ona görə də Prezident İlham Əliyevin Azərbaycanın artan iqtisadi imkanlarından faydalanmaq prioritetləri sırasında Silahlı Qüvvələrin əsas yerlərdən birini tutması həm daxili auditoriya, həm də xarici dairələr tərəfindən daim anlayışla qarşılanmışdır. Onun ölkənin hərbi büdcəsini qısa vaxtda təcavüzkar Ermənistanın dövlət büdcəsi səviyyəsinə çatdırmaq siyasətinin əsasını məhz bu amilin təşkil etdiyi şübhə doğurmur.

Tarixi ədaləti bərpa etmək, ölkənin dövlət təhlükəsizliyinin etibarlı təminatını yaratmaq məqsədilə Silahlı Qüvvələrin döyüş qabiliyyətinin gücləndirilməsi siyasəti qısa vaxtda öz bəhrəsini verdi. Azərbaycanın Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında şərəfli yerə - 50-ci pilləyə yüksəldi. Ən başlıcası, haqqında danışdığımız strateji seçimin həyati doğruluğu özünü çox gözlətmədi. 2020-ci ilin 44 günlük qalibiyyətli müharibəsinin başlıca arqumentinin qəhrəman Azərbaycan Ordusu olması hamılıqla qəbul edilən gerçəklikdir. Aydındır ki, ölkə iqtisadiyyatının imkanları artırılmadan 30 illik işğala son qoyan qalibiyyətli müharibəni aparmağa qadir olan ordu da yaranmazdı.

Möhtəşəm qələbənin qazanılmasında şanlı Silahlı Qüvvələrin həlledici rolunu bir daha vurğulamaqla, Qarabağın işğaldan azad olunmasının əsaslarını təşkil edən digər amillərin də qeyd olunmasına ehtiyac var. Bu sırada hər şeydən öncə Prezident İlham Əliyevin sərkərdə qabiliyyəti, strateji qərarlar qəbul etmək məharəti, hərbi əməliyyatlar zamanı orduya bacarıqla rəhbərlik etmək istedadı dayanır. Görünən odur ki, Prezident İlham Əliyev addım-addım Azərbaycan Ordusunun döyüş qabiliyyətini artırmaqla yanaşı, qələbənin təmin edilməsində heç də az rol oynamayan daxili və beynəlxalq məqamın seçilməsi kimi həssas vəzifənin də öhdəsindən bacarıqla gələ bilmişdir. Prezident İlham Əliyevin tarixi qələbəni təmin edən hərbi strategiyasının xüsusi vurğulanmalı olan digər tərkib hissəsi qismində milli həmrəyliyin, xalqla ordunun sıx birliyinin təmin edilməsi göstərilməlidir. On minlərlə könüllünün müharibə dövründə cəbhəyə yollanması, böyük döyüş qəhrəmanlıqları nümayiş etdirməsi, əhalinin bütün təbəqələrinin hökumətin siyasətini və ordunu dəstəkləməsi zəfərin hərbi, siyasi və ideoloji mənbələri sırasında heç də sonuncu yeri tutmur. İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Qarabağın azadlığı yolunda canından keçməyə hazır olan və canından keçən vətəndaşlarımızın əksəriyyətinin 20-25 yaşda olması cəmiyyətimizin və müstəqil dövlətçiliyimizin daha bir keyfiyyətindən - gənclərimizin milli vətənpərvərlik tərbiyəsindən, xalqımızın mənəvi saflığından və ucalığından xəbər verir.

Prezident İlham Əliyevin zəfəri Cənubi Qafqazda İlham Əliyev siyasətinin tarixi reallıqlarının formalaşması ilə müşayiət olunur. Postmüharibə dövrünün ən mühüm reallığının 30 il ərzində işğal altında qalan Qarabağın və Şərqi Zəngəzurun azad edilməsində təcəssüm tapdığını sübuta yetirməyə ehtiyac yoxdur. Söhbət ölkə ərazisinin təxminən 20 faizinin azad olunmasından, yüz minlərlə məcburi köçkünün statusunda dəyişikliklərin baş verilməsi ilə yanaşı, illərlə istifadəsiz qalan torpaqların kənd təsərrüfatı məqsədləri ilə işlənməsi imkanlarının meydana gəlməsindən gedir. Sadalananlara tarixi qələbənin Azərbaycan vətəndaşlarında yaratdığı milli qürur və iftixar hissi də əlavə oluna bilər və düşünürəm ki, əlavə olunmalıdır. Azərbaycanın qalib dövlət, azərbaycanlıların qəhrəman xalq statusunun təsdiqini tapması, heç şübhəsiz, postmüharibə dövrünün mənəvi-psixoloji reallığı adlandırılmağa layiqdir.

Regionun hərbi-siyasi mənzərəsinin köklü surətdə dəyişməsi, yeni sülh və birgəyaşayış imkanlarının açılması, iqtisadi, ticarət, kommunikasiya əlaqələrinin fərqli parametrlərinin meydana gəlməsi və s. amillər İkinci Qarabağ müharibəsinin Cənubi Qafqazın həyatına gətirdiyi reallıqların digər dəstini təşkil edir. Artıq Qafqazın və ətraf bölgələrin həyatı, bu günü və gələcəyi tamam fərqli gözləntilərə, ümid və arzulara istinad edir. Həyatın dinamikasının hiss olunan dərəcədə artması, gələcəyə daha nikbin baxışların formalaşması postmüharibə dövrünün simvolik xarakteristikası sayıla bilər. Yaşadığımız bölgənin həyatının bütünlüklə yeni tarixi mərhələyə daxil olduğu aydın şəkildə müşahidə edilməkdədir. Güclü, iqtisadi qüdrəti durmadan artan Azərbaycan və onun Lideri İlham Əliyev bu tarixi mərhələnin mənzərəsini dizayn edən iki möhtəşəm amil sayılır. Həm bölgəmiz, həm də beynəlxalq icmanın bu reallığı dərk və qəbul etməsi Azərbaycanın əzəmətli tarixi nailiyyəti, möhtəşəm diplomatik qələbəsi hesab olunur.

## Azərbaycan Liderinin yeni təşəbbüsləri və hədəfləri

Azərbaycan Prezidentinin postmüharibə dövrü siyasəti yeni reallıqlar şəraitində ölkənin iqtisadi və sosial inkişafını, beynəlxalq iştirakçılığının və əlaqələrinin daha da genişləndirilməsini, təhlükəsizlik problemlərinin etibarlı əsaslarının yaradılmasını təmin etməyə istiqamətlənib. İkinci Qarabağ müharibəsinin zəfərlə başa çatması hökumətin prioritetləri sırasında işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasını, keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıtması üçün lazımi şəraitin yaradılmasını ön plana çəkmişdir. Bu sahədə həyata keçiriləcək tikinti, quruculuq, bərpa və abadlıq işlərinin miqyasının təsəvvür edilməyən dərəcədə zaman və maliyyə tutumlu olması obyektiv olaraq milli inkişaf strategiyasına baxışların yeni parametrlər kəsb etməsini də şərtləndirir. Qarabağ və Şərqi Zəngəzur ərazilərində üç beynəlxalq aeroportun tikilməsinin planlaşdırılması, qısa vaxtda ikisinin tikilib istifadəyə verilməsi bu qəbildən olan yeni yanaşma nümunəsidir.

Qarabağın bərpa və yenidən qurulmasının postmüharibə Azərbaycanının reallıqlarını dünyaya təqdim etməsi və bu əsasda onun böyük iqtisadi və səfərbərlik imkanlarını nümayiş etdirməsi Prezidentin siyasətinin əsas hədəflərindən biri olaraq diqqəti cəlb etməkdədir. Bu halda söhbət sadəcə olaraq ağlasığmaz dağıntılara məruz qalmış şəhər və kəndlərin yalnız bərpa və yenidən qurulmasından deyil, ən müasir inşaat texnologiyaları əsasında şəhərsalma və məskunlaşmanın keyfiyyətcə fərqli modelinin yaradılmasından gedir.

Azərbaycanın son onilliklər ərzində inkişafının yaratdığı müasir, dinamik inkişaf edən ölkə obrazı İkinci Qarabağ müharibəsinin faktiki yekunlarından sonra daha yüksək beynəlxalq etimad qazanmaqdadır. Dünyada ölkəmizin hörmət və nüfuzunun durmadan artması müşahidə olunmaqdadır. Tarixi qələbə eyni zamanda tarixi inkişaf motivasiyasında ciddi pozitiv dəyişikliklərlə müşayiət olunur. Bütün bunlar öz növbəsində məcmu halda Azərbaycanın sosial və iqtisadi inkişafının yeni pilləyə yüksəldilməsini, əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılmasını postmüharibə dövrünün vacib hədəfi səviyyəsinə qaldırır.

Qeyd olunan hədəflərə çatmağın yeganə düzgün yolunun sosial-iqtisadi islahatların dərinləşməsindən və həyatın bütün sahələrinə sirayət etməsindən keçdiyi sübuta ehtiyacı olmayan aksiomdur. Daha müasir və məhsuldar əməyə əsaslanan iş yerlərinin yaradılması, məşğulluq səviyyəsinin yüksəldilməsi, texnoloji yeniliklərin stimullaşdırılması, xidmət sferasının genişləndirilməsi və keyfiyyətinin yaxşılaşdırılması əsasında həyat standartlarının yeni modelinin təsbit edilməsi və s. həyata keçirilən islahatların məntiqi yekununa çevrilməlidir.

Postmüharibə dövrünün səciyyəvi xüsusiyyətləri Prezident İlham Əliyevin regional və beynəlxalq təşəbbüslərinin intensivləşməsi və miqyaslarının əhəmiyyətli dərəcədə genişlənməsi ilə diqqəti cəlb edir. Azərbaycanın beynəlxalq kommunikasiya qovşağına çevrilməsi məqsədilə reallaşdırılan çoxşaxəli layihələr artıq ilk bəhrələrini verir və yaxın zamanlarda regionda nəhəng nəqliyyat habının meydana gələcəyinə şübhə yoxdur.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan neft strategiyasının yeni tarixi şəraitdə davamı kimi əlavə neft və qaz ixrac kəmərlərinin çəkilməsi, Avropanın üzləşdiyi enerji böhranından xilas olmaq üçün Azərbaycana müraciətlərin artması və bu sahədə ölkəmizin atdığı addımlar İlham Əliyevin regional və dünya siyasətində diqqəti cəlb edən təşəbbüslərinin əyani nümunələridir.

Ölkəmizin postmüharibə dövrü təşəbbüslərinin böyük hissəsi regionda sülh və təhlükəsizlik problemləri ilə əlaqədardır. Ermənistanın sülh danışıqlarından hər vəchlə qaçmağa çalışması, müxtəlif təxribatlara əl atması və digər qeyri-konstruktiv hərəkətləri sülh və təhlükəsizlik məsələsinin aktuallığını artırır. Davamlı sülhün təmin olunmasında hazırkı şəraitdə qarşılıqlı etimad və əməkdaşlığın rolunun artırılması zərurəti daha böyük əhəmiyyət kəsb edir. Sülhə nail olmaq naminə postmüharibə dövrünün itirilmiş iki ilinin ən qısa vaxta kompensasiyası da haqqında söhbət gedən təşəbbüslərin mühüm hədəfinə çevrilməlidir.

Məmnunluq hissi ilə qeyd edilməlidir ki, Prezident İlham Əliyevin təşəbbüsləri getdikcə daha çox tərəfdar qazanır, beynəlxalq və regional əməkdaşlığa töhfəsinin artması aydın şəkildə dərk və müşahidə edilir. Avropa məkanında Prezident İlham Əliyevin şəxsiyyətinə və apardığı siyasətə marağın yüksəlməsi günümüzün qürur yaradan gerçəyidir. Sevindirici haldır ki, onun özünə və təşəbbüslərinə beynəlxalq diqqət və hörmətin artması Azərbaycan Respublikasının qlobal nüfuzunun yüksəlməsinin ciddi amilinə çevrilmişdir.

*Müstəqil Azərbaycan Respublikasının müasir beynəlxalq münasibətlərin ən aktual aktorlarından biri kimi qəbul edilməsi, onun Lideri Prezident İlham Əliyevin isə dövrümüzün siyasi liderləri sırasında böyük hörmət və etimad qazanması ölkəmizin hazırkı mövcudluğunun ayrılmaz tərkib hissəsidir. Xalqımızın bu günə qədərki uğurları kimi, gələcək perspektivləri də həmin amillərlə birbaşa əlaqədardır.*

**Əli ƏHMƏDOV,**
***Yeni Azərbaycan Partiyası Sədrinin müavini***



## Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# İlham ƏLİYEV:
# "Azərbaycanı biz müstəqil şəkildə idarə edirik"



*Hər bir xalqın taleyində onun liderinin kim olması vacib məqamlardandır. Dövlətlərin üzləşdikləri uğur və ya faciələr məhz onun liderinin kim olmasından birbaşa olaraq asılıdır. Bu baxımdan Azərbaycan xalqı bəxti gətirən, xoşbəxt xalqlardandır.*

**...2000-ci illərin sonları idi. Prezident İlham Əliyev Gəncəyə növbəti səfərə gəlmişdi. Çoxsaylı təməlqoyma mərasimləri, açılışlar, xalqla səmimi görüşlər böyük coşqu ilə keçirdi.**

**Tədbirlərin birində Möhtərəm Prezidentimiz məndən soruşdu:**

**- Gəncədə əhvali-ruhiyyə necədir?**

**- Çox yaxşı.**

**- Bu, ən əsasdır. Bu gün ölkə sözün əsl mənasında müstəqil, suveren dövlət kimi çıxış edir. Heç bir kənar müdaxiləyə imkan vermədən biz özümüz qanunlar əsasında, müstəqil şəkildə, Azərbaycan xalqının maraqlarına uyğun, onun gələcəyi naminə ölkəni idarə edirik.**

Həmin an mən öz-özümə fikirləşdim ki, postsovet ölkələrinin hamısında vəziyyət heç də belə deyil. Bəziləri vassal, bəziləri isə açıq-aşkar forpost kimi çıxış edirlər. Bizim xoşbəxtliyimiz ondadır ki, Prezident özü səlahiyyətləri çərçivəsində dövləti tam müstəqil idarə edir. Bu, Azərbaycan üçün tarixi nailiyyətdir. Bunun kökündə isə məhz şəxsiyyət faktoru dayanır.

Tədbirlər yekunlaşdı, cənab Prezidenti yola saldıq, ancaq mən hələ də bu sözləri düşünürdüm. İndiyədək də, - az qala 15 il ötsə də, yenə də bu sözləri daim xatırlayıram.

Tarixçi məntiqimlə bu dahiyanə fikri keşməkeşli tariximizin son 50 illik hadisələri fonunda təhlil edirəm. Həqiqətən də, xalqın əhvali-ruhiyyəsi ölkənin iqtisadi, siyasi, təhlükəsizlik və digər məsələləri ilə bağlı ən düzgün barometrdir, ən doğru ölçüdür.

Yaşayışından, sabahından, ölkəsinin vəziyyətindən narazı və narahat olan xalqın da şübhəsiz ki, əhvali-ruhiyyəsi minimuma enir və yad təsirlərin, zərərli dalğaların hədəfinə çevrilə bilir. İnamsız insanlar bədbinləşir və tez sınır. Biz bu amansız taleyi ötən əsrin 90-cı illərinin əvvəllərində xalqımızın timsalında yaşamışıq.

1988-1993-cü illərin acı mənzərələri buna misaldır. Siyasi avantüristlərin təhrikilə insanlarımızın məkrli və təhlükəli oyunların içinə atılması, bir ovuc xain qrupların separatizm meyillərinin ölkəni az qala partlayacaq "barıt çəlləyinə" çevirməsi kimi hallar unudulmayıb. Xalqın sabaha ümidsiz olması, onun müxtəlif problemlərin içində bataraq zəifləməsi fonunda daim xarici qüvvələr meydana çıxır və dövlətin suverenliyinə ciddi təhdid təşkil edirlər.

Otuzuncu ildönümünə hazırlaşdığımız Qurtuluş missiyasının da əsas nəticəsi elə bu dağıdıcı prosesin qarşısının alınması oldu. İnsanlarımız daha narahat deyillər, sabahlarından qorxmurlar, gələcək üçün planlar qururlar, onları reallaşdıracaqlarına əmindirlər. Vətəndaşlarımız rahatdır, gənclərimiz pozitivdir…

Elə əsl liderlik də budur - ölkənin müstəqil şəkildə idarə edilməsi!

Nəyi necə və nə zaman edəcəyini məhz özünün bilməsi, bu barədə kimlərdənsə təlimat almaması!

Açıq danışaq: bu gün postsovet məkanında taleyini, strateji qərarlarını yalnız öz rəhbəri və xalqı müəyyənləşdirən, yaxud da məlum fövqəldövlətlərin təmsilçiləri ilə məsləhətləşmədən, onların direktivləri olmadan hansısa mühüm layihə həyata keçirən nə qədər dövlət var? Çox az.

Nəinki postsovet məkanı, digər qitələrdə olan onlarca ölkə belə yarımmüstəqil durumdadır. Onlar Amerikanın, Avropanın və Asiyanın məlum siyasi paytaxtlarının razılığı olmadan fəaliyyət göstərə bilməzlər. Çünki o dövlətlərdə xalq-dövlət, vətəndaş-hakimiyyət bağlılığı zəifdir, ya da ki, ümumiyyətlə, yoxdur.

İndi bizdən öyrənirlər, təcrübələrimizi mənimsəyirlər, inkişaf modellərimizi araşdırırlar. Biz heç kəsin rəyi ilə qərar qəbul etmirik, ancaq bizim rəylərimizlə qərarlar qəbul edən dövlətlər var. Bizə məsləhət verən yoxdur, bizdən xeyli məsləhət alanlar var. Biz heç kəslə hesablaşmırıq, artıq bizimlə hesablaşırlar. Bizə tələb irəli sürmürlər, bizdən xahiş edirlər.

Bu həqiqəti yalnız biz demirik, əslində, bunu bizdən də dəqiq, bizdən də ətraflı məhz avropalı liderlər söyləyirlər. Məsələn, ötən ayın sonlarında Belqradda azərbaycanlı həmkarı ilə görüşən Serbiya Prezidenti A.Vuçiç Avropanın fövqəlgüclərindən, qitənin siyasi nəhənglərindən şikayət etdi. *"Onlar mənə yalnız Kosovo ilə bağlı məsələ olanda, məni təhdid etmək üçün zəng vururlar. Lakin Prezident İlham Əliyevi sevirlər və sevdiklərinə görə ona zəng vururlar. Onlar ondan hər şeyi xahiş edirlər"* - sözləri cənab İlham Əliyevin şəxsiyyətinə, müstəqil siyasi kursuna Avropa miqyasında bəslənən ehtiramın, onunla hesablaşmalarının növbəti etirafı idi.

Bu nailiyyətlər şübhəsiz ki, həm də Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu fəaliyyət üslubunun, liderlik məktəbinin uğur göstəricisidir. Müstəqil Azərbaycan 2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə inanılmaz inkişaf yolu keçib. Heydər Əliyevin vaxtilə üzərinə götürdüyü tarixi missiya onun layiqli davamçısı - Prezident İlham Əliyevin 19 illik fəaliyyətində əsas hədəflərinə, məqsədlərinə yetişib.

Prezident İlham Əliyev Heydər Əliyev missiyasını layiqincə davam etdirməklə yanaşı, Ulu Öndərin xaos və anarxiyadan xilas etdiyi respublikamızın "Güclü dövlət - müstəqil siyasət" prinsipi əsasında inkişafını təmin edib. Dövlət başçısının çoxvektorlu islahatlar kursu bütün sahələrdə uğurlara təkan verib, hər bir vətəndaşın həyatında irəliləyişlərə səbəb olub. Dövlətimizin müdrik və praqmatik rəhbəri bu narahat, ədalətsiz dünyada, dövlət müstəqilliyini möhkəmləndirməyin, dünyada söz sahibi kimi qəbul olunmağın sadə formulunu irəli sürüb və onu həyata keçirib: güclü olmaq üçün öncə tam müstəqil olmalısan və bunun üçün bütün imkanları səfərbər etməlisən!

Xalq və dövlət naminə reallaşdırılan tarixi missiyanın uğurlarına Birinci vitse-prezident Mehriban xanım Əliyeva da öz mühüm töhfələrini verir. Azad edilmiş ərazilərin bərpasında müstəsna fəaliyyət yürüdən, çoxsaylı layihələr həyata keçirən Mehriban xanım Əliyeva həm də dünyanın diqqətini erməni vandalizminin ağır fəsadlarına yönəldir. Birinci vitse-prezidentin rəhbərliyi ilə Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan hərbçilərin ailələrini və qazilərimizi diqqətdə saxlayır, onların qayğısına qalır.

Birinci vitse-prezident vəzifəsindəki fəaliyyəti ilə Mehriban xanım Əliyeva Azərbaycanın dövlət idarəetmə sisteminə yeni keyfiyyət dəyişiklikləri gətirib. 5 il əvvəl gerçəkləşən bu təyinat idarəetmə modelinin modernləşdirilməsi və islahatların sürətləndirilməsi baxımından əhəmiyyətli olub. Mehriban xanım Əliyeva cəmiyyətdəki böyük nüfuzu ilə idarəçiliyə yeni nəfəs, müasirləşmə və gəncləşmə ruhu verib.

Ötən 19 ildə elmi əsaslara söykənən inkişaf proqramlarını reallaşdıran Prezident İlham Əliyev Azərbaycanı regionun lokomotiv dövlətinə çevirib. 2003-cü ilədək Azərbaycan iqtisadiyyatında əsas ağırlıq neft-qaz sənayesinin cəmləşdiyi paytaxtın üzərinə düşürdüsə, ötən iki onillik ərzində regionların inkişafı istiqamətində atılan ardıcıl addımlar tamamilə fərqli mənzərə yaradıb. Qəbul edilmiş 4 regional inkişaf proqramı bölgə əhalisinin həyat keyfiyyətini çox yüksəldib, rayon və şəhərlərlə paytaxt arasındakı kəskin fərq əhəmiyyətli dərəcədə aradan qalxıb.

Azərbaycan ötən dövrdə kifayət qədər iddialı görünən sosial layihələri reallaşdırmaqla qüdrətli dövlət olduğunu təsdiqləyib. Əgər 19 il əvvəl respublikamızın yaxın zamanda kosmik peykinin olacağı deyilsəydi, çoxları bunu bəlkə də utopiya kimi qarşılayacaqdı. Fəqət, respublikamız bu müddətdə orbitə üç peyk buraxmaqla, kosmik ailənin sayılan üzvünə çevrilib.

Bundan əlavə, 19 il əvvəl Qubanın Xınalıq kimi ucqar dağ kəndinə müasir yolun çəkiləcəyinə, heç zaman mavi yanacaq üzü görməyən Lerik, Yardımlı kimi rayonlara təbii qazın veriləcəyinə kimisə inandırmaq çətin olardı. Ancaq cənab İlham Əliyevin vətənpərvər siyasəti mümkün olmayanı reallığa çevirdi.

Sözsüz ki, cənab Prezident İlham Əliyevin Azərbaycan tarixində oynadığı rolun ən bariz nümunəsi onun Qarabağda və Şərqi Zəngəzurda erməni işğalına son qoyması idi. 2020-ci ilin noyabr ayına kimi beynəlxalq ictimaiyyətdə belə bir təsəvvür formalaşmışdı ki, dövlətlər arasında, ələlxüsus coğrafi cəhətdən kiçik ölkələr arasında münaqişələrin sülh və ya müharibə yolu ilə həlli yalnız böyük güclərin iradəsindən asılıdır. Azərbaycan isə Vətən müharibəsinin gedişində bütün dünyaya sübut etdi ki, suverenlik və müstəqil qərar vermək bacarığı, regional və qlobal aktorların müdafiə etdiyi işğalçı dövlətlər üzərində qalibiyyət xəyal deyil, gerçəklikdir.

İkinci Dünya müharibəsindən sonra yaranmış və 1991-ci ildə isə yenidən formalaşmış beynəlxalq münasibətlər sisteminin bu və ya digər münaqişələrə baxış bucağı "dondurulma", "hegemon dövlətlərin həmin münaqişə coğrafiyasında bir-birinə qarşı dolayısı yolla hərbi əməliyyatlarda iştirak etməsi" kimi hallarda özünü göstərirdi. Lakin coğrafi cəhətdən kiçik ölkə olan Azərbaycan İkinci Dünya müharibəsindən sonra ilk dəfə olaraq işğal altında olan torpaqları azad edən dövlət kimi separatizmdən, təcavüzdən əziyyət çəkən dövlətlər üçün örnək olmağı bacardı.

Sirr deyil ki, bu bir günün deyil, illərlə aparılan sistemli, ardıcıl daxili və xarici siyasət kursunun nəticəsi idi. Prezident İlham Əliyevin tarixi qələbə ərəfəsində yürütdüyü siyasi-ideoloji xətt, onun iqtisadiyyatı gücləndirməklə hərbi sahədə apardığı islahatlar, dövlət quruculuğu, dövlət idarəetməsi istiqamətində verdiyi mühüm qərarlar, xarici siyasət istiqaməti ilə bağlı tətbiq etdiyi baxış bucağı Azərbaycanın düşmən üzərində qələbəsini şərtləndirdi.

Dövlət quruculuğu, dövlət idarəetməsində suverenlik bu gün Azərbaycanın qüdrətli dövlət kimi formalaşmasında vacib rol oynadı. Azərbaycan bir çox qonşu ölkələrdən fərqli olaraq, ölkə daxilində milli, dini, sosial bərabərliyi qura bildi, cəmiyyətin ayrı-ayrı təbəqələri arasında vahid vəhdətin bərqərar olmasını bacardı. Yuxarıda qeyd edilən faktor hazırda qlobal güclər arasında mübarizə coğrafiyalarında yerləşən xalqların taleyində olduqca vacib nüanslardan biridir. Belə ki, yaxın keçmişdə və hal-hazırda Qərb və Rusiya arasında siyasi çatların dərinləşməsi fonunda bir zamanlar SSRİ-yə daxil olan dövlətlərin liderlərinin müxtəlif məsələlərlə bağlı verdikləri qərarların onların xalqlarının faciəsinə gətirdiyini diqqətdən kənarda qoymamalıyıq.

Həmin dövlətlərin bəziləri qlobal güclər arasında mübarizədə qurban olaraq ərazi bütövlüklərini itirdilər, digərləri isə 30 il keçməsinə baxmayaraq suveren dövlət kimi formalaşa bilmədilər. Bu dövlətlərdən fərqli olaraq Azərbaycan suverenliyini qoruyub saxlaya bildi, ötən əsrin məlum konfrantasiyalarının davamı olan hərbi-siyasi bloklara üzv olmadı, beləcə regional və beynəlxalq aktorların ambisiyalarının qurbanına çevrilmədi. Nəticədə Azərbaycan Respublikası bir-birinə qarşı hazırda birbaşa və ya dolayısı yolla müharibə edən dövlətlərlə bərabərhüquqlu və balanslı münasibətlər sistemini qurmağı bacardı. Eyni zamanda, xarici siyasət sahəsində aparılan rasional və uzaqgörən siyasət nəticəsində Azərbaycan beynəlxalq aktorlar üçün vacib siyasi, iqtisadi tərəfdaşa çevrilməyi bacardı.

Prezident İlham Əliyev bu gün bütün dünyada vədinə sadiq, etibarlı lider kimi tanınır. Bu gün Azərbaycan bir çox təşkilatlarda əsas beynəlxalq təsiredici güc rolunu oynamaqdadır. Buna misal kimi dünyanın 120 dövlətini birləşdirən Qoşulmama Hərəkatına Azərbaycanın verdiyi töhfələri qeyd etmək olar. Prezident İlham Əliyevin pandemiyadan sonrakı dövr üçün hərəkatın mövqeyinin formalaşdırılması məqsədilə Qoşulmama Hərəkatının yüksəksəviyyəli görüşünü təşkil etməsi, təşkilatın COVID-19-dan sonra qlobal bərpa üzrə Yüksək Səviyyəli BMT Panelinin yaradılması, hərəkatın təsisatlanması ideyası ilə bağlı məsləhətləşmələrin keçirilməsi, qurumun üzvlərinin parlamentariləri arasında əməkdaşlığın inkişaf etdirilməsi, hərəkatın gənclər şəbəkəsinin formalaşdırılması kimi təşəbbüsləri BMT-dən sonra ən böyük ikinci beynəlxalq platformada yüksək diqqətlə qarşılanmışdı.

Azərbaycanın beynəlxalq aləmdə güclənən mövqeyini sübut edən digər məqam türk dövlətləri arasında son 2 ildə artmaqda olan inteqrasiya meyilləri ilə bağlıdır. Məlumdur ki, Türk Dövlətləri Təşkilatında bu gün güclənməkdə olan inteqrasiya meyilləri həmçinin Azərbaycan Prezidentinin uzunmüddətli səyləri ilə bağlıdır.

Prezident İlham Əliyevin başçılığı altında coğrafi cəhətdən kiçik Azərbaycanın nüfuzunun qlobal miqyasda əhəmiyyətli olmasının digər göstəricisi Bakı şəhərinin beynəlxalq miqyaslı siyasi, iqtisadi, mədəni mövzulardakı tədbirlərə evsahibliyi etməsidir. Bu mənada Azərbaycan dövlətinin və onun liderinin ölkəmizdə təşkil etdiyi müxtəlif qlobal miqyaslı tədbirləri qeyd etməmək olmaz. Azərbaycan son illər ərzində qlobal çağırışların müzakirə olunduğu məkana çevrilib. Ümumdünya Mədəniyyətlərarası dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, dünya dini liderlərinin Zirvə görüşləri və digər mötəbər tədbirlər, eləcə də BMT tərəfindən dəstəklənən qlobal toplantıların Bakıda keçirilməsi artıq ənənə halını alıb. Bakı bu gün beynəlxalq müzakirələrin həyata keçirildiyi nüfuzlu platforma rolunu oynayır.

Hazırda Rusiya və Ukrayna arasında davam etməkdə olan müharibə fonunda ölkəmizin neft-qaz və nəqliyyat-kommunikasiya statusu artmaqdadır. Məlum olduğu kimi, qarşıdakı illər ərzində Azərbaycan təbii qazının daha çox Avropa dövlətləri tərəfindən alışı nəzərdə tutulur. Elə son statistikaya da nəzər salsaq, ötən ildə ölkəmizin Avropaya 8,2 milyard kubmetr, bu il isə 11,3 milyard kubmetr təbii qaz ixrac etdiyini görmüş olarıq. Sözsüz ki, bu rəqəmin qarşıdakı 10 ildə dəfələrlə artırılması planlaşdırılır. Lakin rəsmi Bakı təkcə təbii qaz və neftin dünya bazarına ixracı ilə kifayətlənməyərək daha bir istiqamətdə qoca qitə üçün vacib tərəfdaş olmaq niyyətindədir.

Prezident İlham Əliyevin başçılığı altında hazırda dünyanın vacib trendi sayılan bərpaolunan və "yaşıl enerji" əsasında istehsal olunan enerjinin ixracı ölkəmizin enerji siyasətinin yeni sahəsi hesab olunmaqdadır. Son zamanlar dünyada baş verən münaqişələr və iqtisadi kataklizmlər fonunda "yaşıl enerji"nin aktual hal kəsb etməsi gələcəkdə bu enerji növünün dünya enerji bazarında hakim olacağı ehtimalını yüksəldir. Bu istiqamətdə Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyində yaxın illərdə vacib rol oynayan aktorlardan birinə çevriləcək. Dekabrın 17-də Rumıniyanın Buxarest şəhərində "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb.

Beləcə, 30 il əvvəl elektrik enerjisindən özünün korluq çəkdiyi Azərbaycan bu gün dünyanın inkişaf etmiş ölkələrinin enerji təchizatında aparıcı rol oynayan beynəlxalq subyektə çevrilməyi bacarmaqdadır. Xatırlatmaq yerinə düşər ki, Azərbaycanın uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edilməsi prosesinə artıq start verilib. Cari ilin yanvarında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisinə başlanıb. Daha sonra - martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin iştirakı ilə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməli qoyulub.

Prezident İlham Əliyev işğaldan azad olunmuş əraziləri - 10 min kvadratkilometr ərazini "yaşıl enerji" zonası elan edib. Buraya daxil olan bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Hazırda Cəbrayıl rayonunda bp şirkəti ilə birlikdə "Şəfəq" Günəş-Elektrik Stansiyasının tikintisi barədə danışıqlar davam edir.

Beləliklə, nəinki Azərbaycanda və regionda, bütün dünyanın sayılıb-seçilən liderlərindən olan Prezident İlham Əliyev bir çox dövlət başçıları üçün örnəkdir. O, Azərbaycanın timsalında "məqsədlərə necə çatılır" formulunu reallaşdıraraq dünyada yeni münasibətlər sisteminin əsasını qoydu. Cənab Prezident İlham Əliyev 2003-cü ildə məsuliyyətli missiyasının icrasına başlama ərəfəsində *"Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm"* demişdi. Ötən 19 ildə bu vəd tam doğruldu.

*Bu gün Azərbaycan xalqı, ümumiyyətlə, dünyadakı bütün azərbaycanlılar ölkə rəhbəri ilə fəxr edir. Prezident İlham Əliyev qüdrətli liderliyi, dahi intellekti, misilsiz vətənpərvərliyi ilə Azərbaycanı düzgün hədəflərə doğru əzmlə aparır və dövlətimizin gələcəyinin möhkəm təməllərini yaradır.*

**Eldar ƏZİZOV,**
***Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, YAP İdarə Heyətinin üzvü***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

**"2003-cü ildən - Prezident vəzifəsinə ilk dəfə seçiləndən bu günə qədər xalqın dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək iradəmi möhkəmləndirir. Bu dəstək nəticəsində biz hamımız - bütün Azərbaycan xalqı böyük tarixi uğurlara imza atmışıq".**

**Prezident İlham ƏLİYEV,**
*24 dekabr 2021-ci il*
*Şuşa, Cıdır düzü*



## Qüdrətli Azərbaycanın qurucusu

60 illik yubileyini ailə üzvləri ilə birgə şanlı zəfərimizin zirvəsi, mədəniyyətimizin paytaxtı Şuşa şəhərində qeyd edən Prezident İlham Əliyev Cıdır düzündəki çıxışına heç də əbəs yerə bu fikirlərlə başlamamışdı. Çünki 19 il öncə Ulu Öndər Heydər Əliyevin çağırışına səs verən qədirbilən Azərbaycan xalqından etimad mandatı alan cənab İlham Əliyev bu qısa zaman dövründə daim xalqının yanında olub, ancaq milli maraqlara xidmət edən siyasət yürüdərək alternativsiz Lider olduğunu təsdiqləmişdir. Həmçinin 200 illik müharibəyə, 30 illik münaqişəyə son qoyan Müzəffər Ali Baş Komandan əsl sərkərdə kimi Azərbaycan xalqının qəlbində əbədi heykəlini ucaltmışdır.

Bu bir həqiqətdir ki, tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın son 19 ildə əldə etdiyi böyük zəfərlər məhz Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Böyük strateq, Ümummilli Lider Heydər Əliyev məktəbinin ən layiqli məzunu məhz dahi şəxsiyyətdən öyrəndiyi siyasi kursu, daxili və xarici diplomatiyanı necə reallaşdırdısa, cəmi 19 ildə adını dünyada ən islahatçı Prezident, etibarlı tərəfdaş, sözünə və vədinə sadiq barışdırıcı Lider, ən arzuolunan dövlət başçısı, qlobal miqyaslı layihələrin müəllifi və əsl komandan kimi tanıtmağa müvəffəq oldu. Bu, ilk növbədə Ulu Öndər Heydər Əliyev siyasi kursunun təntənəsi idi.

### Ən layiqli Lider, yüksəlişin təməl daşı

Görkəmli şəxsiyyət Heydər Əliyevin fəaliyyətinin özəyində xalqına, dövlətinə və Vətəninə olan sonsuz sevgi dayanırdı. O, xalqa verdiyi bütün sözlərin, vədlərin mahiyyətini dərindən dərk edirdi. Bu siyasət nəhəngi "Həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcəyəm və bütün fəaliyyətimi Azərbaycanın gələcək inkişafına sərf edəcəyəm" deyərək üzərinə götürdüyü öhdəlikləri özünün müdrikliyi, peşəkarlığı, uzaqgörənliyi ilə müsbət sonluqla şərəflə yerinə yetirdi.

Xalqına etdiyi müraciətlərin bir məqamına məsuliyyətlə yanaşan Ulu Öndərin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikirləri Azərbaycanı bugünkü xoşbəxt gələcəyə daşıdı. Məhz Heydər Əliyev məktəbinin ən layiqli məzunu bu işlərin öhdəsindən gələ bilərdi. Ölkəmizin bu gün qazandığı uğurlar, əldə etdiyi nailiyyətlər, ən əsası, regionun liderinə çevrilməsi, dünyada söz sahibi olması Ulu Öndərin illər öncə səsləndirdiyi sözlərin nə qədər uzaqgörənliklə, müdrikcəsinə söylədiyini bir daha təsdiqlədi.

2003-cü ildə xalqın mütləq əksəriyyəti cənab İlham Əliyevi özünə yeni lider, prezident seçdi. Heydər Əliyev siyasi kursuna sadiq qalacağına, onun yürütdüyü siyasətin, yarımçıq qalan ideyalarının gerçəkləşməsi üçün var gücü ilə çalışacağına söz verən cənab İlham Əliyev sözdə yox, əməldə fəaliyyətə başladı.

Əldə edilən nailiyyətlər isə göz önündədir.

Prezident seçildikdən sonra cənab İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarını təsdiqləyərək daxili inkişafı şərtləndirən mühüm addımlar atmağa başladı. Bu günədək ölkəmizdə regionların inkişafı ilə bağlı qəbul edilən 4 dövlət proqramı (2004-2008-ci, 2009-2013-cü, 2014-2018-ci, 2019-2023-cü illər) Azərbaycanın, xüsusən də regionların simasını büsbütün dəyişdi. Bir vaxtlar özünün təbii sərvətləri olduğu halda xalqının enerjiyə olan tələbatını idxal hesabına ödəyən dövlət çox keçmədi ki, dünyaya enerji ixrac etməyə başladı. Əlavə edək ki, ilk dövlət proqramının icrasına başlayarkən Azərbaycanın dövlət büdcəsinin gəlirləri 7 518 400 milyon manat, xərcləri isə 7 833 400 milyon manat, valyuta ehtiyatları cəmi 1,8 milyon dollar idi.

Amma Prezident İlham Əliyev yenə də heç bir sosial layihəni təxirə salmadı, dövlət proqramında nəzərdə tutulmuş bütün layihələr icra edildi. Eləcə də digər dövlət proqramlarının vaxtında və uğurlu icrası və Prezident İlham Əliyevin mütərəqqi islahatları ilə Azərbaycan həqiqətən də güclü iqtisadi bazaya sahib dövlətə çevrildi. Təkcə ölkənin valyuta ehtiyatlarının hazırda 56 milyard dollara, dövlət büdcəsinin gəlirlərinin isə 30 milyard manata yüksəlməsi bunu təsdiqləyən reallıqdır.

Son 19 ildə dövlət başçısının fəaliyyətinin mühüm tərkib hissəsini ölkənin sosial-iqtisadi inkişafının daha da möhkəmləndirilməsi təşkil etdi. Ardıcıl olaraq həyata keçirilən kompleks tədbirlər sayəsində ölkəmizdə vətəndaşların daha layiqli həyat şəraiti təmin olundu. Bu istiqamətdə mütəmadi xarakter alan islahatların nəticələrini hər bir Azərbaycan insanı öz həyatında hiss etməyə başladı. Prezidentin müxtəlif vaxtlarda verdiyi sərəncamlarla elə bir sahə olmadı ki, minimum əməkhaqqında, pensiya və müavinətlərdə artım olmasın. Ümumilikdə əməkhaqların, əmək pensiyalarının və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin müntəzəm olaraq artırılması ölkəmizin dayanıqlı iqtisadi gücünü və sürətli inkişafını göstərir. Bu artım ölkəmizin bundan sonra da sosial-iqtisadi inkişafına, əhalinin sosial rifah halının və əmək şəraitinin daha da yaxşılaşmasına böyük imkanlar yaradacağını deməyə əsas verirdi.

### Hər zaman xalqın yanında olan Lider

Azərbaycan Prezidenti hər zaman xalq içərisində oldu, paytaxtda və regionlarda sadə vətəndaşlarla səmimi söhbətləşərək arzu və istəklərini dinlədi, dar gündə də, xoş gündə də onlarla birlikdə oldu. Xalqın marağından kənar heç bir addım atmadı, bütün müstəvilərdə xalqının mənafeyini ləyaqətlə müdafiə etdi. Qədirbilən Azərbaycan xalqı Prezidentin bu diqqət və qayğısını yüksək dəyərləndirərək hər zaman ona dəstək verdi, birlik nümayiş etdirdi.

Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı xalqımızın ruhuna hopdu, həmrəyliyimizi daha da möhkəmləndirdi, böyük uğurlarımıza və qələbələrimizə yol açdı. İndi hər bir Azərbaycan vətəndaşı böyük fəxarətlə deyə bilər ki, mən siyasi sabitliyin, əmin-amanlığın, tərəqqinin, tolerantlığın tam bərqərar olduğu, bütün sahələrdə inkişafın ən uca zirvəsinə ucalmış ölkədə yaşayıram. Görülən irimiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində Azərbaycanın siyasi, iqtisadi imkanları durmadan genişlənir, beynəlxalq nüfuzu artır.

Dövlət başçısı cənab İlham Əliyevin 2003-cü ildə Prezident seçilərkən xalqa verdiyi ən ali vədi Ermənistanın işğalı altında olan torpaqlarımızın azad edilməsi idi. Həmin zaman Prezident İlham Əliyev birmənalı şəkildə bəyan etmişdi ki, bizim Ermənistan tərəfinə edə biləcəyimiz ən böyük güzəşt danışıqlar masasında əyləşib bu məsələni sülh yolu ilə həll etmək olar, bundan başqa hər hansı bir güzəşti bizdən gözləməsinlər, torpağımızın bir qarışını belə heç kimə verməyəcəyik.

Prosesləri düzgün qiymətləndirərək özünün siyasi potensialı, diplomatik bacarığı ilə Ermənistanın işğalçı hakimiyyətini ifşa edən Azərbaycan Prezidenti beynəlxalq və regional təşkilatların, dövlətlərin bu istiqamətdə qətnamələr qəbul etməsinə nail oldu. Dünyanın mütərəqqi qüvvələri Ermənistanın apardığı təbliğatın yalan olduğunu, Azərbaycanın ədalətli mövqeyini, əsl həqiqəti anlamağa başladılar. Bu, Prezident İlham Əliyevin böyük diplomatik uğuru idi.

### Avropanın enerji xəritəsini dəyişən qlobal layihələr

Əlverişli coğrafi mövqedə və ən mühümü iki qitənin qovuşuğunda yerləşməsi Azərbaycana yeni-yeni əlaqələrin qurulması prosesində mühüm rol oynamaq imkanı verdi. Zəngin enerji ehtiyatlarına malik olan Azərbaycan özünü qlobal əhəmiyyətli enerji layihələrinin müəllifi kimi tanıtdı və coğrafi üstünlüyündən faydalanaraq şərqlə qərbi, şimalla cənubu birləşdirən nəqliyyat qovşağı və logistik mərkəzə çevrildi.

Məhz Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ilə reallaşan transmilli layihələr Azərbaycanı dünyada etibarlı tərəfdaşa çevirdi. Ölkənin əlverişli geostrateji mövqeyi keçən 20 ilə yaxın dövr ərzində irimiqyaslı layihələrin həyata keçirilməsinə, nəqliyyat-kommunikasiya infrastrukturunun müasir tələblərə cavab verən səviyyəyə çatmasına imkan verdi.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət Azərbaycanı yeni inkişaf mərhələsinə çıxarmaqla yanaşı, regional və beynəlxalq miqyasda nüfuzunu da artırdı. Hazırda dünyanın geosiyasi və iqtisadi gündəminin əsas mövzularından birini təşkil edən Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycan əsas açar rolunu oynayan dövlətlərdən biri kimi qəbul olunmaqdadır. Çünki Azərbaycanın iştirakı olmadan bölgədə və geniş mənada yerləşdiyimiz qitədə enerji təhlükəsizliyi məsələləri tam şəkildə həll oluna bilməz. Bu reallığı tərəfdaşlıq etdiyimiz böyük ölkələr də bölüşürlər.

Dünyanın hətta ən qüdrətli dövlətləri belə enerji sahəsində Azərbaycanla əməkdaşlığa xüsusi önəm verməklə yanaşı, bundan, sözün əsl mənasında, qürur hissi keçirdiklərini də açıqlayırlar.

Bu prosesi dəyərləndirən Prezident İlham Əliyev deyir ki, Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədiyi layihələr Avropanın enerji xəritəsini tamamilə dəyişir. Çünki Azərbaycan tərəfdaşları ilə birgə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəməri çəkməklə yeni rekordlara imza atıb.

"Şərq-Qərb","Şimal-Cənub" nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq həm də "Cənub-Qərb" və "Şimal-Qərb" layihələri üzərində də iş aparan Azərbaycan bu gün Avrasiyada enerji körpüləri yaradır.

Hazırda Rusiya-Ukrayna müharibəsinə görə rəsmi Moskvaya tətbiq edilən sanksiyalar üzündən Avropanın enerji təminatında əsas ümid yerindən biri də Azərbaycandır. Bu il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması da bir daha təsdiqlədi ki, Avropanın bu gün Azərbaycan qazına böyük ehtiyacı var.

### Böyük zəfərin memarı

Bununla paralel olaraq cənab İlham Əliyev Ali Baş Komandan kimi Azərbaycan Silahlı Qüvvələrinin arsenalının gücləndirilməsi, daha da modernləşməsi istiqamətində cox ciddi islahatlar apardı. Bu da təbii idi. Çünki torpaqları işğal altında olan ölkənin güclü orduya ehtiyacı vardı. Torpaqlarını işğaldan sülh yolu ilə azad edə bilməyən ölkə sonunda məsələni güc yolu ilə həll etməli idi.

Ali Baş Komandan qısa zamanda elə bir ordu formalaşdırdı ki, Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 ən güclü orduları sırasında qərarlaşdı. İllər keçdikcə Silahlı Qüvvələrimizin maddi-texniki bazası gücləndi. Ali Baş Komandanın ordu quruculuğu siyasəti mükəmməl nəticələr verdi. 2016-cı ildə Aprel döyüşləri, 2018-ci ildə Günnüt zəfəri bir daha təsdiqlədi ki, Azərbaycan Ordusu istənilən zaman torpaqlarımızı azad etməyə qadirdi. Elə belə də oldu və dünya ilk dəfə "smart müharibə" aparan dövlətin böyük zəfərinə şahidlik etdi.

Müzəffər Ali Baş Komandanın "dəmir yumruq" əməliyyatını uğurla icra edən Azərbaycan Ordusu cəmi 44 günə düşməni diz çökdürdü. Azərbaycan Ordusunun hər döyüşü qəhrəmanlıq dastanına çevrildi. İgid Azərbaycan oğulları şərəfləri ilə ən böyük tariximizi yazdılar, qanları, canları bahasına, heç nədən qorxmadan, çəkinmədən, ölümün gözünə dik baxaraq xalqın 30 illik həsrətinə son qoydular.

Dövlət başçısı böyük sərkərdəlik keyfiyyətləri ilə yenilməz ordumuzun qüdrəti, xalqımızın sarsılmaz birliyi sayəsində cəmi 44 günə Ermənistan ordusunu məhv etdi, hərbçilərinin sağ qalanları isə fərariliklə, qaçmaqla canlarını qurtardılar.

İkinci Qarabağ müharibəsinin gedişi göstərdi ki, sıravi əsgərdən tutmuş generala qədər hər bir döyüşçümüz qəhrəmandır, onlar igidlikləri ilə Azərbaycanın ən böyük tarixini yazdılar.

Prezident İlham Əliyev diplomatik və sərkərdəlik məharəti ilə Azərbaycanın son 200 illik tarixini yenilədi, bu müddət ərzində qələbəyə həsrət qalmış xalqın tarixinə qızıl hərflərlə "Qalib Azərbaycan" ifadəsini həkk etdirərək onu müzəffər etdi. Gələcək nəsillərə isə böyük ibrət, qəhrəmanlıq məktəbi miras qoydu.

### Azərbaycan qalib tərəf kimi sülh prosesini diktəsi ilə idarə edir

İkinci Qarabağ müharibəsindən sonra regionda yeni reallıqlar yarandı. Amma ən mühümü - Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin imzalanması məsələsi hələ də müzakirə mövzusu olaraq qalır. Bunun da yeganə səbəbi Ermənistanın əsassız iddialarıdır.

Azərbaycan qalib tərəf kimi prosesi öz diktəsi ilə idarə edir, Ermənistan isə müxtəlif bəhanələr gətirib vaxt udmaq istəsə də, istəyinə nail ola bilmir. Çünki bölgədə marağı olan güclər Cənubi Qafqazda sülhün və təhlükəsizliyin tez bir zamanda təmin olunmasını istəyirlər. Yəni dünya birliyi də Azərbaycanın haqlı tələbini aydın şəkildə dəstəkləyir. Tərəflər arasında aparılan sülh danışıqları isə həm Rusiyada, həm də Avropada reallaşır.

Sülh müqaviləsi yalnız Prezident İlham Əliyevin irəli sürdüyü 5 prinsip əsasında imzalana bilər. Brüssel və Soçidə keçirilən bütün görüşlərdə Azərbaycan Prezidenti qətiyyətli qərarında israrlı olduğunu ortaya qoyub və bəyan edib ki, Qarabağ münaqişəsi artıq keçmiş tarixdir, Azərbaycan bunu öz gücü ilə həll edib. Ermənistan da Brüsseldə imzaladığı bəyanatla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını etiraf edib.

### Möhtəşəm quruculuq və Böyük qayıdış

Vətən müharibəsindəki şanlı zəfərdən sonra Azərbaycan dövləti işğaldan azad edilən torpaqlarında - Şərqi Zəngəzurda və Qarabağda misli görünməmiş tikinti-quruculuq işlərinə başlayıb. Həyata keçirilən bütün layihələr heç kimdən, yəni heç bir dövlətdən, beynəlxalq maliyyə təşkilatlarından maddi yardım almadan, dövlətin öz gücü hesabına həyata keçirilir. Bu da bir daha Azərbaycanın iqtisadi qüdrətinin bariz təcəssümüdür desək, yanılmarıq.

Prezident İlham Əliyev tərəfindən noyabrın 16-da 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə təsdiqlənən, strateji əhəmiyyət hədəfləyən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" qəbul edilib. Bu, əlbəttə ki, milli maraqlarımızı, dövlətçiliyimizi dəstəkləyən tarixi sənəddir.

Hazırda Şərqi Zəngəzur və Qarabağda sıfırdan yeni şəhər və kəndlər salınır. Yüzlərlə məktəb, xəstəxana, idman kompleksləri, mədəniyyət ocaqlarının inşası nəzərdə tutulub, hava limanları tikilir, 100 kilometrlərlə dəmir yolu, minlərlə kilometr avtomobil yolu çəkilir, habelə digər irihəcmli layihələr reallaşdırılır. Qısa müddətdə bu istiqamətdə xeyli işlər görülüb. Aparılan işlərin sürəti də göstərir ki, yaxın zamanlarda bu proses yekunlaşacaq, sakinlər öz ata-baba yurdlarına qayıdaraq əbədi xoşbəxt yaşayacaqlar. Bu istiqamətdə dövlətimiz tərəfindən bütün tədbirlər görülür və buna hər kəs şahidlik edir. Artıq Böyük qayıdışa da start verilib. Tezliklə digər rayonlarımızın əhalisi də yurd-yuvalarına qayıdacaqlar.

Prezident İlham Əliyevin qarşıya qoyduğu prioritet məsələlərdən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Bu istiqamətdə hazırda ciddi işlər həyata keçirilir. Zəngilan-Horadiz avtomobil yolunun və Horadiz-Ağbənd dəmir yolunun tikintisi davam etdirilir. Gələn il bu layihələrin başa çatacağı gözlənilir. Dəhlizin açılması ilə Azərbaycanın əsas hissəsi bu yol vasitəsilə Naxçıvanla birləşəcək. Bununla Azərbaycan həm də Orta dəhlizə böyük töhfə verəcək. Uzaq Çindən gələn yüklərin Azərbaycandan keçməklə tez bir zamanda Avropaya çatdırılması təmin ediləcək. Eyni zamanda Azərbaycan Avrasiyada yeni nəqliyyat-logistika körpüsü yaratmış olacaq.

Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması ilə bağlı xərclər Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın ehtiva etdiyi məqsədlərin reallaşdırılması çərçivəsində maliyyələşdiriləcək. 2023-cü ildə strategiya çərçivəsində qarşıya qoyulan hədəflərin yerinə yetirilməsi üçün ayrılan 5 milyard 244 milyon manat həcmində vəsaitin 60 faizi Qarabağda və Şərqi Zəngəzurda yenidənqurma və bərpa işlərinə yönəldiləcək.

Vətən müharibəsində tarixi qələbəmizdən sonra ölkə Prezidentinin tapşırığı ilə Qarabağda və Şərqi Zəngəzurda başlayan yenidənqurma işlərinə bu ilin dövlət büdcəsində bəzi xərc istiqamətləri üzrə istifadə olunmamış vəsaitlərin də bu məqsədlərə səfərbər edilməsi nəzərə alınmaqla, 3 il ərzində, yəni 2021-ci, 2022-ci və 2023-cü illərdə ümumilikdə 9,7 milyard manatdan artıq vəsait yönəldilib.

### Ən sadiq silahdaş, ən böyük dəstəkçi

Danılmaz həqiqətdir ki, ötən uzun müddət ərzində Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatların, qazanılan böyük zəfərin, uğurlu daxili və xarici siyasətin ən böyük dəstəkçisi olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da əldə olunan uğurlarda əvəzsiz xidmətləri var. Mehriban xanım Əliyevanın dövlət başçısının ən sadiq silahdaşı kimi göstərdiyi fəaliyyət, gördüyü işlər çoxşaxəli və misilsizdir.

Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban Əliyevanın gördüyü işləri təhlil etsək, əminliklə deyə bilərik ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafı içərisində çox böyük çəkiyə malikdir. Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin dövlətçilik ideyalarından güc alan Mehriban xanım Əliyevanın humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq reallaşdırdığı genişmiqyaslı layihələr onu xalqın sevimlisinə çevirib.

Vətən müharibəsi dövründə ölkənin birinci xanımının atdığı addımlar isə hər kəsin ürəyini dağa döndərdi. Belə ki, Mehriban Əliyeva bu dövrdə şəhid analarına mənəvi dəstək verib, dərdlərinə şərik oldu. Güclü qadın kimi şəhid ailələrini ailəsi bildi. Qarabağ müharibəsində əlil olan oğullara qardaş dedi, hələ də övladlarının yoxluğuna inanmayan, gözü yolda qalan anaları bağrına basdı, onlara ana dedi, qarşılarında baş əydi. Həm Vətən müharibəsi, həm də ondan sonrakı tarixi mərhələlərdə Mehriban Əliyeva Prezident İlham Əliyevin ən yaxın məsləkdaşı olaraq Ermənistanın insanlıq əleyhinə hərbi cinayətləri ilə bağlı dəfələrlə beynəlxalq ictimaiyyətə müraciətlər etdi.

Bu gün işğaldan azad edilən torpaqlarımızda aparılan tikinti-quruculuq işlərinə onun rəhbərlik etdiyi, Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondu böyük töhfələr verir. İki ildir ki, minlərlə abidəyə yeni nəfəs verən Heydər Əliyev Fondu Qarabağdakı dini irsimizin, məscidlərimizin, mədəniyyət abidələrimizin bərpasını reallaşdırmaqdadır.

Bir sözlə, dövlət başçısı cənab İlham Əliyevlə birgə Mehriban xanımın ölkənin inkişaf strategiyasının hazırlanmasında, həyata keçirilməsində, həmçinin sosial, humanitar və iqtisadi layihələrin gerçəkləşməsində böyük əməyi var.

*Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin dövlətçilik məharəti və rəhbərlik qabiliyyəti sayəsində bu gün müstəqil Azərbaycan möhtəşəm, parlaq və xoşbəxt gələcəyə doğru inamla irəliləyir. Bu da onu deməyə əsas yaradır ki, bizi qarşıda daha yeni-yeni, bol-bol uğurlar və işıqlı gələcək gözləyir. Həmişə olduğu kimi, bundan sonra da müdrik və qədirbilən xalqımız Prezident İlham Əliyevin ətrafında sıx birləşərək qürurverici zəfərlərə, daha böyük uğurlara imza atacaq.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# 3 ayda 3 görüş

## Serbiya Azərbaycanın Balkanlardakı mühüm strateji tərəfdaşıdır



**"Dörd gün bundan əvvəl Azərbaycanın elektrik enerjisinin Avropaya çatdırılması üçün müvafiq saziş imzalanmışdır. Qara dənizin dibi ilə çəkiləcək kabel Azərbaycanı bu sahədə də Avropa üçün önəmli təchizatçı kimi təsdiqləyəcək. Bütün bunlar yeni imkanlar, yeni üfüqlər açır və biz bu sahədə, əlbəttə ki, ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq edəcəyik".**

Dekabrın 21-də ölkəmizə səfərə gələn Serbiya Prezidenti Aleksandar Vuçiçlə təkbətək görüşdən sonra mətbuata bəyanatla çıxış edən Prezident İlham Əliyevin bu fikirləri bir daha göstərir ki, bu gün Azərbaycan Avropanın ən etibarlı enerji təchizatçısıdır və bu imkanlar get-gedə daha da böyüyəcək.

Serbiya Prezidentinin ölkəmizə səfəri, aparılan danışıqlar, təbii ki, iki ölkə arasındakı münasibətlərin inkişafına mühüm töhfə verəcək. Artıq hər iki dost ölkə arasındakı strateji tərəfdaşlıq əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyub.

Dekabrın 21-də dövlət başçılarının görüşü son 3 ayda 3-cü görüş idi. İlk görüş oktyabrın 1-də Bolqarıstanda baş verdi. Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimində liderlərin görüşü və Aleksandar Vuçiçin İlham Əliyevə xitabən səsləndirdiyi fikirlər bir daha təsdiq etdi ki, Azərbaycan Prezidenti yürütdüyü müstəqil siyasətlə Avropada ən arzuolunan lider və ən etibarlı tərəfdaşdır. Bu, həm də İlham Əliyevin qlobal liderliyinin Serbiya Prezidentinin timsalında məhz Avropa məkanında növbəti etiraf idi.

Bir ay öncə, noyabrın 23-də isə İlham Əliyev onun liderliyinə həsəd aparan və nüfuzunu yüksək qiymətləndirən Aleksandar Vuçiçi və onun dövlətini ziyarət etdi. Liderlər arasında danışıqlar aparıldı və əlaqələrin bundan sonrakı inkişafının yol xəritəsi müəyyənləşdirildi, dövlətlər arasında daha 5 sənəd imzalandı.

Azərbaycan-Serbiya münasibətləri son illərdə yüksələn xətlə inkişaf etməkdədir. 1997-ci il avqustun 21-də qurulan diplomatik münasibətlər ötən 25 ildə daha da şaxələndirilib. 2011-ci ilin fevral ayında Serbiyanın Azərbaycanda, 2011-ci il iyunun 8-də isə Azərbaycanın bu ölkədə səfirliyi açılıb.

Dövlət başçıları arasında keçirilən sayca son 3 aydakı 3-cü görüşdə İlham Əliyev yüksək xətlə inkişaf edən əlaqələri dəyərləndirərkən bildirdi ki, bir çox sahələr üzrə əməkdaşlığın artıq böyük tarixi var. Serbiya və Azərbaycan strateji tərəfdaşdırlar, strateji tərəfdaşlığa dair bir neçə sənəd imzalanıb və iki dost ölkə hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib, bu gün də dəstəkləyirik və bu siyasət dəyişməz olaraq qalacaq.

İlham Əliyev bildirdi ki, qarşıya qoyulan tapşırıqların hər biri uğurla icra olunacaq. Bunu şərtləndirən amil isə strateji tərəfdaşlıq münasibətləri və eyni zamanda şəxsi dostluq münasibətləridir. Məhz bu münasibətlər tezliklə ticarət dövriyyəsinin artmasına, nəqliyyat-logistika sahəsində böyük potensialdan səmərəli istifadəyə real zəmin yaradacaq. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan və Serbiya ərazilərindən beynəlxalq nəqliyyat dəhlizləri keçir, burada da uzlaşma və bağlantının yaradılması üçün ən mühüm vasitədir.

Təbii ki, energetika sektoru da əməkdaşlığın bir hissəsidir. Son vaxtlar bu sahə daha böyük əhəmiyyət kəsb edir. Azərbaycanın təbii resursları artıq müxtəlif istiqamətlər üzrə ixrac edilir, həmçinin Avropaya, o cümlədən Serbiyaya qonşu olan ölkələrə.

Bütün bunları nəzərə alan dövlət başçısı bir daha tərəflər arasında həm təbii qaz, həm elektrik enerjisi ilə əlaqədar əməkdaşlıq üçün imkanların olduğunu, müvafiq danışıqların aparıldığını deyərək bildirdi ki, gələn ildən başlayaraq Azərbaycanın elektrik enerjisinin Serbiyaya ixrac edilməsi üçün əməli addımlar atılacaq.

İmzalanmış sazişə əsasən Qara dənizin dibi ilə çəkiləcək kabel Azərbaycanı bu sahədə də Avropa üçün önəmli təchizatçı kimi təsdiqləyəcək.

Aleksandar Vuçiç ölkəmiz haqqında hər zaman olduğu kimi maraqlı fikirlər səsləndirdi: "Mən Azərbaycandan 10 dəfə çox neft və qaz ehtiyatlarına malik olan ölkələri tanıyıram, onların vəziyyəti Azərbaycanınkından 10 dəfə pisdir. Bu isə ölkə rəhbərliyinin gücündən, Prezident Əliyevin uzaqgörənliyindən, onun Azərbaycanın və müasir dünyanın üzləşdiyi çağırışlara yaxşı bələd olmasından xəbər verir. Bu, yaxşı baxışa malik olan ölkə rəhbərliyi ilə necə fərq yarada bildiyinizdən xəbər verir".

Serbiya Prezidenti bəyan etdi ki, hər iki ölkə və onun liderləri bütün əməkdaşlıq formalarını müzakirə edib və mövcud dostluq əlaqələrinin daha da möhkəmlənməsi üçün əllərindən gələni əsirgəməyəcəklər: "Biz birlikdə əməkdaşlığın mümkün sahələrini təhlil etdik. Sözsüz ki, bizim enerji sahəsi ilə bağlı əməkdaşlıq etməli çox məsələlərimiz var. Biz artıq özümüzün ötürücü sistemlərimizin inşası, inkişafı yollarını müzakirə etdik ki, Rumıniya və Macarıstana sualtı xətlə nəql olunacaq elektrik enerjisini əldə edək və özümüzün necə enerji benefisiarları ola biləcəyimizi nəzərdən keçirək. Biz Bolqarıstan və Şimali Makedoniya ilə birlikdə inşa etməyə hazırlaşdığımız interkonnektorlar vasitəsilə Azərbaycan qazını əldə etməyin yolları barədə müzakirə apardıq. Bütün bunlar bizim üçün vacibdir".

Göründüyü kimi, baş verən proseslər bir daha Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə böyük töhfə verdiyini təsdiqləyir və ölkəmizin Avropa İttifaqı üzvləri, eləcə də digər dövlətlərin enerji təchizatındakı rolu gündən-günə böyüyür. Bütün bunlar isə Azərbaycanın siyasi və iqtisadi çəkisini artırmaqla yanaşı, ölkəmizə böyük dividendlər gətirir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Normayaratma fəaliyyətinin keyfiyyəti yüksəldilir

**Dekabrın 22-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli diqqətə çatdırıb ki, gündəliyə bir məsələ - "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanunu layihəsi (birinci oxunuş) daxil edilib. Qanun layihəsinin əhəmiyyətini qeyd edən Əli Hüseynli layihə ilə bağlı məlumat vermək üçün Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdir müavini Səməd Sultanova söz verib.

Səməd Sultanov bildirib ki, layihə normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi və effektivliyinin təmin edilməsi, normayaratma texnikasının təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Layihəyə əsasən, normativ hüquqi aktların yalnız layihələrinin hazırlanması deyil, eyni zamanda onların razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydasının xüsusiyyətlərinin, onlar üçün texniki-hüquqi tələblərin müvafiq qaydalarla müəyyən edilməsi təklif edilir. Bundan başqa, 2024-cü il yanvarın 1-dən normativ hüquqi aktın layihəsinin hazırlanması, razılaşdırılması və normayaratma orqanına təqdim edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə həyata keçiriləcəkdir.

Konstitusiya qanunu layihəsində həmçinin dəyişikliklər edilən və ya ləğv edilən normativ hüquqi aktların adlarının göstərilməməsinə yol verilən hallar müəyyən olunur.

Layihənin müzakirəsində komitə sədri Əli Hüseynli və komitənin sədr müavini Qüdrət Həsənquliyev sənədlə bağlı qeydləri və rəylərini səsləndiriblər.




Sonra "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanunu layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Şimali Makedoniyada Türkcə Təhsil Bayramı qeyd olunub

**Şimali Makedoniyanın paytaxtı Skopyedə bu ölkədə yaşayan türklərin rəsmi bayram kimi qeyd etdikləri Türkcə Təhsil Bayramı münasibətilə təntənəli tədbir keçirilib.**









Dövlət və hökumət nümayəndələrinin, Şimali Makedoniyada fəaliyyət göstərən siyasi partiya təmsilçilərinin, tanınmış elm və mədəniyyət xadimlərinin qatıldıqları tədbirdə Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edib.

AZƏRTAC xəbər verir ki, Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya parlamentinin deputatı və Şimali Makedoniya - Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Beycan İlyas çıxış edərək türklərin bu ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında fəal rol oynadıqlarını və mühüm nailiyyətlərə imza atdıqlarını bildirib. O, ana dilində təhsilin əhəmiyyətindən bəhs edərək Türkcə Təhsil Bayramının təntənəli şəkildə qeyd edilməsinin milli həmrəylik nümunəsi olduğunu söyləyib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Yeni Azərbaycan Partiyası möhtəşəm bayram münasibətilə Şimali Makedoniya türklərinə təbriklərini çatdırıb. "Belə bir əlamətdar gündə dostlarımızın, qardaşlarımızın yanında olmaqdan məmnunluğumuzu ifadə etmək istəyirəm", - deyən YAP Sədrinin müavini ana dilində təhsilin millətin inkişafını təmin, gələcəyini isə təyin edən ən önəmli amillərdən biri olduğunu söyləyib. Tahir Budaqovun sözlərinə görə, yaxın tarixə ekskurs etdikdə görürük ki, 78 il əvvəl -1944-cü il dekabrın 21-də türk dilində təhsil almaq hüququnun qazanılması Makedoniya türklərinə cəmiyyət həyatının müxtəlif istiqamətlərində - elm, təhsil, mədəniyyət, siyasət və digər sahələrdə mühüm uğurlar qazanmağa, gələcək inkişafın etibarlı bünövrəsini yaratmağa imkan vermişdir.

Artıq 15 ildir ki, Şimali Makedoniyada Türkcə Təhsil Bayramının təntənəli şəkildə, coşquyla qeyd edildiyini vurğulayan YAP Sədrinin müavini böyük mənəvi-siyasi əhəmiyyəti olan bu tarixin təkcə Şimali Makedoniya türklərinin deyil, eyni zamanda müxtəlif ölkələrdə məskunlaşmış, tarixi ənənələrlə müasirliyin vəhdətini yaratmış türk millətinin ortaq dəyəri olduğunu söyləyib. O əlavə edib ki, bu reallıq öz növbəsində Şimali Makedoniyada tolerantlıq mühitinin mövcudluğunu və multikultural dəyərlərin yaşadıldığını, xalqların bir-birinə hörmət prinsipi əsasında mehriban birgəyaşayışa malik olduqlarını və öz hüquqlarından sərbəst şəkildə istifadə etdiklərini göstərir.

"Türkcə təhsil milli özünüdərkin gücləndirilməsi ilə yanaşı, türk dünyasına hərtərəfli inteqrasiya baxımından da önəmlidir. Xüsusilə nəzərə almaq lazımdır ki, bu gün yeni geosiyasi reallıqların yarandığı, müxtəlif çağırışların meydana çıxdığı şəraitdə dövlətçilik maraqlarının, milli-mənəvi dəyərlərin qorunması hər zaman olduğundan daha aktual və vacibdir. Ona görə də türkdilli toplumlar arasında sıx əlaqələrin qurulması zəruridir. Milli-etnik dözümlülüyün mövcud olduğu və demokratiyanın təşəkkül tapdığı Şimali Makedoniyada məskunlaşmış türk toplumu istər tarixi ənənələrin yaşadılması, istərsə də müasir dəyərlər və çağırışlar əsasında türk dünyasına inteqrasiya baxımından öz fəallığı ilə seçilir", - deyə Tahir Budaqov bildirib.

YAP Sədrinin müavini vurğulayıb ki, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev dost ölkələrlə, o cümlədən Şimali Makedoniya ilə münasibətlərin inkişafına böyük önəm verməklə yanaşı, türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində də məqsədyönlü addımlar atır. Öz növbəsində Yeni Azərbaycan Partiyası da qardaş xalqların, dost ölkələrin siyasi partiyaları ilə əməkdaşlığın genişləndirilməsi üçün məqsədyönlü addımlar atır. "Yeni Azərbaycan Partiyası ilə Şimali Makedoniyanın Türk Demokratik Partiyası arasında münasibətlərin inkişafı ilə bağlı qarşılıqlı siyasi iradə nümayiş etdirilməsi də bu baxımdan mühüm əhəmiyyətə malikdir. Qeyd etmək istəyirəm ki, cari il mayın 10-da Türk Demokratik Partiyasının sədri Beycan İlyasın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində Əməkdaşlıq Protokolunun imzalanması, 2022-ci ilin noyabrında isə Yeni Azərbaycan Partiyasının 30 illik yubiley tədbirinə, eyni zamanda Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının "Təhlükəsizlik və əməkdaşlıq: Siyasi partiyaların rolu" mövzusunda Bakıda keçirilmiş xüsusi konfransına qatılaraq çıxış etməsi nəinki partiyalarımız, ümumilikdə iki dövlət arasında əlaqələrin inkişafı üçün geniş imkanlar yaratmışdır. İnanırıq ki, birgə təşəbbüslərimiz və sıx əməkdaşlığımız bundan sonra istər partiyalarımız, istər ölkələrimiz, istərsə də türk dünyası üçün əhəmiyyətli uğurlar qazanmağa və ortaq hədəflərə çatmağa imkan verəcək", - deyən Tahir Budaqov Şimali Makedoniya türklərini milli birlik rəmzi və mənəvi-siyasi inkişaf amili olan Türkcə Təhsil Bayramı münasibətilə təbrik edərək xalqlarımızı işıqlı sabaha - parlaq gələcəyə aparan tərəqqi yolunda birlikdə addımlamağı və yeni-yeni nailiyyətlər qazanmağı arzulayıb.

Daha sonra çıxış edən Şimali Makedoniyanın Baş naziri Dimitar Kovaçevski bu əlamətdar gün münasibətilə təbriklərini çatdırıb. O, Türkcə Təhsil Bayramının qeyd edilməsinin əhəmiyyətindən, ölkədə həyata keçirilən siyasətin milli birliyə xidmət etməsindən bəhs edib, Şimali Makedoniya türklərinə fəaliyyətlərində uğurlar diləyib.

Tədbir bədii hissə ilə davam edib, tanınmış sənətçilərin vətənpərvərlik ruhunda ifaları maraqla qarşılanıb.

# Şimali Makedoniyanın Baş naziri YAP-ın nümayəndə heyətini qəbul edib

**Şimali Makedoniya Respublikasının Baş naziri Dimitar Kovaçevski Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətini ölkəsində görməkdən məmnunluğunu ifadə edən Dimitar Kovaçevski Şimali Makedoniyanın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib. O, iki ölkənin rəsmilərinin müxtəlif səviyyələrdə keçirilən görüşlərində əməkdaşlıq imkanlarının dəyərləndirildiyini və önəmli təşəbbüslərin irəli sürüldüyünü diqqətə çatdırıb. Baş nazir Şimali Makedoniya ilə Azərbaycan arasında ayrı-ayrı sahələrdə işbirliyinin dərinləşdirilməsi üçün geniş potensialın mövcudluğunu diqqətə çatdırıb, ikitərəfli əlaqələrin inkişafı ilə əlaqədar ardıcıl addımlar atılmasının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında önəmli rol oynadığını söyləyib, bu sahədə tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinin önəmini nəzərə çatdırıb.



Dimitar Kovaçevski Şimali Makedoniya və Azərbaycanın ayrı-ayrı qurumları, o cümlədən siyasi partiyaları arasında davamlı əməkdaşlığın da vacib olduğunu bildirib.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov səmimi qəbula və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O, Azərbaycan ilə Şimali Makedoniya arasındakı əlaqələrin milli maraqlara əsaslandığını bildirib, dövlətlərarası münasibətlərin inkişafı üçün mühüm potensialın olduğunu diqqətə çatdırıb. YAP Sədrinin müavini Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan strateji əhəmiyyətli layihələrin Avropanın enerji təhlükəsizliyinə töhfə olduğunu vurğulayıb. Azərbaycanın enerji siyasətində təbii qaz təchizatı mənbələrinin şaxələndirilməsinin mühüm yer tutduğunu diqqətə çatdıran Tahir Budaqov Şimali Makedoniyanın XXI əsrin layihəsi kimi xarakterizə edilən "Cənub qaz dəhlizi"ndə iştirakının iki ölkə arasında əlaqələrin çoxşaxəli tərəfdaşlıq platformasında möhkəmlənməsinə geniş imkanlar yaradacağını deyib. Tahir Budaqov inam və etimada əsaslanan qarşılıqlı faydalı münasibətlərin, genişmiqyaslı işbirliyinin istər Azərbaycan, istərsə də dost və tərəfdaş ölkələr üçün faydalı və perspektivli olduğunu söyləyib.

YAP Sədrinin müavini gələn il ATƏT-ə sədrlik edəcək Şimali Makedoniyaya uğurlar arzulayıb və qurumun Azərbaycan-Ermənistan münasibətlərinə obyektiv və ədalətli yanaşacağına ümidvar olduğunu bildirib.

Tahir Budaqov Azərbaycan ilə Şimali Makedoniyanın siyasi təsisatları arasında əməkdaşlığın əhəmiyyətini də nəzərə çatdırıb. O, geniş beynəlxalq əlaqələrə malik olan YAP ilə Şimali Makedoniya Türk Demokratik Partiyası arasında işbirliyinin dərinləşdirilməsinin dövlətlərarası münasibətlərin inkişafı üçün xüsusi önəm kəsb etdiyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Azərbaycan-Şimali Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, YAP İdarə Heyətinin üzvü Musa Quliyev, Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli daxildirlər.

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Ermənistan yenə "məzlum" obrazına girib

### İrəvanın və separatçıların Azərbaycana qarşı apardığı çirkin təbliğat iflasa uğradılır



**Dekabrın 12-dən ekofəallarımız və QHT təmsilçilərimiz Laçın-Şuşa yolunda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərimizdə separatçıların sərvətlərimizi talamasına, eləcə də ekologiyamıza qarşı həyata keçirdikləri terrora qarşı etiraz aksiyasını davam etdirirlər.**

Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri faydalı qazıntı yataqlarımızın, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına son qoyulmasını, həmçinin Ermənistanın humanitar təyinatlı Laçın yolundan sui-istifadə edərək Qarabağ iqtisadi zonasına hərbi təyinatlı yüklər, silah-sursat, minalar daşımasına, eləcə də bu yol vasitəsilə sərvətlərimizin talanmasına son qoyulmasını tələb edirlər.

Milli maraqlarımızın müdafiəsinə qalxan ictimaiyyət nümayəndələri bildirirlər ki, haqlı tələbləri yerinə yetirilməyənə qədər etiraz aksiyalarını keçirəcəklər.

#### Saxta "humanitar fəlakət" təsdiqini tapmadı

Ermənistan isə hər zaman olduğu kimi, indi də özünü "məzlum" ölkə kimi dünyaya sırıyıb halına acındırmaq üçün beynəlxalq ictimaiyyəti çaşdırmağa yönəldilən çirkin təbliğata başlayıb. Belə ki, Qarabağdakı separatçılar Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin haqlı tələblərinin yerinə yetirilməsi üçün Şuşa-Laçın yolunda keçirdikləri dinc aksiyanı Laçın yolunun bağlanması, Qarabağda yaşayan ermənilərin "humanitar fəlakət"i kimi qələmə verməyə çalışırlar.

Amma Laçın yolundan humanitar yüklü avtomobillərin, mülki maşınların keçidinə aksiya iştirakçıları tərəfindən heç bir maneənin törədilməməsi bu yolun bağlanmamasının ən bariz nümunəsidir. Eyni zamanda rəsmi Bakı hər zaman bəyan edir ki, Azərbaycan erməni sakinlərinin humanitar ehtiyaclarını həll etməyə hazırdır. Yəni Laçın-Şuşa yolunda keçirilən dinc etiraz aksiyası heç bir halda Azərbaycanın erməni vətəndaşlarına "humanitar fəlakət" yaşatmır.

Xatırladaq ki, dekabrın 20-də BMT Təhlükəsizlik Şurası (TŞ) Laçın yolunda vəziyyətlə bağlı müzakirələr aparıb. BMT Təhlükəsizlik Şurasının iclasında bəzi dövlətlər Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərində təbii sərvətlərin qanunsuz istismarına qarşı Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyasını birtərəfli, qərəzli şəkildə təqdim etməyə çalışıblar.

#### Yüzdən çox QHT haqlı etiraz səsini yüksəldib

Bu isə Azərbaycan ictimaiyyətinin haqlı narazılığına səbəb olub. Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyasının iştirakçıları da sözügedən məsələ ilə bağlı yaydıqları bəyanatda bildiriblər ki, "Biz, qeyri-hökumət təşkilatlarını təmsil edən nümayəndələr Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində təbii sərvətlərin qanunsuz istismarına və ekoloji terrora qarşı keçirilən dinc etiraz aksiyasının 2022-ci il dekabrın 20-də BMT Təhlükəsizlik Şurasının iclasında bəzi dövlətlər tərəfindən birtərəfli, qərəzli şəkildə təqdim edilməsi, müzakirələrin yerdə real vəziyyəti əks etdirməməsi ilə bağlı təəssüfümüzü ifadə edirik".

Yüzdən çox QHT nümayəndəsinin imza atdığı bəyanatda o da vurğulanır ki, onlar aksiya iştirakçıları olaraq Laçın yolunun hərbi məqsədlər üçün istifadə olunmasına, təbii sərvətlərimizin talan edilərək ölkədən çıxarılmasına son qoyulmasını tələb edirlər. Həmçinin Ermənistan hakimiyyətinin, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qanunsuz erməni silahlı dəstələrinin erməni əsilli sakinləri təhdid etməsinə, onların Azərbaycana reinteqrasiyasına bütün vasitələrlə maneə olmasına qəti etiraz edirlər. Həmçinin ermənəsilli sakinlərlə birgə yaşayışa dəvət edirlər.

#### Ermənistanın yalan və əsassız iddiaları rədd edilib

Dekabrın 20-də BMT Təhlükəsizlik Şurasında Laçın yolunda vəziyyətlə bağlı müzakirələrə dair Azərbaycan Xarici İşlər Nazirliyi də şərh verib. XİN-dən bildirilib ki, Ermənistanın bu qurumdan Azərbaycana qarşı manipulyasiya kampaniyası məqsədilə istifadə etmək cəhdlərinə baxmayaraq, BMT Təhlükəsizlik Şurasındakı müzakirələr Azərbaycanın haqlı narahatlıqlarını, o cümlədən Ermənistanın 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatı çərçivəsində üzərinə götürdüyü öhdəliklərlə bağlı qəsdən, davamlı və düzəldilməyən pozuntularla əlaqədar məsələləri qaldırması, habelə bununla əlaqədar beynəlxalq ictimaiyyətin daha geniş məlumatlandırılması üçün növbəti platforma olub.

Azərbaycan nümayəndəsi öz bəyanatında Laçın yolunun guya Azərbaycan tərəfindən bağlanması, erməni sakinlərinə qarşı tətbiq edilən "blokada" və "humanitar fəlakət"lə bağlı Ermənistan tərəfindən irəli sürülən bütün iddiaları rədd edərək, onların tamamilə yalan və əsassız olduğunu bildirib. Bəyanatda nə Azərbaycan hökumətinin, nə də etirazçıların Laçın yolunu bağlamadığı qeyd olunub.

#### Azərbaycan erməni sakinlərinin ehtiyaclarını həll etməyə hazırdır

Azərbaycan hökuməti dəfələrlə erməni sakinlərinin üzləşə biləcəyi bütün humanitar ehtiyacları operativ şəkildə həll etməyə hazır olduğunu bəyan edib. Bundan irəli gələrək, Azərbaycan hökuməti BQXK-nin yerli nümayəndəliyi ilə sıx əlaqədədir.

"BMT TŞ-yə üzv dövlətlərin demək olar ki, bütün bəyanatlarında üçtərəfli Bəyanat üzrə öhdəliklərin yerinə yetirilməsinə dair çağırış olub. Ermənistanın sözügedən sənədi açıq-aşkar pozduğunu nəzərə alaraq, BMT TŞ-nin üzvlərinin bu cür çağırışları, nəhayət, Ermənistan tərəfindən eşidilməli və onlara əməl olunmalıdır", - deyə qeyd olunan məlumatda XİN bildirir ki, eyni zamanda BMT TŞ-yə üzv olan bəzi dövlətlərin qərəzli, birtərəfli mövqe nümayiş etdirməkdən çəkinməməsi dərin məyusluq doğurur.

Həmçinin Azərbaycan ərazisinin bir hissəsinə münasibətdə yanlış istinad edilməsi xüsusi narahatlıq mənbəyi olduğu vurğulanır: "Biz, Azərbaycanın təklifinə cavab verməyə, siyasi və hərbi təxribatlarını dayandırmağa, təcavüzkar ritorikasından və hərəkətlərindən əl çəkməyə, Azərbaycan ilə Ermənistan arasında dövlətlərarası münasibətlər çərçivəsinə daxil olan bütün məsələlərin sülh yolu ilə diplomatik həllini tapması üçün birbaşa danışıqlara xoş niyyətlə yanaşmağa Ermənistanı inandırmaq məqsədilə beynəlxalq ictimaiyyətə çağırışımızı bir daha təkrar edirik".

Göründüyü kimi, hər nə qədər Ermənistan tərəfi manipulyasiya edərək beynəlxalq ictimaiyyəti çaşdırmaq istəsə də, haqq da, ədalət də Azərbaycanın tərəfindədir və bu beynəlxalq arenada etiraf olunur.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Milli birlik, əzm, güclü iradə

### Şuşa-Laçın yolunda ekofəalların etiraz aksiyası şanlı zəfərin yaratdığı qətiyyətin bariz təcəssümüdür

**Şuşa-Laçın yolunda ekofəalların etiraz aksiyası 10 gündən artıqdır ki, davam edir.**




Qeyri-hökumət təşkilatları nümayəndələri, ictimai fəallar Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində faydalı qazıntı yataqları, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarı əleyhinə Laçın yolunda başladılan etirazlarda ekoloji terrora son qoyulması, yataqlarda monitorinq keçirilməsinə şərait yaradılması ilə yanaşı, Şuşa-Laçın yolundan hərbi məqsədlər üçün minaların, silah-sursatın daşınmasına son qoyulmasını da tələb edirlər. Aksiyada "Ermənilər beynəlxalq konvensiyalara riayət etmir!", "Təbiətin qanunsuz istismarına son!", "Mina terroruna son" "Ekoloji terrora son!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!" şüarları səsləndirilir.

Aksiyada iştirak edən minlərlə etirazçının tələbi eynidir, onları milli birlik altında birləşdirən Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarı və ərazimizdən keçən yollardan separatçı ermənilərin silahlanmasına, terrorizmə dəstək verilməsinin qarşısının alınmasıdır.

İctimai fəallar Rusiya sülhməramlı kontingentinin komandanı Andrey Volkovun əraziyə gələrək onlarla görüşməsini, məsələyə aydınlıq gətirməsini tələb edirlər, amma günlərdir davam edən aksiyada etirazçıların tələbləri yerinə yetirilmir. Bununla belə aksiyaçıların əzmini, birliyini heç nə sındıra bilmir, onlar şaxtalı, soyuq havada, gecə-gündüz demədən öz şüarlarını səsləndirir, haqlı tələblərini irəli sürürlər.

Dinc aksiyanın əsas məqsədi Azərbaycanın suveren ərazisindəki yataqlarda monitorinqin aparılması üçün şərait yaradılmasına nail olmaqdır. Həmçinin təbii sərvətlərimizin talanmasının, ekoloji çirklənmənin dayandırılmasıdır.

Aksiya müddətində azərbaycanlı mütəxəssislər yataqlarda monitorinq keçirmək üçün bir neçə dəfə yataqların yerləşdiyi ərazilərə getmək istəsə də, onların qarşısı heç bir əsası olmadan Rusiya hərbçiləri tərəfindən alınıb.

Etirazçıların hər biri birmənalı olaraq bildirir ki, Azərbaycanın müvafiq qurumlarının faydalı yataqlarda monitorinq keçirməsinə şərait yaradılmayınca, Volkov əraziyə gəlməyincə, Şuşa-Xankəndi yolundan silah-sursatın daşınmasına göz yumulduqca bu aksiyaya davam edəcəklər. Onları bu yoldan heç kim döndərə bilməz.

Qeyd edək ki, Laçın yolunun humanitar təyinatlı olmasına baxmayaraq, Ermənistan tərəfi 10 noyabr üçtərəfli Bəyanatının şərtlərini pozaraq bu yoldan hərbi məqsədlər üçün istifadə edir. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi zonasına silah-sursat, mina daşınır. Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizdə aşkarlanan 2021-ci il Ermənistan istehsalı olan minalar buna əyani sübutdur. Məhz buna görə də Şuşa-Laçın yolunda etiraz edən vətəndaş cəmiyyəti üzvlərinin haqlı tələblərindən biri də Ermənistanın Azərbaycana qarşı mina terroruna son qoymasıdır.

Şuşa-Laçın yolunda keçirilən aksiya vətəndaşlarımızın, ekofəalların haqlı etirazıdır. Çünki illər ərzində Azərbaycanın faydalı yataqları, təbii sərvətləri talanaraq başqa ölkələrə daşınıb. Eyni zamanda işğal dövründə Qarabağ və Şərqi Zəngəzurdakı fauna və floramız məhv edilib, abidələrimiz dağıdılıb, çaylarımız güclü çirklənməyə məruz qalıb. Xatırladaq ki, Oxçuçaydakı çirklənmə, ekoterrorizm bu gün də davam edir. Ermənistan ərazisindəki mədənlərdən axıdılan tullantılar nəticəsində çayın suyu yararsız hala düşməklə yanaşı, sudakı canlıların məhvinə səbəb olur. Beynəlxalq konvensiyaları pozan Ermənistana qarşı isə heç vaxt dünya birliyi, beynəlxalq qurumlar tərəfindən hansısa bir tədbir görülməyib. 30 illik işğala son qoyan Azərbaycan indi öz gücü, iradəsi ilə birlik nümayiş etdirərək torpaqların sahiblərinin artıq qayıtdığını və onların haqlı olaraq ərazilərimizdəki ekoloji terrora, ermənilərin talançılıq, qeyri-qanuni istismarına qarşı olduğunu bəyan edir.

Aksiya bir daha Azərbaycan xalqının təbii sərvətlərinə sahib çıxmaq, Qarabağ ərazisindəki qanunsuz əməllərə son qoyulması üçün bir məqsədə, amala çatmaq uğrundakı birliyinin nümunəsidir.

Etirazlar azərbaycanlı mütəxəssislərin öz ərazilərimizdəki mədənlərdə monitorinqlər aparılmasına şərait yaradılana, Şuşa-Laçın yolundan qanunsuz istifadənin dayandırılmasına qədər davam edəcək. 44 günlük Vətən müharibəsindəki birlik göstərdi ki, Azərbaycan xalqının inamını, iradəsini, əzmini heç bir qüvvə qıra bilməz. Bu aksiya da həmin birliyin, əzmkarlığın daha bir nümunəsidir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## *Aksiyanın ümumi mənzərəsi:* Vətənpərvərlik, yüksək əhvali-ruhiyyə, tələbkarlıq



**Laçın-Xankəndi yolunda təşkil olunan dinc aksiyaya qoşulan könüllülər yüksək əhvali-ruhiyyədədirlər.**

AZƏRTAC-ın hadisə yerində olan müxbiri xəbər verir ki, etirazçılar bu dəqiqələrdə yolun hər iki tərəfində, hərəkətə maneə törətmədən üstündə ingilis və rus dillərində yazılmış plakatlar qaldırıb, şüarlar səsləndirirlər. Onların tələbləri dəyişməz olaraq qalır.

İştirakçılar aksiyanın ümumi mənzərəsini ifa etdikləri "Şuşanın dağları başı dumanlı", "Anadır arzulara hər zaman Qarabağ", "Hay ver mənə, leytenant!", "Xudayar təsnifi", "Azərbaycan oğluyam" mahnıları ilə canlandırır, vətənpərvər əhvali-ruhiyyədə olduqlarını bir daha nümayiş etdirirlər. Bu gün onlar daha əzmkar və tələbkardırlar.

Qeyd edək ki, hava şəraitinin soyuq olmasına baxmayaraq, fasiləsiz dinc aksiyaya qoşulanların sayı getdikcə artmaqdadır. Aksiyaya ölkəmizin hər yerindən və Azərbaycandan kənardan böyük dəstək var.

## Rusiya sülhməramlılarının təchizat avtomobilləri aksiyanın olduğu ərazidən maneəsiz keçib





**Xankəndi-Laçın yolunda Azərbaycan ekoloqlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, fəalların etiraz aksiyası artıq on bir gündür davam edir.**

AZƏRTAC-ın müxbiri aksiya yerindən xəbər verir ki, Rusiya sülhməramlılarına məxsus daha beş təchizat avtomobili ərazidən maneəsiz keçib. Xatırladaq ki, bundan əvvəl Ermənistan mediasında etirazçıların guya Xankəndi-Laçın yolunu bağlamaları və təchizat maşınlarını buraxmamaları ilə bağlı həqiqətə uyğun olmayan xəbərlər yayılmışdı.

## *Laçın-Xankəndi yolu:* Yüzədək yeni könüllü aksiyaya qatılıb

**Azərbaycan ərazilərində faydalı yataqların qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda təşkil olunan etiraz aksiyası davam edir. Etirazçılar artıq on bir gündür yüksək qətiyyət nümayiş etdirirlər.**









AZƏRTAC-ın müxbiri hadisə yerindən xəbər verir ki, dekabrın 22-də daha 100-dək ekofəal aksiyaya qoşulub. Onlar əvvəlcə aksiyada xoşagəlməz halların baş verməməsi üçün zəruri tədbirlərin görülməsi ilə bağlı məlumatlandırılıb. Hazırda havanın soyuq və şaxtalı olmasına baxmayaraq, aksiya iştirakçıları "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekoloji cinayətə son!", "Stop ekoterror!" şüarlarını səsləndirirlər.

Aksiya iştirakçıları bütün lazımi şəraitlə təmin olunublar.

Qeyd edək ki, dekabrın 12-dən başlayan aksiya Rusiya sülhməramlılarının nəzarətində olan Xankəndi-Laçın yolunun bir hissəsində azərbaycanlı ekoaktivistlər və qeyri-hökumət təşkilatlarının üzvləri tərəfindən ölkəmizə aid ərazilərdə ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.

# Rus Pravoslav Kilsəsi ilə QMİ arasında nümunəvi dini-mənəvi əlaqələr var

**Dekabrın 22-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Rusiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovla görüşüb.**



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında siyasi, iqtisadi, mədəni-humanitar münasibətlərlə yanaşı, dini-mənəvi əlaqələrin də səviyyəsindən razılıq ifadə olunub.

Bildirilib ki, QMİ sədrinin bu ilin dekabrında Moskva və bütün Rusiya Patriarxı Kirillin dəvəti ilə Rusiyaya səfəri, Zati-müqəddəsləri Patriarx Kirillə görüşü, habelə dini liderlərin üçtərəfli görüş perspektivləri barədə fikir mübadiləsi aparılıb. Diqqətə çatdırılıb ki, Rus Pravoslav Kilsəsinin sülhyaratma potensialı var və onun vasitəçiliyi ilə baş tutan dini liderlərin dialoqları sayəsində zamanında Ermənistan-Azərbaycan münaqişəsinin dini qarşıdurma xarakteri almasının qarşısı alınıb. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladıqları Soçi Bəyanatında dini liderlərin sülh istiqamətində səylərinin davam etdirilməsinin mühümlüyünün vurğulandığını xatırladan Şeyxülislam Allahşükür Paşazadə Patriarx Kirillə görüşü zamanı bu perspektivləri müzakirə etdiyini diqqətə çatdırıb. QMİ sədri Rus Pravoslav Kilsəsinin uzun illər ərzində dinlərarası dialoq müstəvisində nümunəvi sülhyaratma fəaliyyətinə toxunaraq Patriarx Kirillin bu istiqamətdə səylərini iştirak etdiyi bütün platformalarda hər zaman qeyd etdiyini və yüksək qiymətləndirdiyini səfirin diqqətinə çatdırıb.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası ilə Qafqaz Müsəlmanları İdarəsinin dinlərarası dialoq sahəsində səmərəli əməkdaşlıq münasibətlərinin mövcudluğundan, ölkəmizin dini həyatında, dini konfessiyalar müstəvisində fəal icma olaraq iştirak etməsindən razılıq ifadə edilib. Vətən müharibəsində Azərbaycan xalqının işğaldan azad etdiyi ərazilərdə gedən genişmiqyaslı quruculuq işləri, infrastruktur layihələri ilə yanaşı, vandalizmə məruz qalmış dini-mənəvi irsin dirçəldilməsi, məscidlərlə yanaşı, pravoslav, Alban-Udi kilsələri, digər məbəd və ziyarətgahların yenidən qurulması, bərpası və qorunması sahəsində misilsiz işlər görüldüyünü qeyd edən Şeyxülislam Allahşükür Paşazadə bütün bunların Azərbaycan Prezidenti İlham Əliyevin möhkəm siyasi iradəsi sayəsində həyata keçirildiyini vurğulayıb. Bildirilib ki, Azərbaycan Prezidentinin azad Qarabağa elə bir səfəri olmur ki, dini-mənəvi əhəmiyyətli abidələrə qayğı və dövlət himayəsini nümayiş etdirməsin. Multikultural dəyərlər ölkəsi olan Azərbaycanda bu ali diqqət təkcə məscid, islam abidələrini deyil, xristian, yəhudi məbədlərini də ehtiva edir.

QMİ sədri son zamanlar Rusiya və Ukrayna ətrafında yaşanan gərginlikdən xeyli narahat olduğunu, bu mövzunun tezliklə xoş məramla həllini tapması, iki yaxın qardaş olan xalqlar arasında münasibətlərin yoluna qoyulması üçün dualar etdiyini rusiyalı səfirin diqqətinə çatdırıb.

Şeyxülislam Allahşükür Paşazadə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının mərhum Arxiyepiskopu Aleksandrın əziz xatirəsini hər zaman andığını və onun Azərbaycan-Rusiya mənəvi əlaqələrinin inkişafına uzun illər ərzində verdiyi töhfələri yüksək dəyərləndirdiyini bildirib.

Səfir Mixail Boçarnikov görüşə görə Şeyxülislama təşəkkürlərini bildirib, Rusiya ilə Azərbaycan arasında geniş spektr üzrə münasibətlərin hər iki dövlətin mənafeləri naminə uğurla davam və inkişaf etdiyini vurğulayıb. Diqqətə çatdırılıb ki, Rusiyada Azərbaycanın regionda vəziyyətin və iqtisadi əlaqələrin normallaşması ilə bağlı mövqeləri bütün tərəflər üçün faydalı kimi yüksək qiymətləndirilir.

Dövlət başçılarımızın səyləri sayəsində ölkələrimiz arasında siyasi, ticari-iqtisadi, logistik əlaqələrin getdikcə dərinləşməsindən, kommunikasiya layihələrindən, çoxtərəfli əlaqələrin qurulmasından məmnunluğunu ifadə edən rusiyalı səfir Pus Pravoslav Kilsəsi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında dinlərarası dialoq çərçivəsində nümunəvi dini-mənəvi əlaqələrin mövcudluğunu böyük dəyər kimi qiymətləndirib. Bu işdə böyük nüfuza malik dini lider olaraq Şeyxülislam Allahşükür Paşazadənin səylərinin, 40 ildən çox müddət ərzində sülhyönümlü, xoşməramlı fəaliyyətinin böyük əhəmiyyət daşıdığını bildirib. Xalqlarımız, dövlətlərimiz arasında mövcud dostluq, qardaşlıq, strateji əməkdaşlıq bağlarının qorunub saxlanılmasının, inkişaf etdirilməsinin vacibliyi qeyd olunub.

Görüşdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Aleksiy Nikonorov da iştirak edib.

# Avarçəkmə Xəzər sularına qayıdır

Başa çatmaqda olan 2022-ci il Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası (AKAF) üçün bir sıra yeniliklərlə əlamətdar olub. Bu barədə Mingəçevir şəhərindəki "Kür" Olimpiya Tədris-İdman Mərkəzində təşkil olunan mətbuat konfransında məlumat verilib.



Federasiyanın vitse-prezidenti Fərid Əmirov və baş katib Fərhad Əliyevin iştirakı ilə keçirilən tədbirdə bildirilib ki, 2022-ci ildə avarçəkmə ölkəmizdə özünün yeni inkişaf mərhələsinə qədəm qoyub və bir sıra əlamətdar hadisələrlə yadda qalıb. "Böyük fəxr hissi ilə bildiririk ki, işğaldan azad olunan ərazilərdə ilk təlim-məşq toplanışı və ilk beynəlxalq idman yarışı Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən təşkil olunub. Mart ayında Suqovuşan qəsəbəsində keçirilən təlim-məşq prosesində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da iştirakı idmançılarımıza göstərilən qayğının nümunəsidir", - deyə tədbirdə qeyd olunub.

Bu il Suqovuşan qəsəbəsində və Mingəçevir şəhərində 2 beynəlxalq idman tədbirinin - may ayında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilən "Prezident Kuboku" və oktyabrda təşkil olunan, Avropa Kanoe Assosiasiyasının rəsmi təqvim planına daxil edilən "Mingəçevir Reqatası" yarışlarının iştirakçı ölkələrin idmançıları və nümayəndə heyətləri tərəfindən böyük razılıqla qarşılandığını deyən baş katib Fərhad Əliyev bildirib ki, gələnilki yarışlarda Azərbaycana gələcək komandaların sayında xeyli artım gözlənilir.

İl ərzində idmançılarımızın beynəlxalq yarışlarda qazandıqları nəticələrə gəlincə, Diana Dimçenko sahil avarçəkməsi üzrə Avropa çempionatında qızıl, dünya çempionatında isə gümüş medal əldə edib. Yeri gəlmişkən, AKAF rəsmiləri bu idman növünün Xəzər dənizində inkişaf perspektivləri barədə danışarkən qeyd ediblər ki, bu istiqamətdə konkret addımlar atılmaqdadır və bunun üçün qarşıdakı illərdə beynəlxalq yarışların təşkili məsələsi də müzakirə olunur.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdə Mingəçevirdə və paytaxt Bakıda 11 peşəkar avarçəkmə klubunun fəaliyyət göstərdiyini xatırladan baş katib federasiyanın əsas məqsədinin bu ənənələri bərpa etmək olduğunu bildirib.

Beynəlxalq idman təşkilatları ilə sıx əməkdaşlıq məsələlərinin hər zaman ön planda olduğunu deyən AKAF-nin vitse-prezidenti Fərid Əmirov vurğulayıb ki, AKAF rəhbərliyinin Beynəlxalq Avarçəkmə Federasiyasının prezidenti Jan Kristof Roland və Avropa Kanoe Assosiasiyasının prezidenti Albert Vudsla görüşlərində qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilib və ölkəmizdə bu idman növlərinin böyük inkişaf perspektivlərinin olduğu xüsusi vurğulanıb.

Avarçəkmə idman növünün ölkəmizdə coğrafiyasının genişləndirilməsi məqsədilə müxtəlif rayonlarda su hövzələrinə baxış keçirildiyini deyən Fərhad Əliyev sentyabr ayında Neftçala rayonundakı Axmaz gölündə təlim-məşq toplanışının keçirildiyini xatırladıb. O bildirib ki, avarçəkməni paytaxt Bakıya qaytarmaq üçün Xəzər dənizində həyata keçirilən sınaq yürüşləri uğurla başa çatıb və uzun illərdən sonra paytaxtda bu idman növünün həvəskarları üçün yeni imkanlar açılacaq. Belə ki, dekabrın 24-də Dənizkənarı Bulvar ərazisində "Avarçəkmə Xəzər sularına qayıdır" devizi altında prosesə rəsmən start veriləcək.

***"Azərbaycan"***

# İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə təlim-metodiki toplantı başa çatıb

**Cari ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində qoşun növü, birlik, birləşmə, hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin ideoloji iş və mənəvi-psixoloji təminat (İİ və MPT) üzrə şöbə və bölmə (aidiyyəti kafedra və silsilə) rəisləri, hərbi hissələrin qərargah rəislərinin İİ və MPT üzrə köməkçiləri və psixoloqları ilə keçirilən təlim-metodiki toplantı başa çatıb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlim-metodiki toplantıda Azərbaycan Ordusunda idarəetmə və liderlik qabiliyyətlərinin formalaşdırılması, şəhid ailələri və qazilərlə işin təşkili, regionda və dünyada cərəyan edən ictimai-siyasi hadisələr, eləcə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sahədə fəaliyyəti və digər mövzularda çıxışlar edilib, ətraflı müzakirələr aparılıb.

Tədbirdə 2022-ci tədris ili ərzində görülən işlər təhlil edilib. Azərbaycan Ordusunda hərbi vətənpərvərlik tərbiyəsi, mənəvi-psixoloji hazırlığın yüksəldilməsi məqsədilə qarşıya qoyulan tapşırıqların həlli istiqamətində görülmüş işlərdən danışılıb, həmçinin 2023-cü tədris ilində görülməli olan mənəvi-psixoloji təminat məqsədli vəzifələr toplantı iştirakçılarının diqqətinə çatdırılıb.

Sonra "Azərbaycan Ordusunun şəxsi heyətinin Heydər Əliyev ideyaları əsasında mənəvi-psixoloji təminatının aktual istiqamətləri" mövzusunda məruzə ilə çıxış edən Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani "Heydər Əliyev İlinə Zəfər bayrağı ilə!" adlı vətənpərvərlik marafonuna start verildiyini qeyd edib.

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində təşkil olunan toplantı çərçivəsində marafonun ilk tədbiri keçirilib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi və Müdafiə Nazirliyinin Hərbi Orkestrinin ifa etdiyi Heydər Əliyev haqqında və Ulu Öndərin sevdiyi mahnılar, şeirlər tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

# QMİ sədri Laçın-Xankəndi yolundakı vəziyyətlə bağlı Roma Papasına məktub göndərib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Roma Papası Fransiskə məktub ünvanlayıb.**



İdarədən AZƏRTAC-a daxil olan məktubda deyilir: "Cənabınızı səmimiyyətlə salamlayır və Müqəddəs Taxt-Tacla Azərbaycan Respublikası arasında mövcud münasibətlərin yüksək səviyyəsindən məmnunluğumu ifadə etməkdən şərəf duyuram. Azərbaycan Prezidenti İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə Bakıda və Vatikanda görüşləriniz Müqəddəs Taxt-Tacla Azərbaycan arasında bütün sahələrdə dərin əməkdaşlığın möhkəm təməlidir. Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında diplomatik əlaqələrin yaradılmasının 30 illiyinin qeyd olunduğu bu il münasibətlərimiz üçün əlamətdar oldu. İlin əvvəlində ali dəvətinizlə Vatikana səfərim, Zati-müqəddəslərinizlə baş tutan görüşümüz unudulmaz və səmərəli oldu. Sizin Azərbaycana 2016-cı il həvari səfərinizdən sonra Vatikana səfərim, il ərzində Qazaxıstanda, Bəhreyndə bəşəri qardaşlıq mühitində görüşlərimiz, heç şübhəsiz, Roma Katolik Kilsəsi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında mövcud yüksəksəviyyəli münasibətlərin daha da möhkəmlənməsi, ümumilikdə müsəlman-xristian dialoqu prosesinə dəyərli töhfələrdir.

Zati-müqəddəsləri, Sizin dinlərarası dialoqa verdiyiniz xüsusi önəm, dünyada sülh naminə münaqişələrin aradan qaldırılması istiqamətində səyləriniz olduqca təqdirəlayiqdir. Dünyanın ən müxtəlif nöqtələrində baş verən hadisələrə hər zaman dərinməzmunlu münasibət sərgiləməyiniz dini lider olaraq üstün özəlliyinizdir və bir olan Yaradanımıza inananların ürəklərində dərin əks-səda yaradır. Vatikan dövlətinin başçısı və dünya katoliklərinin lideri kimi Bazar günü moizələrinizi milyonlarla insan diqqətlə izləyir. Bu əsnada, son moizənizdə Qafqaz bölgəsində baş verənlərə dair toxunduğunuz məqamla bağlı Sizi məlumatlandırmağı özümə mənəvi borc sayıram.

Zati-müqəddəsləri, Sizin Cənubi Qafqazda vəziyyətlə bağlı narahatlığınızı bölüşürəm. Həqiqətən narahatedici məqam ondan ibarətdir ki, bölgədə davamlı sülh və təhlükəsizliyin təmini ilə bağlı təhlükələr qalmaqdadır. Məlumunuz olduğu kimi, Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində dünya birliyi tərəfindən tanınan, 30 ilə yaxın müddətdə qonşu Ermənistan tərəfindən işğal altında olmuş əzəli torpaqlarını azad etdi. Əldə olunmuş üçtərəfli razılaşmaya görə, Qarabağın ermənilər yaşayan hissəsində 5 illik müddətə Rusiya sülhməramlıları yerləşdirildi. Fərqindəyik ki, Zati-müqəddəslərinizi narahat edən məqam Qarabağdakı erməni azlığını Ermənistanla birləşdirən humanitar məramlı Laçın-Xankəndi yolunun guya bağlanılması ilə bağlı ermənilərin Katolikos-Patriarxı II Qareginin Cənabınıza və digər dini mərkəz və kilsə rəhbərlərinə ünvanladığı müraciətdəki, hər zamankı kimi, qeyri-səhih, qərəzli informasiyadan qaynaqlanır.

Ali diqqətinizə çatdırmaq istərdim ki, adıçəkilən yol heç bir zaman Azərbaycan tərəfindən qapadılmayıb. Bunu edən rus sülhməramlılarıdır və Azərbaycan hakimiyyəti tərəfindən dəfələrlə rəsmi şəkildə bəyan edilib ki, Azərbaycan tərəfindən Laçın yolu ilə avtomobillərin hərəkətinə heç bir məhdudiyyət qoyulmayıb, yolboyu hərəkət rejimi əvvəlki qaydada davam edir, vətəndaşların, yüklərin və nəqliyyat vasitələrinin hərəkətinin təşkili Rusiya sülhməramlı qüvvələrinin üzərinə düşür. Lakin Azərbaycanı dünya ictimaiyyətinin nəzərində qaralamaq, qeyri-humanist səciyyədə təqdim etmək məqsədi ilə Ermənistan tərəfi məkrli dezinformasiyalar yayır, ölkəmizə qarşı qərəzli təbliğat aparır və uydurma iddialar irəli sürür. Çox təəssüf edirik ki, erməni siyasilərinin təsiri altında Erməni Apostol Kilsəsi bu işdə xüsusi fəallıq göstərir.

Zati-müqəddəsləri, həqiqət bundan ibarətdir ki, aparılan araşdırmalara görə, Qarabağın sülhməramlıların məsuliyyət daşıdığı bölgəsində "Qızılbulaq" qızıl yatağında və "Dəmirli" mis-molibden yatağında qanunsuz istismar fəaliyyəti həyata keçirilir. Müstəqil fəallar tərəfindən bu fəaliyyətin monitorinq olunması haqqında sülhməramlılar vasitəsilə öncədən müvafiq razılaşmanın əldə edilməsinə baxmayaraq, ekofəallar separatçı rejim tərəfindən həmin obyektlərə buraxılmayıblar. Vətəndaş cəmiyyəti təmsilçilərinin buna etiraz olaraq bir həftədən artıq davam edən təbii sərvətlərin talanması və ekologiyaya ciddi ziyan vurulmasına qarşı şüarlarla keçirilən aksiyası dinc xarakter daşıyır və Laçın-Xankəndi yoluna maneə yaratmır. Hazırda etirazçılar göstərilən yataqlara yerində baxış keçirilməsini, qanunsuz istismarın dayandırılmasını, müxtəlif istiqamətlər üzrə monitorinq və inventarizasiyanın aparılmasını, ətraf mühitə potensial risklərin qiymətləndirilməsini və dəymiş zərərin nəticələrinin aradan qaldırılmasını tələb edirlər. Ekofəallar dinc etiraz aksiyasının humanitar böhrana səbəb olması barədə Ermənistan tərəfinin, özəlliklə, Eçmiədzinin iddiaları qətiyyən həqiqətə uyğun deyildir, belə ki, humanitar dəhliz fəaliyyətdədir. Etiraz aksiyasının keçirildiyi yerdən çəkilən videolarda görünür ki, humanitar yük daşıyan və təcili tibbi yardım maşınları sərbəst hərəkət edə bilir və bunun üçün aksiya keçirənlər tərəfindən hər bir şərait təmin olunur. Qarabağ bölgəsində yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının humanitar problemləri olduğu halda, onların müraciətlərinin operativ şəkildə həlli üçün qaynar xətt yaradılıb. Əsl problem ondadır ki, bu humanitar dəhlizdən sui-istifadə olunaraq Qarabağdakı erməni separatçılarına silah-sursat, hərbi məqsədli yüklər, minalar daşınır. Təsadüfi deyil ki, sülhə dair üçtərəfli Bəyanatın imzalanmasından sonra üç yüzə yaxın mülki Azərbaycan vətəndaşı yeni basdırılmış minalardan zərər çəkib - ya həlak olub, ya ömürlük əlil olub. Son vaxtlar torpaqlarımızda 2021-ci il Ermənistan istehsalı olan 350 mina aşkar edilib. Ən son mina qurbanları 14 dekabr tarixində Kəlbəcər rayonunda 8 azərbaycanlı oldu.

Zati-müqəddəsləri, Siz Azərbaycanı ziyarət etmiş, çoxmillətli, çoxkonfessiyalı ölkəmizin multikultural dəyərləri və ənənələri ilə tanış olmaq, müxtəlif etnik və dini mənsubiyyət daşıyıcıları olan vətəndaşlarımızın mehriban ailə kimi yaşadıqları, öz dini-mənəvi ehtiyaclarını sərbəst şəkildə həyata keçirdiklərini, bütün dini konfessiyaların dövlətin diqqət və qayğısından bərabər şəkildə faydalandığını şəxsən müşahidə imkanına malik olmusunuz. Siz Azərbaycan dövlətinin ölkəmizdə və ölkə xaricində ənənəvi dini dəyərlərə ehtiramlı münasibətinin, diqqət və himayəsinin canlı şahidisiniz. Multikultural ölkəmizdə yaşayan 30 mindən artıq erməni kimi, bir o qədər sayda Qarabağda yaşayan ermənilər də bizim vətəndaşlarımızdır və hər bir Azərbaycan vətəndaşının malik olduğu hüquq və azadlıqlardan, imtiyazlardan və ölkəmizin sərvətlərindən istifadə haqqına malikdirlər. Lakin onlar qanunsuz rejimin girovuna çevriliblər. Ermənistanın bəzi siyasi xadimlərinin ritorikası, diasporun təzyiqləri, habelə Erməni kilsəsinin revanşizm əhvali-ruhiyyəsini körükləyən bəyanatları kövrək sülhü təhdid edir. Bu cür bəyanatlar Azərbaycan hakimiyyətinin yerli etnik ermənilərlə dialoquna xidmət etmir. Halbuki Azərbaycan reinteqrasiya prosesinin başa çatması üçün belə bir dialoqda ən maraqlı tərəfdir. Biz sülh arzulayırıq, sülh quruculuğu işləri ilə məşğuluq, işğal dövründə xarabalığa çevrilmiş Qarabağın dirçəldilməsi, infrastrukturunun yenidən qurulması, vandalizmə uğramış məscid və kilsələri bərpa etmək yönündə gərgin iş aparırıq. Bu, Qarabağda yaşayan azərbaycanlıların və ermənilərin ümumi təhlükəsizliyinə və iqtisadi rifahına xidmət edən genişmiqyaslı layihələrdən bütün bölgə yararlanacaqdır. Davamlı sülh və əmin-amanlığın bərqərarı ümdə istəyimizdir.

Hər zaman bütün məsələlərə ədalət meyarı ilə yanaşan Zati-müqəddəslərinizi bu həqiqətlərlə tanış edərək Sizdən təvəqqe edirik ki, Uca Yaradanımızın buyurduğu kimi, müqəddəs sülh amalları yolunda səy göstərən bizlərə haqq işimizdə yardımçı olun. Ali nüfuzunuzla bölgəmizdə dayanıqlı sülh üçün səylərinizi və dualarınızı əsirgəməyin!

Zati-müqəddəsləri, fürsətdən istifadə edərək, Azərbaycan müsəlmanları və şəxsən öz adımdan Sizi - dünya katoliklərinin liderini möhtəşəm bayramınız - İsa Məsihin Mövludu - Milad münasibətilə bir daha səmimi-qəlbdən təbrik edir, Cənabınıza və bütün ardıcıllarınıza Uca Yaradandan xeyir-dualar diləyir, Sizə uzun ömür, möhkəm cansağlığı və dəyərli fəaliyyətinizə rəvac təvəqqe edirəm. Qoy, Bir Olan Yaradanımız Yer üzünü və bəşəri bəlalardan hifz etsin, dünyamıza sülh və rifah əta etsin! Amin!"

# REGİONLAR

## Karyera sərgisində iştirak edən gənclərin çoxu işlə təmin olundu

**Sumqayıtdakı Heydər Əliyev Mərkəzində 30-a yaxın təşkilat nümayəndəsinin iştirak etdiyi II Karyera Sərgisi keçirilib.**

Şəhər icra hakimiyyətinin təşəbbüsü, Sumqayıt Regional Mədəniyyət İdarəsinin dəstəyi, Gənclər Klubu və Gənclərin İnkişaf və Karyera Mərkəzinin şəhər nümayəndəliyinin birgə təşkilatçılığı ilə baş tutan sərgidə çıxış edənlər tədbirin əhəmiyyətini vurğulayaraq bildirdilər ki, bu cür tədbirlər gənclərin məşğulluğunun təmin olunması, əlaqələrinin inkişafı baxımından yüksək əhəmiyyətə malikdir. Qeyd olundu ki, karyera qurmaq istəyən gənclər üçün belə sərgilər daha çox maraqlıdır, onlar gələcək bizneslərini elə bu sərgidə tapa bilirlər.

Daha sonra məlumat verildi ki, sərgidə iştirak edən şirkətlər öz vakansiyalarını və təcrübə proqramlarını sərgiləyirlər. Sərgidə iştirak edən gənclər isə CV-lərini şirkətlərə təqdim etmək imkanı əldə edirlər. Birinci sərgidən sonra yüzlərlə sumqayıtlı bu yolla işlə təmin edilib.

Gənclərin inkişafı və müxtəlif istiqamətlərdə yeni bilik və bacarıqlara yiyələnməsini təmin etmək üçün sərgi ilə paralel olaraq müxtəlif mütəxəssislər tərəfindən fərdi inkişaf təlimləri də keçirilib. Həmin təlimlərdə uğur qazananlar yerindəcə işə götürülüblər.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Astarada yeni hotel açılmışdır



**Astara şəhərində müasir dizaynla inşa edilmiş "Mandarinnart" hotelinin açılışı olmuşdur. Butik hotel üç mərtəbədən ibarət olmaqla Avropa standartlarına uyğun inşa edilmişdir.**

Delüks, lüks və standart otaqlarda xarici ölkələrin istehsalı olan muasir mebel və avadanlıqlar quraşdırılmışdır. Hoteldə həmçinin restoran, SPA və Fitnes mərkəzi, açıq hovuz, uşaq əyləncə meydançası və yay amfiteatrı var. Hotel eyni vaxtda 120 nəfərə xidmət göstərmək imkanına malikdir. Qonaqlara milli yeməklərlə yanaşı, dünya mətbəxi nümunələri təklif ediləcək. Daha bir özəllik isə çörək və bütün növ şirniyyatların məhz hotelin mətbəxində hazırlanmasıdır. Qardaş Türkiyədən peşəkar mütəxəssis kimi dəvət olunan Mehmet Uysal isə hoteldə baş menecer kimi çalışmaqla bərabər, Astaradan olan xidmət personalına, qonaqlara yüksək səviyyədə xidmət göstərmək üçün təlimlər də keçəcək.

Hotelin direktoru Anar Mahmudovun sözlərinə görə, yaxın gələcəkdə daha belə bir hotel rayonun dənizsahili ərazisində tikiləcək.

*Safail MƏMMƏDOV,*
*Astara rayonu*

## Kənd təsərrüfatı məhsulları istehsalı ümumilikdə artsa da...



### Dənli və dənli paxlalı bitkilərin istehsalı azalıb

**Kənd təsərrüfatı bitkilərinin yığımı başa çatmaq üzrədir. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari il dekabrın 1-nə kimi qarğıdalı da daxil olmaqla, tarlalardan 3 milyon 132,8 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 6,5 faiz az dənli və dənli paxlalı bitkilər toplanmışdır.**

Bu dövr həmçinin ölkə üzrə 1 milyon 52,3 min ton (1,3 faiz çox) kartof, 1 milyon 810,2 min ton (1,2 faiz çox) tərəvəz, 468,7 min ton (1,9 faiz çox) bostan məhsulları, 1 milyon 248,4 min ton (4,6 faiz çox) meyvə və giləmeyvə, 211,7 min ton (3,3 faiz çox) üzüm, 1 min ton (14,8 faiz az) yaşıl çay yarpağı, 203,7 min ton (8,7 faiz çox) şəkər çuğunduru, 28,9 min ton (12,2 faiz çox) günəbaxan və 4,3 min ton (32,2 faiz az) tütün yığılmışdır.

Heyvandarlığa gəldikdə, ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-noyabr aylarında diri çəkidə ət istehsalı 2,9 faiz artaraq 522 min, süd istehsalı 1,9 faiz artaraq 2 milyon 36,3 min, yun istehsalı 2,3 faiz azalaraq 15,6 min, barama istehsalı 31,4 faiz azalaraq 341,4 ton, yumurta istehsalı 8 faiz artaraq 1 milyard 821,5 milyon ədəd olmuşdur. Və nəhayət, keçən ilin yanvar-noyabr ayları ilə müqayisədə ümumilikdə kənd təsərrüfatı məhsulları istehsalı 3,4, o cümlədən heyvandarlıq məhsulları istehsalı 3,3, bitkiçilik məhsulları istehsalı 3,4 faiz artmışdır.

Bu artımda pambığın payı var. Kənd Təsərrüfatı Nazirliyinin son məlumatına görə, ölkə üzrə fermerlər tərəfindən kondisiya çəkidə 313 min 706 ton pambıq yığılaraq tədarük məntəqələrinə təhvil verilmişdir. Orta məhsuldarlıq 30 sentnerdən çox olmuşdur. Amma pambıq əkini aparılmış 16 rayondan 8-də - Ağcabədi, Beyləqan, Bərdə, Saatlı, Salyan, Tərtər, Yevlax və Zərdabda orta məhsuldarlıq göstəricisi daha yüksəkdir.

Xatırladaq ki, bu il Azərbaycanın 16 rayonunda ümumilikdə 100 min hektardan artıq sahədə pambıq əkini aparılıb. Ən çox pambıq Saatlı, Ağcabədi, Sabirabad və Bərdə rayonlarının ərazisində əkilib. Bu rayonların ərazisində pambıq əkinlərinin sahəsi 11 min hektardan çoxdur. Ümumilikdə ölkə üzrə pambıq əkini sahələrinin 45 faizdən çoxu həmin 4 rayonun payına düşür.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Gəncəlilər qanlarını əsirgəmədilər

**Gəncə Şəhər İcra Hakimiyyətinin və Milli Hematalogiya və Transfuziologiya Mərkəzinin birgə təşkilatçılığı ilə "Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində könüllü qanvermə aksiyası keçirilmişdir.**

Tədbirdə şəhər rəhbərliyi, eləcə də idarə, müəssisə, təşkilatların işçiləri iştirak etmişlər.

Aksiya zamanı xüsusi tibbi briqadanın həkim-hemotoloqları tərəfindən hər bir donorun qan qrupu yoxlanılmış və səhhətində hər hansı bir problemin olmadığı müəyyənləşdikdən sonra ondan qan götürülmüşdür.



Hemofiliya və talassemiya xəstəliyindən əziyyət çəkən uşaqların qan ehtiyaclarının ödənilməsinə təmənnasız kömək etmək üçün keçirilən tədbir gün ərzində davam etmişdir.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

◆ İlə yekun vurulur

## Salyanda yeni ili üzüağ qarşılamaq üçün səbəb çoxdur



**2022-ci il başa çatmaq üzrədir. Yeni il qapının astanasındadır, artıq addım səsləri də eşidilir. Bu günlər hamı özü-özünə hesabat verir, köhnə ildə nə iş görüb, hansı işləri həyata keçirə bilməyib, təzə ildə nələri etməli olduğu haqda fikirləşir, götür-qoy edir, plan cızır.**

Bu baxımdan salyanlılar, xüsusən rayonun zəhmət adamları da istisna deyil. Əvvəla, onu qeyd edək ki, rayonda sağlam mühit, yüksək əhvali-ruhiyyə mövcuddur. Rayon əhalisi Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin doğru-düzgün xətt olduğuna inanaraq onların həyata keçirilməsi, gerçəkləşməsi üçün əlindən gələni əsirgəmir.

Salyan ölkənin iqtisadi coğrafiyasında aqrar sənaye rayonu kimi yer tutur. Rayonda "Salyan Oil" şirkəti, Plastik kütlə emalı, eləcə də Spirtsiz içkilər zavodları, "MKT- İK", "P- Aqro", "Azərpambıq" şirkətlərinin filialları, Salyan aqroparkı və digər müəssisələr fəaliyyət göstərir. Onların hər birinin rayon iqtisadiyyatında sanballı yeri və payı var. Və bir də yaxşı hal odur ki, belə müəssisələrin sayı ilbəil artır.

Rayonun fermerləri, torpaq mülkiyyətçiləri, sahibkarları da bir yerdə durmurlar. Kənd təsərrüfatı üçün o qədər də əlverişli olmayan cari ildə onlar bütün qüvvə və bacarıqlarını səfərbər etdilər. Yüksək aqrotexniki qulluq göstərmək sayəsində cari mövsüm rayon üzrə taxılçılıqda məhsuldarlıq 32,3 sentnerə çatdı. Bu, Muğan şəraiti üçün yaxşı nəticə hesab olunur. Gələn ilin məhsulu üçün də möhkəm bünövrə qoyulmuşdur. Payızın yağmurlu keçməsi torpağa səpilən arpa və buğdanın muradını vermişdir. Təbiətin mərhəməti sayəsində əkilən toxumlar torpaqdan baş qaldıraraq çəmənləşmişdir.

Amma 2022-ci ili pambıqçılar üçün əlverişli il hesab etmək olmaz. Yazda havaların nisbətən soyuq keçməsi çiyid səpinini gecikdirdi. Cücərmə ləngidi, bir çox sahədə təkrar səpin aparmaq lazım gəldi. Bu isə vegetasiya müddətinin uzanmasına, məhsulun maya dəyərinin yüksəlməsinə səbəb oldu. Azmış kimi, kütləvi yığıma sentyabrın 20-dən sonra başlandı. Üzü payıza düşən yağışlar yığım üçün ciddi problem yaratdı. Günlərlə nə əllə, nə də maşınlarla pambıq yığmaq mümkün oldu. Buna baxmayaraq, təbiətin verdiyi aralıq fürsətdən mexanizatorlar bacarıqla istifadə etdilər. Onlar böyük zəhmətlə və vəsaitlə yetişdirilən pambığı yığmaq üçün gecə saatlarında, kombaynların işığı altında işlədilər. Şirkətlərin mütəxəssisləri rayonlara, kəndlərə baş çəkərək yaranan gərginliyi aradan qaldırmaq üçün tədbirlər gördülər. Yerli icra orqanları da köməklərini pambıqçılardan əsirgəmədilər. Bütün bunların hesabına rayon üzrə çiyid səpilmiş 9 min 285 hektardan 28 min 60 ton pambıq tədarük olundu. Yığım isə davam edir. Salyanlılar ölkə üzrə 3 il dalbadal əldə etdikləri birinciliyi bu il də saxlamağa çalışırlar.

Kənddə işin bitib-tükəndiyi vaxt, ay, fəsil yoxdur. İndi heyvandarlar saxladıqları mal-qaranı qışdan sağlam və gümrah çıxarmağa çalışırlar. Onlar hələ yay aylarında bunun üçün kifayət qədər qüvvəli və qaba yem, yonca, bəlim, vələmir və s. tədarük etmişlər. Builki yağışların heyvandarlara faydası o olmuşdur ki, çöllərdə, düzlərdə, otlaqlarda yaşıl ot örtüyü yaranmışdır. Bu isə xüsusilə qoyunçuluqla məşğul olan fermerlərin üzünü güldürür. Qeyd edək ki, rayonda 62 min baş iribaşlı, 184 min baş xırdabaşlı mal-qara bəslənilir. Quşların sayı isə 1,5 milyona çatıb. Cari ilin 11 ayının nəticələrinə görə, rayon üzrə 76 min ton ət, 372,6 min ton süd, 26,4 milyon ədəd yumurta istehsal olunub. Bunlardan əlavə, Salyanda nohur balıqçılığı da ildən-ilə geniş yayılır.

4-cü regional inkişaf proqramı çərçivəsində rayonda tikinti-quruculuq və abadlıq işləri də səngimir. Bakı-Astara magistral şose yolunun köhnə hissəsi ilə gəlib Kür çayı üzərindəki körpünü keçərkən adamın gözləri qarşısında bunu təsdiq edən bir mənzərə canlanır. Təxminən 10-15 il əvvəl tikilib istifadəyə verilən Olimpiya İdman Kompleksi əraziyə xüsusi görkəm, əzəmət gətirir. İndi isə onunla yanaşı, daha müasir, yaraşıqlı, dünya standartlarına cavab verən bir kompleks - "ASAN xidmət" üçün bina ucalır. Kür çayının sahilində yerləşən binanın həyətində əkilən müxtəlif növ bəzək ağacları, yaşıllıq, piyada səkiləri, işıqlandırma sistemi, vətəndaşlar üçün yaradılan digər rahatlıqlar əraziyə əlavə gözəllik qatır.

Mərkəzi xəstəxananın şəhər poliklinikası, cərrahiyyə və digər şöbələri bir neçə il öncə əsaslı şəkildə yenidən qurulmuşdur. Şəhər ərazisindən müəyyən qədər kənarda yerləşən Ağciyər-Vərəm Dispanseri də əsaslı təmir olunmuşdur. Təxminən bir ay əvvəl Mərkəzi Xəstəxana şəhərciyində yerləşən doğum evində də təmir işləri başa çatmışdır. Rayonun bütün səhiyyə ocaqları lazımi tibbi avadanlıqlar, xüsusi təyinatlı avtomobillərlə təchiz edilmişdir.

Səhiyyədən söz açıb, təhsildən yazmamaq mümkün deyil. Son illər Salyan şəhərində, o cümlədən qəsəbə və kəndlərdəki bütün məktəblər ya yenidən tikilmiş, ya da əsaslı təmir olunmuşdur. Qızılağac rayonun ən iri kəndlərindən biridir. Qədim tarixə malik olan kənd öz alimləri, ziyalıları ilə sayılıb-seçilir. Görkəmli tarixçi-alim, Milli Elmlər Akademiyasının müxbir üzvü, həyatdan vaxtsız köçmüş Əlövsət Quliyev bu kənddə dünyaya göz açmış, ilk təhsilini buradakı təhsil ocağında almışdır. Bir vaxtlar təhsil aldığı məktəb indi onun adını daşıyır. Məktəb üçün müasir bina tikilmişdir.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## GDU-da ikili diplom proqramı çərçivəsində mütəxəssis hazırlığına başlanılacaq

**İkili diplom proqramı çərçivəsində işgüzar müzakirələr aparmaq üçün Gəncə Dövlət Universitetinin (GDU) rektoru Yusif Yusibov başda olmaqla universitetin nümayəndə heyəti Türkiyənin Dokuz Eylül Universitetində işguzar səfərdə olmuşdur.**

Universitetdə keçirilən görüşdə DEU-nun rektoru Nükhet Hotar ikili diplom proqramı çərçivəsində universitetlər arasında həyata keçiriləcək layihənin əhəmiyyətindən danışmışdır. Qeyd etmişdir ki, ikili diplom proqramının tətbiqi ilə hər iki universitetin tələbələri beynəlxalq akkreditasiyadan keçmiş ixtisaslarda iki il təhsil almaq imkanı əldə edəcəklər.

Sonra Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov çıxış edərək iki ölkə arasındakı qardaşlıq münasibətlərindən ətraflı söhbət açmış, Dokuz Eylül Universiteti ilə ikili diplom razılaşmasını yüksək dəyərləndirmişdir.

Görüşdə GDU-nun Elm və innovasiyalar üzrə prorektoru, Milli Məclisin deputatı Pərvin Kərimzadə, İnnovasiyalar Departamentinin rəhbəri Vasif Həsənov, Tədris Departamentinin direktoru Elturan Yusifov və Kimya-biologiya fakültəsinin dekanı



İsfəndiyar Alverdiyev çıxış edərək təmsil etdikləri universitetin fəaliyyəti və beynəlxalq əlaqələri haqqında ətraflı məlumat vermişlər. Qeyd edilmişdir ki, bu yaxınlarda imzalanacaq əməkdaşlıq memorandumu hər iki universitetin müəllim və tələbələri üçün təhsil və elm sahəsində yeni imkanlar açacaq.

Səfər zamanı Yusif Yusibov və nümayəndə heyəti Dokuz Eylül Universiteti ilə yaxından tanış olmuşlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## İlin yekun Aqrar İnnovasiya Festivalı keçirilmişdir

**Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə Astara rayonunda ilin yekun Aqrar İnnovasiya Festivalı keçirilmişdir.**

Kənd Təsərrüfatı Nazirliyinin elmi-tədqiqat institutları, digər tabeli qurumları, beynəlxalq təşkilatlar, yerli və xarici şirkətlər, eləcə də digər dövlət qurumlarının tərəfdaşlığı ilə keçirilən festivalda məhsul istehsalçılarının kənd təsərrüfatı təyinatlı məhsul, avadanlıq və texnologiyaları nümayiş olunmuşdur. "Astaraçay" emal müəssisəsinin ərazisində keçirilən festivalda Lənkəran-Astara iqtisadi rayonunun və ətraf bölgələrin fermerləri, məhsul istehsalçıları, aqroparkların nümayəndələri iştirak etmişlər. Festival innovativ avadanlıq və texnologiyaların nümayiş olunduğu sərgi, startap zona, təlimlər və məlumat sessiyası, "dəyirmi masa" kimi bir neçə bölmədən ibarət olmuşdur.

Festival ərzində fermerləri maraqlandıran bir sıra prioritet məsələlər üzrə məlumat sessiyası və təlimlər keçirilmişdir. "Sitrus meyvə bağlarında xəstəlik və zərərvericilərə qarşı inteqrir mübarizə tədbirlərinin təşkili", "Kökəltmə təsərrüfatlarında intensiv yemləmənin təşkili" təlimləri, eləcə də "Kənd təsərrüfatında sığortalanan bitkilər" mövzusunda keçirilən məlumat sessiyasında fermerləri maraqlandıran suallar mütəxəssislər tərəfindən cavablandırılmışdır.

Həmçinin festivalda "Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi" layihəsinin ilkin nəticələrinin müzakirəsi ilə bağlı keçirilən "dəyirmi masa"da elmi-tədqiqat institutlarının və aqrar sahənin müxtəlif sahələri üzrə fəaliyyət göstərən şirkət rəhbərlərinin iştirakı ilə çayçılıq, subtropik meyvəçilik və çəltikçiliyin istehsalı və emalı ilə bağlı bir çox məsələlər müzakirə edilmişdir.

Festival ərzində regionlarda yaşayan gənclərin aqrar sahəyə marağının artırılması məqsədilə "Kənd təsərrüfatı sahəsində ideya sahiblərinə startap qurmağın əsasları" mövzusunda stimullaşdırıcı workshoplar da təşkil olunmuşdur.



Sonra regionlarda keçirilən Aqrar İnnovasiya festivallarında fəal iştirakına və dəstəyinə görə fərqlənən şəxslərə təşəkkürnamələr verilmişdir. Qeyd edilmişdir ki, Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə cari il ərzində Quba, Ucar, Qobustan, Ağstafa, Zaqatala, İmişli, Şəmkir rayonlarında təşkil olunan festivallarda 4000-dən çox fermer müxtəlif kənd təsərrüfatı təyinatlı innovativ məhsul və texnologiya ilə tanış olmaq imkanı əldə etmişdir.

*S.CAVADOV,*
*"Azərbaycan"*

# Netanyahu İsrailin yeni hökumətini qurur

## Bəzi partiyalarla koalisiya müqavilələrinin hələ də imzalanmaması vəziyyəti çətinləşdirib

Ötən ayın 1-də keçirilmiş parlament seçkilərində qalib gələn sağçı partiyalar blokunun rəhbəri, "Likud" Partiyasının sədri, İsrailin keçmiş baş naziri Binyamin Netanyahu yeni nazirlər kabinetinin formalaşdırılması ilə bağlı Prezident İshak Hersoqa məlumat verib.



Yerli KİV bildirir ki, o, bu barədə prezidentin hökumətin qurulması üçün təyin etdiyi vaxtın bitməsindən bir neçə dəqiqə əvvəl tviterdə yazıb.

Dövlət başçısının ofisi Netanyahunun bildirişini aldığını təsdiqləyib. Müvafiq mandatı aldıqdan 38 gün sonra - dekabrın 21-də "Likud" Partiyasının sədri Binyamin Netanyahu İshak Hersoqu İsrail nazirlər kabinetini formalaşdırmağa müvəffəq olduğu barədə məlumatlandırıb.

Yeni hökumətin tərkibində "Dini sionizm" Partiyası da daxil olmaqla sağçı mühafizəkar blokun nümayəndələri yer alacaq. Bunlar ŞAS, "Yahadut ha Tora", "Osma Yehudit" və "Noam" pariyalarının fraksiyalarıdır. "Jerusalem Post" qəzetinin yazdığına görə, Netanyahu Hersoqa deyib: "Son seçkilərdə aldığımız böyük ictimai dəstək sayəsində sizə bildirirəm ki, bütün İsrail vətəndaşlarının xeyrinə işləyəcək bir hökumət qura bilmişəm".

Hökuməti mümkün qədər tez formalaşdırmaq niyyətində olduğunu deyən siyasətçi bunun gələn həftə baş verəcəyini istisna etməyib. Öz növbəsində Prezident hökumət başçısına uğur diləyib: "Sizə təşəkkür edirəm və uğurlar arzulayıram. Dediyiniz kimi, siz bütün İsrail xalqı üçün işləməyə hazırsınız və ümid edirəm ki, belə bir zamanda hamınız bu missiya üçün səfərbər olacaqsınız. Uğurlar".

Bütün səylərə baxmayaraq, "Osma Yehudit", ŞAS və "Aqudat İsrael" partiyaları ilə koalisiya müqavilələri hələ də imzalanmayıb. Buna görə də razılaşmaların Knessetə təqdim olunması güman ki, daha çox vaxt aparacaq.

İfrat ortodokcal fraksiyaları ilə müqavilələrin imzalanmamasının səbəblərindən biri cəmiyyətdə ortodoksların mənzil böhranının necə həll ediləcəyi ilə bağlı mübahisədir.

"Likud"un rəsmi bəyanatında hökumətə daxil olacaq partiyaların adı çəkilsə də, "Osma Yehudit" və "Noam" qeyd olunmayıb. Bu mərhələdə "Yahadut ha Tora" da müqaviləni imzalamayıb və heç bir nümayəndə onların adından imzalanma mərasiminə qatılmayıb.

Netanyahunun daha bir həftəsi var ki, bütün nazir portfellərinin bölüşdürülməsini tamamlasın və hökuməti praktikada qursun. Gələn həftə hökumətin and içəcəyi gözlənilir.

İlkin olaraq İsrail Prezidentinin Netanyahunun hökuməti formalaşdırmaqla bağlı verdiyi mandatın vaxtı dekabrın 11-də başa çatıb. Sonra bu müddət 10 gün uzadılıb.

73 yaşlı Binyamin Netanyahu bu vəzifəni vaxtında yerinə yetirə bilməsəydi, prezident hökumətin qurulmasını başqa namizədə həvalə edəcəkdi.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Vardanyan özünü "yandırır"

## İrəvan Rusiya əsarətindən qurtulmağa çalışır

Ermənistanda son günlər anti-Rusiya meyillərinin artdığı müşahidə olunur. Bunu İrəvanda Rusiya əleyhinə keçirilən aksiyaların sayının çoxalması, az qala cəmiyyətin bütün təbəqələrində Moskvanın sərt tənqid hədəfinə çevrilməsi də təsdiq edir.




Son aksiyalardan öncə sosial şəbəkələrdə etirazçılardan bir qrupunun yayılan bəyanatında bildirilib ki, Kremlin Azərbaycanla sülh müqaviləsinin imzalanması müzakirəsinə geniş yer verməsi erməni cəmiyyəti üçün növbəti məğlubiyyət olacaq.

Aksiya müəyyən insidentlərlə müşayiət olunsa da baş tutub. Erməni mediası yazır ki, asayiş keşikçiləri etirazçıları toplaşdıqları küçənin qarşı tərəfinə sıxışdırarkən bir neçə dəfə qarışıqlıq yaranıb. Polislə aparılan danışıqlardan sonra aksiya iştirakçıları səfirliyin binası qarşısında karton qutuda rəmzi "hədiyyələr", yəni köhnə ayaqqabı və "Molotov kokteyli" doldurulmuş butulka qoyaraq dağılışıblar. Yerli media yazır ki, köhnə ayaqqabı "qana bulaşmış rus çəkməsi"nə işarədir. Ermənilər hesab edirlər ki, müharibədə aldıqları ağır məğlubiyyətə və postmüharibə dönəmində cərəyan edən proseslərə əsas səbəb Rusiyanın onları dəstəkləməməsidir.

Politoloq Qaspar Baqdasaryan erməni iqtidarının yarıtmaz siyasət yürütdüyünü söyləyib: "Ermənistan artıq ayılır, Rusiyanın əsarətindən qurtulmağa çalışır. Əgər əvvəllər Rusiyanın buradakı agentlərinin və nökərlərinin təsiri altında olan insanların sayı çox idisə, indi onlar qəflət yuxusundan oyanırlar, situasiyanı dəqiq dəyərləndirməyə başlayırlar. Yalnız şərəfsizlər və casuslar hələ də deyirlər ki, "Rusiya Ermənistanın müdafiəçisidir, Ermənistanı Azərbaycandan qoruyur".

Bütün bunların fonunda erməni mediası Qarabağa Moskvadan müəyyən məqsədlər üçün göndərilən təxribatçı iş adamı Ruben Vardanyanı hədəfə alıb. Separatçıların qondarma "dövlət naziri" ilə bağlı "4rd.am" nəşri yazır ki, Ruben tez-tez canlı yayıma çıxması, birbaşa özünün insanlara xoş xəbərlər verməsi və digər populist hərəkətləri ilə Paşinyanı təqlid edir. Qeyd edilir ki, bəziləri Vardanyanın bu davranışından qıcıqlanmağa başlayıb: "Onlar belə hesab edirlər ki, məhz bu səbəbdən Ruben tez-tez tələsik, yanlış bəyanatlar verir, bəzən isə vəziyyəti gərginləşdirir. Buna misal olaraq Vardanyanın bir neçə gün əvvəl qazın bərpa olunması müjdəsini və axşama qədər dəhlizin açılacağını deməsini göstərmək olar".

Bildirilir ki, o, həmçinin dekabrın 17-də Xankəndidə mitinq keçirəcəyini elan etməklə tələsdi. Hansı ki sonradan bu aksiya təxirə salındı. "Nazir" sonra da canlı yayıma çıxıb özünə haqq qazandırmaq istədi. Dedi ki, "Bizim bir problemimiz var. Necə edək və əmin olaq ki, bu mitinq 1990-cı illərin əvvəllərindəki kimi olacaq. Yəni sadəcə toplaşıb dağılışmayaq. Siyasi qüvvələrlə və digər hörmətli şəxslərlə uzun müzakirələrdən sonra qərara gəldik ki, sabah Ağdərəyə gedib insanlarla görüş keçirək, əhali ilə danışaq. Yalnız bundan sonra mitinqin necə və nə vaxt keçiriləcəyi bəlli olacaq".

Qarabağdakı mənbələr redaksiyaya məlumat veriblər ki, əslində Vardanyan mitinqlə bağlı təkbaşına qərar qəbul edib. Sonra ona məlumat veriblər ki, ciddi yanacaq problemi var və insanlar topladıqları ehtiyat benzinlərini mitinqdə iştirak üçün istifadə etməyəcəklər. Bu mənada azsaylı kütləylə mitinq keçirməyin mənası olmayacaq. Hətta ola bilər ki, ruslar da mitinqin əleyhinədirlər. Ona görə də Vardanyan öz qərarını dəyişərək sadəcə rayonları gəzməyə, taktikasını dəyişib insanlarla ünsiyyət qurmağa başladı.

Xatırladaq ki, təxribatçı iş adamı dekabrın 16-da "sabah saat 15:00-da Xankəndidə Azərbaycan əleyhinə mitinq təşkil edəcəyik" bəyanatı vermişdi. Vardanyan yerli ermənilər üçün elan etdiyi aksiya ilə bağlı bəyanatında demişdi ki, "birliyimizi və gücümüzü göstərmək üçün hər kəsi bu mitinqdə iştirak etməyə çağırıram". Amma göründüyü kimi, heç kim belə aksiya üçün öz cibindən benzin alıb gəlmək istəməyib.

Bütün bunlar isə hakimiyyətlə xalq arasında daha böyük ziddiyyətlərin yaranmasına gətirib çıxarır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***





# OXUCULARIN NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz,* ***(012) 539-59-33*** *nömrəli telefona zəng vura bilərsiniz.*


# COVID-19 hələ də dünyanı təhdid edir

Üç ilə yaxındır ki, bəşəriyyətin səyləri koronavirusla mübarizəyə yönəlsə də, bunun qarşısını almaq hələ ki mümkün olmayıb.

Hətta son günlərin statistik göstəricilərinə əsasən, infeksiyaya yoluxanların sayında ciddi artım müşahidə olunur. Bir müddət əvvəl isə pandemiyanın sonuna yaxınlaşdığı düşünülərək dünyanın əksər ölkələrində bir sıra məhdudiyyətlər aradan qaldırıldı, yumşalmalara gedildi. Görünür, bu, insanların arxayınlaşmasına səbəb oldu.

### Çində sutkalıq yoluxma sayında bir həftədir ki, antirekord qeydə alınır

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) epidemioloji bülletenində bildirilir ki, koronavirusa yoluxma halları 2 faiz, ölüm halları isə 10 faiz artıb. Pandemiyanın bütün dövrü ərzində dünyada 650 milyondan çox koronavirusa yoluxma və 6,6 milyona yaxın ölüm halı qeydə alınıb. Bu xəstəliyə düçar olan ölkələr arasında ilk sıralarda ABŞ, Hindistan, Fransa, Braziliya, Çin və Almaniya qərarlaşıb.

ÜST-ün Baş direktoru Tedros Adhanom Çində yayılan genişmiqyaslı koronavirus dalğasından narahat olduğunu bildirib və ölkə hakimiyyətini əhalinin həssas təbəqələrinin peyvəndlənməsini sürətləndirməyə çağırıb. Çində 2020-ci ildən "Sıfır COVID" strategiyası həyata keçirilir: virusun yayılmasını məhdudlaşdırmaq üçün yoluxmuş insanlarla təmasda olanlara məcburi karantin tətbiq edilir. Lakin bu il dekabrın əvvəlində Çin hakimiyyəti virusun yayılmasının qarşısını almaq üçün bir sıra məhdudiyyətləri ləğv edib.

Çində ardıcıl 7 gündür ki, sutkalıq yoluxma sayında antirekord qeydə alınır. Yoluxmaların əsas ocaqları paytaxt Pekin, Quancou, Çonçin, Cencou və Çendu şəhərləridir. Artıq bu dövlət yeni strategiya tətbiq edərək yalnız COVID-19 səbəbindən ölənlərin sayını qeyd etmək qərarına gəlib. Çinin Milli Səhiyyə Komissiyası açıqlamasında bildirib ki, xroniki xəstəliklər və ya infarkt kimi ağırlaşmalardan dünyasını dəyişənlərin koronavirus testinin müsbət çıxmasına baxmayaraq, rəsmi ölüm statistikasına daxil edilməyəcək.

Epidemiya başlayandan bəri yerli istehsal olan "Sinovac" peyvəndindən istifadə edən Çin ilk dəfə başqa bir ölkədən, Almaniyadan COVID-19 peyvəndini qəbul edib. Almaniyanın hökumət rəsmiləri tərəfindən verilən açıqlamada bu ölkənin biotexnologiya şirkəti "BioNTech" və ABŞ-nin dərman şirkəti "Pfizer" ilə əməkdaşlıqda istehsal edilən "BioNTech-Pfizer" peyvəndlərinin Çinə çatdırılmaq üçün yola salındığı bildirilib.

### Azərbaycanda vəziyyət stabildir

Kliniki Tibbi Mərkəzin Səhiyyənin təşkili və innovasiya şöbəsinin həkim-epidemioloqu Bənövşə Abdullayeva deyir ki, digər ölkələrlə müqayisədə Azərbaycanda vəziyyət daha yaxşıdır: "Son günlər yoluxma hallarında artım olsa da, ciddi narahatlığa əsas yoxdur. Ölkəmizdə pandemiyanın ilk günlərindən qəbul olunan qərarlar nəticəsində vəziyyəti nəzarət altında saxlamağa nail olunub".

B.Abdullayeva bildirir ki, COVID-19-un mutasiyaya uğramış ştamlarının əlamətləri mövsümi qrip simptomları ilə, demək olar ki, eynidir: "Klinikaya kəskin respirator virus infeksiyaları simptomları ilə müraciət edən hər bir xəstədən test götürülür. Götürülən testlərin əksəriyyətinin cavabı neqativ olur".

Həkim-epidemioloq onu da xüsusilə vurğulayır ki, COVID-19 aşkarlanmayan vətəndaşların, demək olar ki, hər biri 3 doza vaksin olunanlardır. Bu da ölkəmizdə həyata keçən məqsədyönlü peyvəndləmənin uğurlu nəticəsidir.

### Ehtiyatı əldən verməməliyik

Qarşıdan Yeni ilin gəldiyini nəzərə alaraq mütəxəssislər vətəndaşları ehtiyatı əldən verməməyə çağırırlar. B.Abdullayeva deyir ki, bayramla əlaqədar ölkələr və rayonlararası gediş-gəlişlər, sıx təmasların yaranması xəstəlik hallarının artmasına da səbəb ola bilər: "Vətəndaşlara çox adam toplaşan və qapalı məkanlardan uzaq durmağı tövsiyə edirik. Bu mümkün olmadığı təqdirdə isə tibbi maskadan istifadəni və gigiyena qaydalarına riayət etməyi məsləhət görürük".

"Hazırda ölkəmizdə qrip əleyhinə vaksinasiya prosesi başlayıb. İldə bir dəfə qrip vaksini olunanlar həm kəskin respirator virus infeksiyalarından uzaq olacaqlar, həm də immunitetləri güclənərək orqanizmləri digər yoluxucu xəstəliklərlə daha rahat mübarizə aparacaqlar. Vətəndaşlar virusun simptomlarını hiss edən kimi, özlərini təcrid etməli və COVID-19 testindən keçməlidirlər", - deyə həkim-epidemioloq bildirib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədr müavini Rüfət Həmzəyevə atası

**ZEYNALABDİN HƏMZƏYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov və komissiyanın üzvləri Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə anası

**ƏSLİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin əməkdaşları şöbənin müdiri Hacı Mirhəşim Seyidə anası

**ƏSLİ SEYİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclis Aparatının Milli Məclisin, komitələrin və komissiyaların işinin təşkili şöbəsinin kollektivi Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə anası

**ƏSLİ SEYİDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Aqil Abbasa əzizi

**MƏHƏMMƏDƏLİ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə anası

**ƏSLİ SEYİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə anası

**ƏSLİ SEYİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Televiziyası Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini Rüfət Həmzəyevə atası

**ZEYNALABDİN HƏMZƏYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və aparatın kollektivi Azərbaycanın görkəmli sənətkarı, Xalq artisti, tarzən

**FİKRƏT VERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Elektron statistik məlumat bazası və analitik hesabatlıq sisteminin proqram platformasının dəstəklənməsi xidmətinin satın alınması ilə bağlı elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 21 noyabr 2022-ci il tarixli qərarına əsasən "GT SOLYUŞNZ" MMC qalib elan edilmişdir. Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti tabeliyində olan "Dənizçi təmir-tikinti" MMC-yə tələb olunan tikinti materiallarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 29 dekabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı, Mikayıl Useynov küç., 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1242

***Müsabiqə komissiyası***



**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 538-97-96, 539-84-41, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6491**
**Sifariş 3698**
**Qiymәti 40 qəpik**